Əşir Bəşiroğlu

Dünya Düzəlməz

(şeirlər, poemalar, təmsillər)

Bakı-2011

Bu kitabı həyatdan vaxtsız getmiş şəhidlərmizin əziz xatirəsinə ithaf edirəm.

Redaktor: Bəhram Salman oğlu Avılov, fəlsəfə doktoru

Korrektor: Zərifə İsmayıl qızı Rzayeva, filologiya elmləri namizədi, dosent,

Əşir Bəşiroğlu

Dünya düzəlməz (şeirlər, poemalar, təmsillər)

- Bakı: Təknur nəşriyyatı, 2011.səh.

Şair Əşir Bəşiroğlu "Xatirəyə dönən günlər", "İşıqlı şəxsiyyətlər undulmur", "Dağlar ağladı", "Mətanət", "Mənim ana dilim", "Yarımçıq ömür", "Nəbi yurdu" və "Qəm karvanı" kitablarının müəllifidir. "Dünya düzəlməz" adlanan bu kitab şairin oxucularla 9-cu görüşüdür.

Kitabda vətən və oğlu dərdlərinin ağırlığından söhbət açılır, eyni zamanda gənclərdə milli düşmənimiz olan ermənilərə nifrət, Vətənə sevgi və elə məhəbbət hissi aşılanır.

Müəllif haqqında

Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-1969-cu illərdə Sumqayıt şəhərindəki Alüminum zavodunda fəhlə, növbə rəisi və sex partiya təşiklatının katibi işləmişdir. Dəfələrlə Sumqayıt şəhər Sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir.

İşləyə-işləyə təhsilini davam etdirmişdir. O, əvvəlcə mexanzasiya məktəbini, sonra isə Bakı Statiska Texnikumunu bitirmişdir. Ali təhsilə isə 1969-cu ildə V.İ. Lenin adına APİ-də yiyələnmişdir. Elə həmin ildən də Qubadlı rayonunun Mollu kənd orta məktəbində müəllim işləyir. İndi həmin məktəb Sumqayıt şəhərində yerləşir.

3 noyabr 1970-ci ildə Mollu kəndindəki "Qaçaq Nəbi" adına kolxozda kolxoz idarə heydətdinin Sədri seçilmişdir. İşlədiyi müddətdə kolxoz Keçici Qırmızı Bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunmuşdur. 25 dekabr 1975-ci ildə səhhəti ilə əlaqədar olaraq tutduğu vəzifədən azad olunmuşdur. Vəzifədən çıxdıqdan sonra o, yenə Mollu kənd orta məktəbində müəllimlik etmişdir. İndidə orada işləyir.

"Xatirəyə dönən günlər", "İşıqlı şəxsiyyətlər unudulmur", "Dağlar ağladı", "Mətanət", "Mənim ana dilim", "Yarımçıq ömür", "Nəbi yurdu", və "Qəm karvanı" kitablarının müəllifidir. "Dünya düzəlməz" adlanan bu kitab isə şairin oxucularla 9-cu görüşüdür.

Şair Əşir Bəşiroğlu Azərbaycan Yazıçılar birliyinin üzvüdür.

ÖN SÖZ

Şair Əşir Bəşiroğlunun oxuculara təqdim etdiyi "Dünya düzəlməz" adlanan bu kitab onun oxucularla 9-cu görüşüdür.

Onun bundan əvvəl yazmış olduğu "Xatirəyə dönən günlər," "İşıqlı şəxsiyyətlər unudulmur", "Dağlar ağladı", "Mətanət", "Mənim ana dilim", "Yarımçıq ömür", "Nəbi yurdu", və "Qəm karvanı" kitabları nəşr olunub oxuculara təqdim olunmuşdur. Əşir Bəşiroğlunun şeirə gəlməsi təsadüfi deyil. Şeirə həvəs onda hələ uşaq yaşlarından başlamışdır. O, şeirlərinin birində poeziyaya bağlılığını belə izah edir:

Şeirlə açanda gözümü,
Gümrah hiss edirəm özümü.
Şeir yazmasam ölərəm, inan
Odur məni dərddən qoruyan.

Müəllifin Vətən həsrətli, Vətən nisgilli şeirlərini də həyacansız oxumaq olmur. Onun böyüyüb boya-başa çatdığı Mollu kəndinin vəsfinə həsr etdiyi "Gözəl Mollum" şeiri kifayət edər ki, onun vətənə, elə, torpağa qırılmaz tellərlə bağlılığını hiss edəsən.

Qoşa qəhrəmanlar kəndidi Mollu,
Bağları bəhrəli Sünbülü dolu.
"Üç qardaş"ım inac yerim, pirimdi,
Həkəri çayım qanadımdı, qolumdu.
Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi Həcər diyarı gözəl Mollum

Onun torpağına, elinə, Vətəninə, dilinə necə dərin məhəbbətlə bağlı olduğunu "Mənim ana dilim" şeirində daha qabarıq şəkildə duymaq olur.

Bu müstəqil dövlətimin,
Şah dilisən mənim dilim.
Kim səni atsa, unutsa
Onu olsun dilim-dilim.
Qurban olum sənə dilim.

Müəllif şeirlərinin bir qismində insanları hallalığa, zəhmətə bağlılığa və Vətəni sevməyə çağırır. Bu şairin "Qonşumun aqibəti" şeirində özünü büruzə verir.

Oxucum yanma Əşirin halına,
O heç vaxt göz tikməz elin malına.
Allahın qismətinə olar qayıl,
Qızıla, var-dövlətə salmaz meyil.
Ancaq gözəlliyə olubdu mayıl.

Bu şeir onun oxuculara tövsiyyəsidir. Şeirin mayasını onun ata-anasından aldığı tərbiyə təşkil edir. Bu xüsusiyyət şairi başqalarından fərqləndirir və oxucuya yaxınlaşdırır.

Şair Əşir Bəşiroğlu Azərbaycan yazıçılar birliyinin üzvüdür. Onun bundan əvvəl oxuculara təqdim etdiyi 8 kitab oxucular tərəfindən maraqla qarşılanmışdır. Biz inanırıq ki, bu 9-cu kitabda oxucular tərəfindən maraqla qarşılanacaqdır.

Tarixin qan yaddaşı

Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir.

1. Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgərən, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi 1988-1994-cü illər. Sahəsi: - 4400 kv.km.
2. Şərur rayonunun Kərgi və Cünnüt kəndləri (17 fevral 1990) sahəsi: – 19 kv.km.
3. Laçın (17 may 1992-ci il) sahəsi: - 1835 kv.km.
4. Kəlbəcər (3-4 aprel 1993-cü il) sahəsi: - 1936 kv.km.
5. Ağdam (23 iyul 1993-cü il) sahəsi: - 1094 kv.km.
6. Cəbrayıl (18 avqust 1993-cü il) sahəsi: - 1059 kv.km.
7. Füzuli (23 avqust 1993-cü il) sahəsi: - 1386 kv.km.
8. Qubadlı (31 avqust 1993-cü il) sahəsi: - 802 kv.km.
9. Zəngilan (30 oktyabr 1993-cü il) sahəsi: - 707 kv. km.

Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur. Mən əminəm ki, bizim qəhrəman milli ordumuz tezliklə bu torpaqları düşmən tapdağından azad edəcəkdir. Sizdə əmin olun, mənim istəkli həmvətənlərim! Amin...


Qubadlı rayonu
Əhalisi 33800 nəfər
Sahəsi 802 kv.km
Kəndlərin sayı 94
Laçın rayonu
Hadrut rayonu
Cəbrayıl rayonu
Zəngilan rayonu
Ermənistan respublikası
A
B
C
D
QUBADLI
Qaraçaq
Şərti işarələr
A - B Laçın rayonu
B - V Hadrut rayonu
V - Q Cəbrayıl rayonu
Q - D Zəngilan rayonu
D - A Ermənistan respub
Kəndlər
İnzibati mərkəz

DÜNYA DÜZƏLMƏZ
(Poema)

Necə ki, yalan yol alıb yeriyir,
Düzəlməz bu dünya, vallah düzəlməz.
Pislər çox yaşayır, yaxşılar ölür,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Harda böyük-kiçik yeri bilinmir,
Elin yaxşısı, yamanı seçilmir,
Ər oğlu ərlərə qiymət verilmir,
Dözülməz bu dünya, vallah dözülməz.

***

Dardadı Vaqifin, Xanın məzarı,
Əgər biz azad etməsək onları,
Heç ruhları bağışlarmı bizləri?
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Un qarışıq, suyu bulanıqdırsa,
Yoğuranla bişirən xəbisdisə,
Halallıq, düzlük olmaz o çörəkdə.
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Yaxşıya, pisə qiymət qoyulmasa,
Böyük, kiçiyin yeri bilinməsə,
Ulduz göydə, çiçək yerdə olmasa,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Gülün xoşuna gəlir bülbül səsi,
Bülbül istəməz heç vaxtı qəfəsi,
Bilinmirsə hər dərdin öz davası,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

İlanlar sevmir əzəldən yarpızı
Bir yerdə otlamırsa qurdla quzu,
Gəlin sevmirsə qayını, baldızı,
Düzəlməz bu dünya, vallah düzəlməz

***

Samvel Azərbaycan xalq şairidi.
Yoxsa bizim Əli Kərimin adı.
Alınmaz Ələsgərin məzarı
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Tülkü ağadırsa aslan üstündə,
Dost dosta dayaq deyilsə, pis gündə,
Nərin ayağında vurulsa kündə,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Doğma vətənimizi alıb yağı,
Düşmən oylağıdı aranı, dağı.
Alınmırsa Ələsgərin məzarı,
Dözülməz bu dünya, vallah dözülməz.

***

Hərənin bir arzusu var ürəkdə,
Olmasa hallalıq duzda, çörəkdə,
Lazımsa tərlana sarın köməyi
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Kəsirlər başları fürsət olanda,
Qısnarlar divara rüşvət alanda.
Yalan, məkr ürəklərə yol tapanda,
Dözülməz bu dünya, vallah dözülməz.

***

Uşağın atadan yoxsa xəbəri,
Düz olmaz onun işi, əməli.
Eləsinin dəyməz xalqa köməyi,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Necə ki, Nəbi, Babək nəvələri,
Əldə silah minmirlər köhlənləri,
Qana qəltan etmirlər düşmənləri
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Həmişə bahara deyirlər solmaz,
Yovşan əksən ondan çəmənzar olmaz,
Necə ki, yaxşı qiymətin almaz,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Sən götürsən gücün çatmayan daşı,
Məyus edərsən dostu, həm də qardaşı.
Əgər namərd atırsa mərdə daşı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Əgər harın, nadan özünü öysə,
Aqillər yanında gözünü döysə,
Qocanın, zəifin qəlbinə dəysə,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Əl tutun, əl tutmaq Əlidən qalıb,
Əl tutan özünü bilərsə qalib,
Harınlar özün saysa yenilməz,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Allah insanları çəkir sınağa,
Ona güc verib, gətirir qınağa.
Şər olursa xeyrin üstündə ağa,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Əgər düz olmasa cığırın, izin,
Yerisən yıxılarsan, gülməz üzün.
Səmimi olmasa ürəyin, sözün,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Necə ki, hiylə, yalan minir ata,
Sərkərdə Babək aldanır Sumbata,
Qoç Koroğlu ki, inanır Həmzəyə,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Sevgiyə güc olmaz, sədaqət istə,
Hər dağdələn olmaz Fərhadtək usta.
Namərdə yalvarma, çevrilmə dosta,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Kişini saydırır çörəyi, duzu,
Namusun qoruyur gəlini, qızı.
Bilinməsə hər kəsin işi, sözü,
Dözülməz bu dünya, vallah dözülməz.

***

Çaya çatmamış çıxarma başmağı,
Qıza şərəf verər onun üz ağı.
Qadın yersiz yerə vursa yaşmağı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

İgid el-obaya arxalanmasa,
Atalar da oğluna güvənməsə,
Bülbül öz gülünü qoxlamasa,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

İnsan gərək xeyrə, şərə yaraya,
Qohum-əqrabanı, dostu araya,
Təhrif edib ağ deyirsə qaraya,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Sevənlər çox yaxşı bilər qaydanı,
Belə qısqanclıqdan gələn faydanı,
Onlar unutsalar əhdü-peymanı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Elidir insanın arxa-köməyi,
Evin bəzəyidir onun qonağı,
Kişinin olmasa halal uşağı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Dardadırsa Qoç Əlyarın məzarı,
Ora düşmürsə ərlərin güzarı,
Azad olmursa Mirinin məzarı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Kişilər görmüşəm ürəyigeniş,
Onlar büdrəməsin, görməsin yeniş.
Yaxşılar almasa təşəkkür, alqış,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Bilinmirsə böyük-kiçiyin yeri,
Şeytanın çuğlayan artarsa varı,
Zindana atsalar ər oğlu əri,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Oğullar tez ölüb sıradan çıxır,
Atalar, analar qalıb dərd çəkir,
Necə ki, vətəndə düşmən turp əkir,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Hər zaman baş verir vulkan, zəlzələ,
Alimlər bu sirri açmayıb hələ,
Necə ki, namərd mərdə qurur tələ,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Əsil, kökümüzü unuduruq biz,
Nə gecə bilirik, nə də ki, gündüz,
Doğma vətən gedib gülmür üzümüz
Düzəlməz bu dünya, vallah düəlməz.

***

Dardadı igid Həcərin məzarı,
Mir Sədi, Hacı Qaraman ocağı.
Azad etməsək ocağı, məzarı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Necə ki, dardadı ər oğlu ərlər,
«Tülkü bəy!» Azaddı, tutulub nərər,
Neçə ki, meydanda yoxdu Nəbilər,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Düşmən aldı Şuşanı, Laçını,
Oğullar itirdi qol-qıçını.
Almasaq torpaqların hamısını,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Biz qoşuruq Sayat Novaya dastan,
Düşməni ayıra bilmirdik dostdan.
Necə ki, qəfəsdə bağlıdı aslan,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Qubadlı, Cəbrayıl, Füzuli hanı?
Yoxdursa Şuşa, Xankəndi, Xocalı,
Düşmən tutdu Kəlbəcər, Zəngilan, Ağdamı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

***

Neçə ki, nadanlar olublar ağa,
Alimi, şairi qoyurlar lağa,
Bülbül cəhcəhinə gülür qurbağa,
Düzəlməz bu dünya, vallah düzəlməz

***

Əşiri göynədir İsa bulağı
Düşmənə qalıb Vaqif oylağı,
Cıdırdan gəlmirsə atın sorağı,
Ora olubsa erməni oylağı,
Eşşək çapırsa cıdırımda yağı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

OĞLUM QABİLƏ HƏSR ETDİYİM ŞEİRLƏR

AĞIR FACİƏ

Düşmən gülləsinə tuş oldu balam,
Mənim ürəyim bağlayıb dərd-vərəm.
Arada qalıbdır iki balası,
Ağlamaqdan kor olubdur anası.

***

Namərd, necə qıydın mənim balama?
Allah, niyə fürsət verdin zalıma?
Qohum-qardaş yanır mənim halıma,
Yer-göy ağlar, vallah belə ölümə.

***

Əgər siz Qəlbimi axtarsanız,
Bilin, balalarının izindədir.
Sevimli Gülnarının ürəyində
Doğma Əminəsinin gözündədir.

***

Gülnar elə bil ki, onun özüdür,
Əminə iki gözüdür.
Ramilə də onun şirin sözüdür,
Biz gecə-gündüz onları qoruyaq.

***

Balamın zövcəsi, qara bağlama!
Balaların ürəyini dağlama.
Qəlbimin yadigarı, ağlama,
Heç vaxt başına qara bağlama.

***

Oğul cənazəsi aparan ata
Yaşamaya, hardasa itə, bata.

Həyatda böyük xoşbəxtlik odur ki,
Ata cənazəsini oğul tuta.

***

Tarixin təkəri tərsinə dönür,
Görürsən ata qalır, oğul ölür.
Təbiətdə nizam təmiz pozulur,
Xarabada bayquş yox, bülbül olur.

***

Əzab çəkmək üçün yaşayır ata.
Həyatda yalnız o, kədəri tuta.
Arzumdur nəvələri xoşbəxt görmək,
Onları ərsəyə çatdırıb ölmək.

***

Allahım əmilərinə dəyməsin,
Belimi bir eyib, birdə əyməsin.
Nəvələrim yaman günlər görməsin,
Ana-bacıları qara geyməsin.

***

Aslanın erkəyi, dişisi olmaz,
Qızım, sən aslansayağı yaşa.
Atalar deyibdir tökülən dolmaz,
Ömrünü namus, qeyrətlə vur başa.

***

Oğlum, inanmıram mən yoxluğuna.
Sənin faciən ürəyimə oxudur.
Dözə bilmirəm dərdin çoxluğuna.
Mənim dərdim, hamı dərdlərdən çoxdur.

***

Sənin sevimli və əziz Gülnarın
Vaxtsız ölümünə inanmır hələ.

Bir neçə yüz illər keçsə də belə,
İnanmıram səni unuda bilə.

***

Sənin körpə Əminən qanmır indi,
Faciə o qananda olacaqdır.
Ata uşaqların əzizləyəndə
Qəlbi soğan kimi soyulacaqdır.

***

Alçaq, şərəfsizə tuş oldu canı,
Bica yerə axdı balamın qanı.
Oğlanlarım, qəddinizi əyməyin.
Ana-bacınız ağlasın, dəyməyin.

***

Əşir, doğurdan sən, nər oğlu nərsən,
Əyilmə, sınarsan əgər əyilsən.
Heç vaxt əyilmə, mərdi-mərdanə dur.
Sən daim şükür edənlərdən ol.

DAĞLAR AĞLADI

Kədərli xəbərdən dağlar ağladı,
Analar, bacılar qara bağladı.
Sənin dərdinə dözmədi Həkəri,
Hikkəsindən aşıb-daşıb çağladı.

***

Hərtizi, Səngəri duman bağladı,
Həkəri, Bərgüşad qoşa çağladı.
Ana torpaq dözmədi, qan ağladı,
Sənin dərdinə ellər yas saxladı.

***

İşıq da vermədi günəş, ay, ulduz,
Qaranlıq oldu gecə kimi gündüz.

Hələ yol gözləyir bir cüt körpə qız,
Səni çox sevən gəlin qalıb yalqız.

***

Sındırdın qəddini məğrur atanın,
Səni canından da əziz tutanın,
Daim sənin məzarında yatanın,
İntizarından ömrü sona çatanın.

***

Sevimli oğlum, sən cismən ölmüsən,
Ruhən həmişə mənim qəlbimdəsən,
Oğlum, sən həyatda gün görməmisən,
Açılmamış qönçə kimi solmusan.

***

Əşirə bu dünya zülmət gecədir,
Daha işıq vermir günəşi, ayı.
Dərdlərimin ölçüyə gəlmir sayı,
Allah, varmı bədbəxt məndən savayı?

QATİL, ƏLİN QURUSUN!

Bir qatil əlləri sənə uzandı,
Tamahı insafa üstün gələndə.
Sanmadı hədəfi hələ cavandı,
Tamahı insafa üstün gələndə.

***

Sanmadı neçə göz baxır arxanca
Sanmadı körpən var, atan, anan var.
Gözləri qızmışdı onun yamanca
Tamahı insafa üstün gələndə.

***

Xəbər, qara xəbər dözülməz oldu,
Varlığım sarsıldı, ürək dözmədi.

El-oba xəbərdən pərişan oldu,
Tamahı insafa üstün gələndə.

***

El bil biryolluq ocağım söndü,
Can verən sən oldun, ölən mən oldum.
Gələnlər soruşdu: «Bu nədən oldu?»
Tamahı insafa üstün gələndə.

***

Yadımdan çıxmayır qamətin, boyun,
Hər dəqiqə varlığım inildəyir.
Kim idi çıxardı belə bir oyun
Tamahı insafa üstün gələndə?

***

Sənin faciənə ellər ağladı.
De nədən yarandı bu qara xəbər?
Bu xəbər sinəmi yaman dağladı
Tamahı insafa üstün gələndə.

***

Dərd ağır olanda dözmək olmayır,
Düzəldib qaməti gəzmək olmayır,
Yerini boş görrəm, dözmək olmayır,
Tamahı insafa üstün gələndə.

***

Cüt balana baxıb özünü görrəm,
Gəzdiyin hər yerdə izini görrəm,
Məzarına baxıb gözünü görrəm,
Tamahı insafa üstün gələndə

***

Atan Əşir günü-gündən əriyir,
Təsəlli odur ki, qəbrinə dəyir.

Yaşamaq istəmir ölmək ijstəyir.
Tamahı insafa üstün gələndə

YATMA, OĞUL!

Hər il yanvarın biri oğlum
Qabilin doğum günüdür.

Ad günündür bu gün sənin,
Yatma, oğul, oyan, bala,
Tay-tuşdan qalırsan dala,
Yatma, oğul, oyan, bala.

***

Hər il yanvarın birində,
Çovğunlu, qarlı günündə,
Qara ad günündür sənin.
Yatma, oğul, oyan, bala.

***

Namusla gözləyir yarın.
Çox darıxır balaların.
Səni anır qohumların
Yatma, oğul, oyan, bala.

***

Anan çöpə döndü, əridi,
Ölən vaxtı səni andı,
Dözmədi yanına gəldi.
Yatma, oğul, oyan, bala.

***

Bacı-qardaş səni anır,
Hər gün məzarın dolanır.
Çarpayın açılı qalır.
Yatma, oğul, oyan, bala.

***

Balanı al qucağına,
Əl çək onların saçına.
Onlar atalı böyüsün.
Yatma, oğul, oyan, bala.

***

Sağ olsun sənin yarını,
Yaxşı saxladı yolunu.
Çağırır Ramilə yarın,
Yatma, oğul, oyan, bala.

***

Atan yaman dərdli yazır,
Yerişin, duruşun azır.
O, dərddən bir qala qurub
Yatma, oğul, oyan, bala.

***

Naməd atdı güllə sənə,
Biz çatdıq son nəfəsinə.
Əbədi getdin yuxuya,
Yatma, oğul, oyan, bala.

***

Yanvarın biri yetmişdə,
Şaxtalı ayazlı qışda,
Sən dünyaya göz açmısan.
Yatma, oğul, oyan, bala.

***

İki min iki son ildi,
On bir mart son günündü.
Sinəmdə ki, dağ-düyündü.
Yatma, oğul, oyan, bala.

***

Balam yaşa dolasıydı,
Mərd bir kişi olasıydı...
İndi yaşı qırx olardı,
Yatma, oğul, oyan, bala.

***

Sənə güllə atan yerdə,
Düşmənin əli əsəydi.
Allah nəfəsin kəsəydi.
Yatma, oğul, oyan, bala.

***

Hər görəndə balaları,
Sən düşürsən yada, oğul.
Niyə ölüb itmir çuğul.
Yatma, oğul, oyan, bala.

***

Gülnar anır ölümünü,
Əmiş gözləyir yolunu.
O, qucmaq istər boyunu.
Yatma, oğul, oyan, bala.

***

Atan dərdə dözə bilmir,
Səndən əlin üzə bilmir.
Kaş ölümün yalan ola.
Yatma, oğul, oyan, bala.

***

Atan Əşir çox dərdlidir,
Dərd-qəm ürəyin əridir.
Qabilinə həsrətlidir.

Dözür, hələ qüvvətlidir.
Yatma, oğul, oyan, bala.

01.01.2011

OĞLUM QABİLƏ

İllər bir-bir ötüb keçəcək,
İşlər öz yoluna düşəcək.
Hər qızın bir oğlan səvəcək,
Qohumlar şadlanıb güləcək

***

Sevinc bürüyəcək onları,
Oğlum görməysəcək bunları.
Saçı ağarmış qadın ağlar,
O qadın ərini çağırır.

***

Səsləyir oğlumun qadını,
Deyir qoy nəvənin adını,
Körpə gedir qüruba sarı.
Görməyəcək oğlum bunları.

***

Hər iş axarına düşəcək,
Balaları xoş gün görəcək.
Oğlum, illər keçdi səndən yan,
Xoş günün olmadı bircə an.

***

Ömrünün ən ahıl çağı,
Əşiri əydi bala dağı.
Əllərin quruyardı, yağı,
Balamı nişan alan zaman,
Qaranlıq çökəydi gözünə,
Öz güllən dəyəydi özünə.

ALLAH KƏRİMDİR

Dərd bir olsa, onu çəkməyə nə var,
Bu qədər dərdin mən hansını çəkim?
Vətən dərdi, oğul dərdi, el dərdi...
İstəyirəm həyatımdan əl çəkim.

***

Dərdim dağa yüklənsə, dağ əriyər.
Filə də yüklənsə, dizi bükülər.
Xəyalla gəzirəm dağı, aranı
Ürəyə salıram qarı, boranı.

***

Ürəkdə təpər, canda taqət yoxdur.
Sevinc məndən qaçır, kədərsə çoxdur.
«Gəlmə», «köçkün», «qaçqın» sözü eşitmək
Mənim ürəyimə sancılan oxdur.

***

Əşir, sənin yaran çox-çox dərindir,
Səbr elə, dərd ürəyini əridir.
Tək çəkmə, bu həm də elin dərdidir,
Hər şeyin sonu var, Allah kərimdir.

***

YAŞAMAĞIN NƏ MƏNASI

Elə sarsılmışam səndən sonra, Qabil
Özümü özümdən soruşmuram bəzən.
Dost-tanış mənə deyir: «Səbir et, səbir»,
Ölmüş bilir, oğrun-oğrun məni süzən.

***

Həmişə gəzirəm sakitlik, künc-bucaq,
Daim oluram mən insanlardan uzaq.

Elə gəzib axtarıram doğma ocaq,
Çöldə gəzməkdən öldürür məni sazaq.

***

Görüşəndə tanımıram dost-tanışı,
Yaxın dostların məyus olur hamısı.
Elə bilirəm hər yer zülmət gecədir,
Sanki günəş, ay doğmur, batıb hamısı.

***

Əşir, sənin bu dərdin çox ağır keçdi,
Sənin ömrün başa çatıb, artıq gecdi.
Bundan sonra yaşamağın nə mənası?
Nə qədər yaşasan da, axırı heçdi.

İBADƏTGAHIM

Məzarın önündə dayanmışam lal,
Danışa bilmirəm, dinə bilmirəm.
Məni qucaqlayıb qara bir xəyal,
Danışa bilmirəm, dinə bilmirəm.

***

Xəyal uzaqlara aparır məni,
Sənin körpəliyin yadıma düşür.
Əksini görəndə məzar daşında,
Dilim söz tutmayır, varlığım üşür.

***

Bircə yol baş qaldır, möcüzə yarat,
Bircə an da olsa, ruhumu et şad.
Yanan ürəyimə bir damla su at,
Mənim ürək param, ay Qabil balam.

***

İnana bilmirəm bu yoxluğa mən,
Elə bil qəlbimdə günəş tutulub.
İnana bilmirəm şirin həyatdan
Mənim ürək parçam, Qabil yox olub.

***

Məzarından səs gəlir, deyir, ata,
Gözyaşı tökməyin nə mənası var?
Bir də bu yerlərdə məni axtarma,
Qayıt, cüt balanın qəlbində axtar.

***

Əşirin, dərd çəkir məni bu yerə,
Atayam, yüksəlib göylərə ahım.
Hər gün gələcəyəm mən bu yerlərə
Çünki bu məzardı ibadədgahım.

***

OĞUL DƏRDİ

Gəlib çatdı acı xəbər,
Varlığımı aldı kədər.
Bütün ömrümə bəs edər,
Oğul dərdi, oğul dərdi.

***

Evimin səmti pozuldu,
Cüt balanın gözü doldu,
Mənə hamıdan çox oldu,
Oğul dərdi, oğul dərdi.

***

Qürbət öz qoynuna aldı,
Düşmən səni tora saldı,

Ahım göylərə ucaldı
Oğul dərdi, oğul dərdi.

***

Dizimin taqəti bitdi,
Pəhləvan bir oğlum getdi
Gözümün işığı itdi,
Oğul dərdi, oğul dərdi.

***

Cənazəsi ağır getdi,
Ana-bacı fəryad etdi.
Bununla şad günüm bitdi,
Oğul dərdi, oğul dərdi.

***

Ayrılığa dözümüm yox.
Ömür qısa, dərd isə çox,
Əşir, dərdinə çarə yox,
Oğul dərdi, oğul dərdi.

ANAR

Qabilin əziz xatirəsinə

2002-ci il, İrkurtsk şəhəri,
Şaxtalı qış axşamı,
Şaxta kəsir adamı.
On bir mart gecəsi,
Qabilin faciəsi.
Qabil evə gedirdi,
Qatillər onu güdürdü.
Evə çatan an
Qabilə güllə atdı
Qatillər arxadan.

Qabil yerə yıxıldı,
Əbədi yumdu gözünü,
Deyə bilmədi son sözünü...
Çatdı elə Qabilin ölüm xəbəri
Artdı bir elin dərdi, kədəri.
Şivən etdi analar
Qan tökənlər, yananlar,
Ağladı qız-gəlin.
Qatil, quruyaydı əlin!
Gor olaydı yerin!
Ömrünə qıydın
Bir cavanın, nərin.
Bir gəlini dul qoydun, iki qızı atasız,
Sizi gorda yatasız...
Ağır dərddi oğul dərdi,
Dedilər: - Bəşir oğlu Əşir nərdi.
Dərdə sinə gərdi,
Ağlamadı, qovruldu, yandı,
Dağ kimi dayandı.
Qanan qandı,
Qanmayan nadandı.
Ağladı için-için,
Cavan köçən oğul üçün
Nəvəsi üçün, gəlini üçün.
Bəşir oğlu Əşir!
Oğul dərdi ağır dərddi,
Bu dərdi çəkən mərddi.
Dəyirmanda üyüt dəni,
Eşit məni
İstəmirəm

Oğul itirən ata,
Yasa bata.
Sarıl qələmə!
Tənbəllik eləmə!
Qələminlə ölümün
Bağrını yar!
Bu dünyada söz qalar.
Keçər neçə əsr,
Oxuyur neçə nəsil,
Qabilin faciəsinə yanar,
Səni də anar.

Mirzə Mehdi

QABİL DƏRDİ, TURAL DƏRDİ

Dayım oğlu Əliyə

Mənə çatdı qara xəbər,
Ömür-günüm oldu hədər.
Ömrə bəs edər bu kədər,
Qabil dərdi, Tural dərdi.

***

Qabilimin izi qaldı,
Vardır onun cüt balası.
Turalımın sözü qaldı,
Qabil dərdi, Tural dərdi.

***

Birisini qərib diyar,
O birini vətən yedi.
Ata-ana içdi zəhər,
Qabil dərdi, Tural dərdi.

***

Hər ikisi ucaboylu,
Qamətləri lap şux idi.
Anaları olub hoylu,
Qabil dərdi, Tural dərdi.

***

Birisini pul apardı,
O birisi hədər getdi.
Ömürlərin gül çağıydı,
Qabil dərdi, Tural dərdi.

***

Vətən dərdi bəs deyilmiş?
Üstə gəldi oğul dərdi.
Ataların belin əydi
Vətən dərdi, oğul dərdi.

***

Əşir, sənin ah-nalən,
Çıxıb ərşə, daha bəsdi.
Var Əminə, Gülnar balan
Şükür elə, daha bəsdi.

***

İLHAMIM, QABİLİM UÇDULAR QOŞA

Kürəkənim Abbasa təsəlli

Cavan ölümü heç gəlməyir xoşa,
Fikirdən az qalır ki, ağlım çaşa,
Gecələr dərdlə verirəm baş-başa,
Bircə anda gedə bilmirəm huşa,
İlhamım, Qabilim uçdular qoşa.

***

Ucaboylu, şuxqamətli, cürətli,
Düşmənə amansız, qeyrətli, məğrur,
Sərv qamət dağlarla boya boy durur
Nə iş görürəm əlim çıxır boşa,
İlhamım, Qabilim uçdular qoşa.

***

Nəzakət bacım qardaşım Abbas,
Sizi öz balam tək bağrıma basım,
Ürək döyüntünüzə qulaq asım,
Sızlayaq , ağlayaq bir gedək huşa,
İlhamım, Qabilim uçdular qoşa.

***

Övlad itkisini çəkənlər bilir,
Dərd onun belini bükənlər bilir,
Həmişə gözyaşı tökənlər bilir,
Ağlayıb hirsimdən gəlirəm cuşa,
İlhamım, Qabilim uçdular qoşa.

***

Oğul cənazəsi aparsa ata,
O zaman onun ömrü sona çata.
Oğul dağı görməsin heç bir ata,
Şükür Allaha, təbim gəlir cuşa,
İlhamım, Qabilim uçdular qoşa.

***

Əyilən qamətəm, quruyan yaşam,
Dözürəm bu dərdə, «ürəyi daşam».
Dərdlilərim: Nəzakətim, Abbasım,
Tez gəlin, ağlayaq, verək baş-başa.
İlhamım, Qabilim uçdular qoşa.

***

Sakitləşin, bulud kimi dolmayın,
Qalana baxın, naşükür olmayın,
Gözyaşı töküb, saralıb solmayın,
Həmişə bir ağlayaq, gedək huşa
İlhamım, Qabilim uçdular qoşa.

***

Əşir yenə qələm alıbdır ələ,
Hirsindən az qalır dağları dələ,
Namərd düşmən bizə qurubdur tələ,
Alınsa Vətən, təbim gələr cuşa,
İlhamım, Qabilim uçdular qoşa.

***

QABİLİM

Mən sənin dərdinə dözə bilmirəm,
Sən məzardan baş qaldır, gəl əzizim.
Sənin körpəliyin yadıma düşür,
Gəl qucaqla atanı, öp, əzizim.
Qabilim, Qabilim, mənim Qabilim.

***

Sənsiz gündüzüm də gecə olubdu,
Qamətim əyilib kaman olubdu,
O gül rəngim saralıbdı, solubdu,
Məğrur atan bulud kimi dolubdu,
Qabilim, Qabilim, mənim Qabilim.

***

Sən çox heyran idin vətən ətrinə,
Mən o ətri qatdım şeirin sətrinə.
Hələ yaşayıram sənin xətrinə,

Vətən torpağı səpəcəyəm qəbrinə,
Qabilim, Qabilim, mənim Qabilim.

***

Atan Əşir dözə bilmir bu dərdə
Az qalıb dərd ürəyimi əridə,
Kaş Ulu Tanrı möcüzə göstərə
Cavanlar dirilə, evinə gələ
Qabilim, Qabilim, mənim Qabilim.

***

MÖCÜZƏ UMURAM

Allah, nə olar,
Evdə oturub
Şeir yadığım zaman
Zəng çala telefon.
Mən dəstəyi qaldıran zaman,
Eşidəm Qabilin doğma səsini.
Əvvəlki zarafatcıl,
Mənalı, xoş avazını.
O, mehriban gülüşü ilə
Qışqıra dəstəyə,
- Necəsən, ata?
Qabiləm, təyyarədə uçuram,
Az müddətdə mən,
Vətənə qovuşaram.
Elə bilməyin ki, ölmüşəm,
Nə müddətdir mən.
Uzaq səfərdə olmuşam.
İndi gəlirəm Vətənimə,
Çatmaq istəyirəm.
Bacıma, ata-anama.

Səfərbər edək ordumuzu
Azad edək doğma yurdumuzu.
Toyumuz, yasımız
Qoy orda olsun.
Allah möcüzə yaratsın,
Üzümüz gülsün.
Əşir çox sevinər buna
Vətəndə gedər toya, düyünə,
Qovuşar elinə, obasına,
Ata-anasına, həm balasına.

AĞLASIN

Çatdı bizə amansız qara, xəbər,
Daşdansın, gözümdən sellər ağalsın.
Boğur məni zəhərli acı qəhər,
Gəlsin yasa anam, bacım ağlalsın..

***

Qabil əziz oğlum, mehriban, balam!
Az qalmışam dərdindən dəli olam.
Sənin həsrətindən saralıb solan,
Bir cüt körpə, məsum balan ağlasın.

***

Övlad itkisinə dözməyir atan,
Yox məni bala tək bağrına basan.
Sakit hönkürtümə yox qulaq asan
Gəlsin mənim madar qızım ağlasın.

***

Əşir, sən yaralısan, bəxtin kəmdir,
Sənin təsəllin bircə cüt nəvəndir,
Ağlayırsan, gəlin, gözlərin nəmdir,

Qoyma sənə baxıb balan ağlasın.

DƏRDİMİ ON DƏVƏ ÇƏKMƏZ

Qabilin əziz xatirəsinə

Dərdimi yüksələn on dəvə çəkməz,
Başdan-başa qəm-kədərli ürəyim.
Qabilin dərdi də ölçüyə gəlməz.
Elə bil əzilib, sınıb dirəyim.

***

Dərdərin üstünə dərdlər yüklənir,
Cismimdən ruhum da çıxıb eşiyə.
Sinəmdən çal-çarpaz dağlar çəkilib.
İstərəm qayıdam girəm beşiyə.

***

Baş açmaq olmayır dünya işindən,
Yaxşıları tez götürür aradan.
Çoxlarını o keçirir dişindən
Niyə qıyır bu işlərə Yaradan?!

***

Səyavuş qoymusan adımı mənim,
Zəmanə dəyişib, vətən dağlıyam.
Qəlbimdə həddindən çox olur dərdim,
Yurduma, elimə hər an bağlıyam.

Səyavuş Vətəndağlı

ANAN YANINA GƏLİR

Həyat yoldaşım Sərmayə xanımın vəfatı münasibəti ilə

Oğlum, anan yanına gəlir,
Girəcəksən ana qoynuna.
Atacaqsan təkliyin daşın,

Söhbətə qarışacaq başın.

***

Mehriban qarşıla ananı,
Səni sevib, candan yananı.
Ananla birgə gülər üzün,
Onunla tutar söhbət-sözün.

***

Atana yer saxla yanında,
Birgə yataq qəbir evində.
Sənինlə bir gülər üzümüz,
Uzaqlaşar qəm-kədərimiz.

***

Çatmaqçün sənin vüsalına
Fəryad edib ağladı anan.
Görəndə ki, qovuşur sana
Qol götürüb oynadı anan.

***

Oğul dərdinə dözməyir ürək,
İstəyirəm balamı görmək.
Köç eləyir yanına anan,
Sonra sənə qovuşar atan.

***

Faciənə dözmədi anan,
Sənə ürəkdən, candan yanan
Ağladı, kor etdi gözünü,
Saçın yolub, üzdü özünü.

***

Atan istəyir yanına gələ,
Yarımçıqdır işləri hələ.
Tamamlar oğul dastanını,

Sonra o da kəsər yanını.

***

Allah, ağarmış oğul dağı,
Əridi ürəyimin yağı.
Balama əl qaldıran yerdə,
Əllərin quruyardı, yağı!

***

Atan Əşir dözmür dərdə,
O çəkəni çəkməzdi nər də.
Dərdi qoşadı oğul, vətən.
Ər oğuldu bu dərdi çəkən.
Vətənə çox uzaqdı yolum,
İstərəm oğluma qovuşam.

ÇIX YASDAN

Şamil balam, çıx yasdan.
Bəsdi daha ağlama.
Ağladıqca qəlbimi
Çalın-çarpaz dağlama.

***

Mən çox ömür sürmüşəm,
Çox faciə görmüşəm,
Düzdür, yaran dərindir.
Ağır yük də nərindir.

***

Səni qəmli görəndə,
Daha əyilir belim.
Oğlum, səni şad görüm
Mən də deyim və gülüm.

***

Köçüb tayım-tuşlarım,

Həyatda tək qalmışam.
Qəlbə axır göz yaşım,
Bağrı yara olmuşam.

***

Sən uca tut başını,
Axıtam göz yaşını,
Düşmən görsün, xar olsun,
Ürəyinə ox olsun.

***

Sən Allah, qırx üzünü,
Qaydaya sal özünü,
Yasdan çıx, şux gəz bala!
Tay-tuşdan qalma dala.

***

Atan qurban gözünə,
Bir fikir ver özünə,
Baxsan ata sözünə,
Əşir gələr özünə.

OYAN, OĞUL!

Atan dözə bilmir dərdə,
Yalvarıram, oyan, oğul!
Hara belə tələsirsən?
Atan qurban, dayan, oğul.

***

Dözəmmirəm daha bala.
Məni dərdə sala-sala,
Tələsirsən hara belə?
Dayan oğul, getmə, bala!

***

Tez çəkirsən karvanını,

Heç demirsən atam hanı?
Xəstə canım dözmür daha,
Dayan oğul, getmə, bala!

***

Əzrayıl da çaş-baş qlıb,
Tapıb ala bilmir canım,
Donub, daha axmır qanım,
Dayan oğul, getmə, bala!

***

Tale qarğayıdı bizi,
Çaş-baş salıb ömrümüzü.
Mən tez getməliyəm gora,
Atan qurban, dayan, bala!

***

Əşir ölsə çıxar yasdan,
Canı qurtarar həsrətdən.
Gedər məzar komasına
Yetər Qabil balasına.
Dayan oğul, getmə, bala!

VƏTƏN SƏNSİZ, OĞUL SƏNSİZ

Tarpağım, daşım basılıb,
Gözlərimdən yaş asılıb.
Ürəyimdən daş asılıb.
Dözəmmirəm daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

***

Aslanlar quzu olubdur,
Nərin dizi bükülübdür,

Dağlar, daşlar əriybdir,
Dözəmmirəm daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

***

İçin-için ağlayıram,
Gecə-gündüz sızlayıram.
Günlərim çox ağır keçir,
Dözəmmirəm daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

***

Əşir ağır yaralanıb,
Vətənindən aralanıb.
Yuxu da getmir gözünə,
Dözə bilmir daha dərdə,
Vətən sənsiz, oğul sənsiz.

NƏ AĞIRMIŞ OĞUL DAĞI

(Poema)

I hissə

Yetmişinci il yanvarın birində,
Çal-çağırdı Qubadlı ellərində.
Nəbi, Həcər eli Mollu kəndində,
Bir körpə doğuldu ata yurdunda.

***

Gəldi müdrik kişi, ağbirçək qadın,
Qabil qoydular o uşağın adın.
Sevindirdi qohumun, dost-qardaşın,
Nənə-babasın və ata-anasın.

***

Xoşbəxt yaşadı, ətə-qana doldu.
Ata-anasının sevimlisi oldu.
Üç yaşında sayırdı yüzə qədər,
Fiqurlardan evcik qurar, ev tikər.

***

Elə ki, Qabil çatdı beş yaşına,
Yeni fikir düşdü onun başına.
Dedi: - Gedəcəm zabitlər kursuna,
Sərkərdə olacam güclü qoşuna.

***

Nəbi babam kimi qoçaq olacam,
Zalımları yurdumuzdan qovacam.
Düşmənləri qırıb canın alacam,
Vətən keşiyində sayıq duracam.

***

Dörd qardaşın sonbeşiyidi Qabil,
Böyükdülər Tahir, Məzahir, Şamil.
«Mən hamınızdan güclüyəm» – deyərdi
Qardaşları sevinərdi, gülərdi.

***

Püşk atardı, bölərdi qardaşları,
Deyərdi Tahirlə Məzahir birdi.
Mənim püşkümə düşənsə Şamildi,
Sevinc isə təkcə mənim bacımdı.

***

Qamış atını minərdi, çapardı,
Əlinə taxtadan qılınc alardı.
Özünü Cavanşirə, Koroğluya
Gah Babəkə, Nəbiyə bənzədirdi.

***

Tarixə də o çox meyil edərdi,
Tarixi şəxsləri əzbər bilərdi.
İsgəndər dünyanı işğal elədi,
Uşağa, yaşlıya da rəhm etmədi.

***

Şah İsmayıl şair, sərkərdə idi,
O, xalqının qəhrəman oğlu idi.
Böyük bir dövlət qurub, qoyub getdi,
Böyük dövlət sonra niyə kiçildi?

***

Sərkərdə Brutu bəs nə vadar etdi?
Yuli Sezarın o qətlinə getdi
Bu saxta yoldan o niyə qaçmadı?
Saxta işdən özü də baş açmadı.

***

Qabil hələ altı yaşında ikən
Oxumağı, yazamğı da bilirdi.
Çoxlu nağıl oxuyub öyrənirdi,
Müsbət qəhrəmanlarla fəxr edərdi.

***

Şah Abbas çoxlu müharibə etdi,
Millətimin dili əlindən getdi.
Oğul öldü, ana saçını yoldu,
Dövlətim dönüb fars dövləti oldu?

***

Ata, Babəki niyə satdı Sumbat?
Ermənidə heç vaxt olmur ləyaqət?

İgid Babək niyə inandı ona?
Mən Sumbatı bulayacam al-qana.

***

Onun sualının olmazdı sonu,
Sevərdi Nəbini, gah Koroğlunu.
Cavidan, Babək cəlb edirdi onu,
Oxuyardı Yusif Səmədoğlunu.

***

Elə ki, o, çatdı məktəb yaşına,
Yeni fikir düşdü onun başına.
Götürdü kitabla dolu çantanı,
Beşlə sevindirdi ata-ananı.

***

Fənlərin hamısını sevərdi Qabil,
Dəqiq elmlərə edərdi meyil.
Müəllimlər oyatmışdı marağı,
Onlar göstərirdi Qabilə qayğı.

***

Tədbirlərdə çox fəal idi Qabil,
Dostu idi əmisi oğlu Habil.
İkisi bir oturardı qabaqada,
Gözləri önündə olardı taxta.

***

Sakit qulaq asardı müəllimə,
Ağzından çıxmazdı bir artıq kəlmə.
Sonda sual verərdi müəllimə,
Qane edərdi onu bircə kəlmə.

***

Dərslərindən həmişə alardı beş,
O özün öyüb qürrələnməzdi heç,

Qabil sadə aparırdı özünü,
Yoldaşdan gizləməzdi bir sözünü.

***

Qabil həmişə «sinifkom» olardı,
Yanı-yörəsi dostlarla dolardı.
Müəllimləri onu çox sevərdi,
Fərəhdən gözləri daim gülərdi.

***

Ev işlərinə də kömək edərdi,
Qoyun və mal nobatına gedərdi.
Bağı becərərdi, odun yarardı,
Ata-ana qulluğunda durardı.

***

Qardaş-bacı çox sevərdi onu,
Fəxr edərək oxşayardı boyunu.
Müəllimlərinə qoyardı hörmət,
Deyərdi yolumda çəkirlər zəhmət.

***

Bütün fənləri ürəkdən sevərdi,
Həmişə oxuyardı və yazardı.
Oxuyub elmi dərindən bilərdi,
O, dastan oxuyardı, şeir yazardı.

***

Şəhriyara ithaf etmişdi qəzəl,
«Heydər baba»sını bilirdi əzbər.
Deyərdi niyə Vətən paralanıb?
Nədən qardaş-qardaşdan aralanıb?

***

Allahım, nə olar qurusun Araz,
Açılsın sərhəd, Vətənə gəlsin yaz.

Bacılar sevinsin qardaş boyuna,
Getsin onun nişanına, toyuna.

***

İnanıram, elə bir gün gələcək,
Vətən birləşəcək, bütöv olacaq.
Qardaş çatacaq qardaşın hayına,
Gedəcək yasına, həm də toyuna.

***

Şah İsmayıl Xətaini çox sevir,
Deyərdi həm sərkərdədi, həm şair.
Həyat elə bil möcüzə nağıldı,
O qurduğu dövlət niyə dağıldı?

***

Taleyi qarğayıb, işi əyəndə,
Düşmənləri ona qalib gələndə,
Bağışlardılar şeirinə, sözünə.
Siz bir fikir verin sözün gücünə.

***

Çoxlu romanlar oxuyardı Qabil,
Qəhrəmanlarını sayardı bir-bir.
Deyərdi mən də qəhrəman olacam,
Düşmənləri yurdumuzdan qovacam.

***

Qabil orta təhsili vurdu başa,
Attestatda beşləri qoşa-qoşa.
Bütün zəhmətləri arxada qaldı
Məktəbdə ilk medalçı şagird oldu.

***

Müəllimləri verdi xeyir-dua.
Qabili medalla saldılar yola.

Müəllimlər qarşısında baş əydi,
Əllərin öpərək gözləri doldu.
***
Dedi: «Heç zaman unutmaram sizi,
Mən doğruldacam etimadınızı.
Sizin sayənizdə mən medal aldım
O çətin yolları arxada qoydum».
***
Onda inam vardı ocağa, pirə.
Çətinə düşəndə gedərdi ora.
Kəndə yaxın idi «Üçqardaş» piri.
Kəsilməzdi ordan Qabilin yolu.
***
Pirə gedənlərə yol göstərərdi,
Onları qarşılar, yola salardı.
Qocaya, zəifə arxa durardı.
Gücü çatan qədər kömək edərdi.
***

II HİSSƏ

Başladı Qabilin sərbəst həyatı,
Artdı qayğıları, məsuliyyəti.
Gecə də, gündüz də hey çalışırdı,
Qabil instituta hazırlaşırdı.
***
Yığıldılar qohumlar, ağsaqqallar
Dayıları Əhməd, Famil və dostlar.
Medal almasını təbrik etdilər,
Şənləndilər, oynadılar, güldülər.
***

Əmisi Nüsrət, qardaşları və mən
Dedik:–Bala, indi dəyişib zaman,
Qızıl medalın niyə gümüş oldu?
O da sənə mənəvi zərbə vurdu.

***

Sən həmişə çıxmısan bərkdən-boşdan
Rus dilini bilirsən azdan-çoxdan.
Bir az da öz üzərində çalışsan,
Rus dilinə bir qədər alışarsan.

***

Qabil bu sözləri saf-çürük etdi,
O, hazırlaşaraq Rusiyaya getdi.
Hərbi xidməti orda vurdu başa,
Orada püxtələşib doldu yaşa.

***

Həkim olmaq idi onun arzusu,
Çalışırdı bütün gecə-gündüzü.
Birinci imtahandan o beş aldı,
Bütün çətinliklər arxada qaldı.

***

Tibb Universitetində oxudu,
Gözəl bir stomatoloq həkim oldu.
Fərqlənmə diplomu gətirdi bizə
Elə bil ki, gün doğdu üzümüzə.

***

İrkutsk şəhərində işə girdi.
Diş müalicə edər və çəkərdi.
Yaraşıqlı gözəl dişlər salardı,
Yanına gələnlər razı qalardı.

***

Saşa həkim ona qoyardı hörmət,
Qabilin yolunda çəkərdi zəhmət.
Həkimlər bəyənərdi onun işin
Həm müalicəsin, həm də çəkilişin.

***

Qabil, Valentina, Olya və Saşa
Dördü bir yerdə gəzərdi həmişə.
Olya can alan, mavi gözlü gözəl,
Qabilə atəşin salardı nəzər.

***

Məstedici, şuxqamətli gözəli,
Səmimi dost kimi sevərdi Qabil.
Görənləri yandırsa da o gözlər
Qız ancaq Qabilə salardı nəzər.

***

Qabil anlayanda qızın fikrini
Ona dedi nişanlı olduğunu.
Dedi: – Mən dost kimi sevirəm səni,
Sən də özünə bir sirdaş bil məni.

***

Olya bir müddət bilmədi özünü,
Qabildən çəkə bilmirdi gözünü.
Qız mərdliklə ələ aldı özünü,
Qabilə dost kimi dikdi gözünü.

***

Qız gözəl bir oğlana ərə getdi,
Qabil dost kimi ona kömək etdi,

Olya da gəldi Qabilin toyuna,
Bizim havalarda girdi oyuna.

***

Qabilin işləri yaxşı gedirdi,
Qardaşları onunla fəxr edirdi.
İş yerində çox olardı müştəri,
Sağaldıb sonra salardı dişləri.

***

Qardaşlarının yanına gedərdi,
Onların işinə kömək edərdi.
Qardaşları çox istərdi xətrini,
Qabildən alırdı Vətən ətrini.

***

İyun, doxsan yeddidə toyu oldu,
Sevincdən doğmaların gözü doldu.
Aldı elimizin gözəl qızını
Ayağı altında kəsdik quzunu.

***

Bizim sevincimiz aşıb-daşırdı,
Oynayanlar meydanda dolaşırdı.
Dostlar və qohumlar yeyib-içirdi
Cavanlar özlərinə qız seçirdi.

***

Ata-anasının gülürdü üzü,
Gəlinləri idi o dan ulduzu.
Arzumdur ki, çox ola oğlu, qızı
Körpə səsi bəzəyə evimizi.

***

On avqust, doxsan səkkizinci ildə
Rusiyanın İrkutsk şəhərində,

Böyük qızı Gülnar dünyaya gəldi,
Valideynlərin gözləri güldü.

***

Beşi iyul, iki mininci ildə
Əminə balası anadan oldu.
Körpə səsi çoxaldı Qabilgildə,
Şənlik, toy-büsat oldu bizim evdə.

***

Qızların sevirdi dünyalar qədər
Allah əməyini etməsin hədər.
Vətənə gəlmək idi son arzusu
Vətənində bol olardı ruzisi.

***

Qardaşları da sevirdi vətəni,
Görmək istəyirdi ata-ananı.
Qürbət yaman sıxırdı qardaşları
Fikidən zəhər olurdu aşları.

***

Qardaşlar elmi vurmuşdular başa,
Qürbətdə onlar dolurdular yaşa.
Ürəkləri istiyirdi Vətəni
Qohumları, həm də ata-ananı.

***

Birinci Qabil gəlirdi Vətənə,
Yolunu gözləyirdi ata-ana.
Qabilgil Vətənə hazırlaşırdı
O, işlərini sahmana salırdı.

***

Qardaşlarının yanına getdi Qabil,
Onu yanına çağırmışdı Şamil.

Bir çanta pul ilə gələrkən evə
Zalımlar arxadan atdılar güllə.

***

On bir mart, iki min ikinci ildə,
Axşam saat səkkiz radələrində,
Qarlı, çovğunlu İrkutsk şəhərində,
Ömrü sona çatdı bircə güllədə.

***

Güllə ürəyi dağıdaraq keçdi,
Bununla da həyatı sona yetdi.
Qabilim aça bilmədi gözünü
Yazıq deyə bilmədi son sözünü.

***

Gəlin dul qaldı, iki qız atasız,
Qatil, sizi görüm gorda yatasız.
Niyə qurumadı sizin əliniz?
Gərək kor olaydı sizin gözünüz.

***

Çatdı el-obaya ölüm xəbəri,
Çoxaldı bir nəsil dərdi, kədəri.
Saçların yoldu bacılar, analar
Zalımları gərək gorda yanalar.

***

Ömrü qırıldı bir cavanın, nərin,
Şivən etdi ana, bacı, qız, gəlin.
İki körpə qızı qoyduz atasız,
Qatillər, sizi cəhənnəmdə yanasız.

***

Atası dözmür, ağlar için-için,
Anası dünyadan çəkibdir köçün.

Bacısı həmişə qanlı yaş tökür,
Dərd-qəm qardaşların belini bükür.

***

Atası səs salıb külli-aləmə,
Gecə-gündüz sarılıbdı qələmə.
Qələmlə çıxarır acı-ağrını,
Yarmaq istəyir ölümün bağrını.

***

Qızlar hələ gələ bilmir özünə,
Gecələr də yuxu getmir gözünə.
Allah, niyə yatıb bizim bəxtimiz?
Ağlar keçir bizim gecə-günümüz.

***

Əşir lənətləyir külli-aləmi,
Hər zaman əlində yazır qələmi.
Vəfasız dünyada ancaq söz qalar
Əhli-hallar oxuyub məni anar,
Balamın ölümünə isə yanar.

BAYATILAR

BU DAĞI

Əzizinəm, qan axdı,
Sinəm qanax-qanaxdı.
Oğlu ölən atanın
Gözlərindən qan axdı.

***

Əzizinəm, qan axar,
Su yerinə qan axar.

Oğlu ölən ananın
Ürəyindən qan axar.

***

Əzizinəm, bala dağı,
Sinəmdə bala dağı.
Əlin qurusun, yağı,
Sən törətdin bu dağı.

***

Əzizinəm, gül açdı.
Güllə səndə gül açdı.
Bacı, yolma saçını,
Axı qulac-qulacdı.

***

Əzizinəm, dil açdı,
Körpələrin dil açdı.
El sənə deyər ağı,
Yarın çəkər bu dağı.

***

Əzizinəm, bu dağı,
Bülbül istər budağı.
Əlin qurusun, qatil!
Kim çəkəcək bu dağı?

***

Dağ qarışıbdı dağa,
Dağ da dözməz bu dağa.
Qardaşı ölən bacı
Necə dözər bu dağa?

***

Bu dərddən dağ əridi,
Gözümdə yağ əridi.

Gülün sındı budağı,
Bülbül çəksin bu dağı.

***

Kim törətdi bu qanı?
Bu qovğanı, bu qanı.
Ulu Tanrı, ucasan,
Yerdə qoyma bu qanı.

***

Bu Qubadlı dağıdı,
Üstündəki yağıdı.
Məndəki qoşa dağlar
Vətən, oğul dağıdı.

***

Düşmən pusquda durdu,
Bizi arxadan vurdu.
Bu dərdə dözən ata
Necə dincələ, yata?

***

Əşir dözmür bu dağa,
Vətəndə şahdır dığa.
Vətənim paralanıb
Öyrənmişəm bu dağa.
Bir möcüzə yaransa,
Biz gedərik o dağa.

APARDI

Əcəl səni tez apardı,
Elə bil atlı çapardı.
Dartıb lap zorla qopardı,
Sel qayadan sel apardı.

***

Bülbül öldü, gül ağladı
Dərdi sinəmi dağladı.
Anan saç yolub ağladı,
Saçını da yel apardı.

***

Atan ağlar için-için,
Balan, yarın yolar saçın.
Göz yaşım axdı çöllərə,
Onu da ki, sel apardı.

***

Qardaşlar gəlmir özünə,
Yuxu da getmir gözünə.
Yarın yanıb külə döndü,
Külünü də yel apardı.

***

Ayrılığa dözmür ürək,
Mən Vətəni görəm gərək.
Vətəndə gülürdü ürək,
Onu da qürbət apardı.

***

Yaxşılar çox tez gedirlər,
Ürəklərə dağ çəkirlər.
Əlyarımı doğma Vətən,
Qabili qürbət apardı.

***

Vətənimi görmür gözüm,
Ayrılığa yoxdur dözüm.
Nurlu idi mənim gözüm,

Onu da şeirim apardı.

***

Yoxdu taqət, əsir dizim,
Qəmli çıxır mənim səsim.

Qabilim məni anırdı,
Onu da ki, pul apardı.

***

Əsirdi torpağım, daşım,
Qurumur mənim göz yaşım.
Vardı mənim varım, mülküm,
Onu da düşmən apardı.

***

Çoxdur mənim ağrım-acım.
Vaxtsız ağarıbdı saçım.
Vardı məndə azca dözüm,
Onu da oğlum apardı.

***

Əşir nər oğuludu, nərdi,
Dərdə-qəmə sinə gərdi.
O, ağladı için-için
Oğul üçün, Vətən üçün.
Daha gülmür mənim üzüm,
Gülüşü qürbət apardı.

MƏHƏBBƏT ŞEİRLƏRİ

XƏYALA DÖNDÜ

İntizar sinəmi dağladı,
Yad əllər yaramı bağladı.

Mənim yaralarım sağalar,
Sevgilimin üzü güləndə.

***

İndi bizim dağlar dumandı,
Qürbətdə halımız yamandı.
El dağa getdi dağ öyündü,
İndi dağlarda toy-düyündü.

***

Yarla keçdi o gözəl anlar,
Vüsala yetdiyim zamanlar.
O anlar indi xəyala dönüb,
Yarsız mənim çırağım sönüb.

***

Bağrım başı yanır, alışır,
El – obalar yardan danışır.
Bağ, bağçadakı güllər soldu,
Yar gəlmədi inamım öldü.

***

Əşir, eşqin Məcnunu oldun
Yarlı günlərin hara getdi?
Sevən duyar ağrı, acımı,
Küləklər oxşayır saçımı.
Yarım alıb başdan tacımı,
Ağlar qoyub ana-bacımı.

***

YAŞADAN

Dünyada yaxşılıq qalandı,
Pislik pis adama qalandı.
Məhəbbətsiz ürək talandı,
İnsana təmiz eşq qalandı,

***

Ürək kədər yığar özünə.
Əməl edər yarın sözünə.
İstər işlər getsin düzünə,
Eşqdi sevənləri yaşadan.

***

Eşq Allahdan verilən paydı,
Sevənlərə Allah da yardı.
Eşqsiz insan yaşaya bilməz,
Sevgidi insanı yaşadan.

***

Sevən ürək minnət götürməz,
Sevməyənlər ürəkdən gülməz.
Həqiqi sevən yarın atmaz,
Eşqdi insanı yaşada.

***

Bəşiroğlu yardan doymadı,
Qürbətdə ürəkdən gülmədi.
Dərd çəkdi həm yarı, həm özü,
Vətənə həsrət qaldı gözü.
Yol açılsa gedər vətənə,
Xəyaldı insanı yaşadan.

İTİRİRƏM ÖZÜMÜ

Lal baxışınla od salırsan canıma,
Dərdindən ölürəm, yanmırsan halıma.
Səni görəndə itirirəm özümü,
Mən danışsam da bilmirəm sözümü.

***

Gözəl sənə açа bilmirəm sevgimi,
Sənlə görüşəndə itirirəm özümü.
Gözlərinin atəşi yandırır məni,
Bilsən necə qəlbən sevirəm səni.

***

Bilirəm sən də qəlbən sevirsən məni,
Gözləyirsən mənim bircə xoş kəlməmi.
Bir gün mütləq ələ alacam özümü,
Toplayıb gücümü, deyəcəm sözümü.

***

Açmasaq da biz öz gizli sirrimizi,
Çox gözəl anlayırıq bir-birimizi.
Sevgilim, görüşəndə baxıma gözümə,
“Sevirəm” sözün deyib gəlim özümə.

***

Əşirəm, daim eşq odunda yanıram.
Xəyalən yarın başına fırlanıram.
İstəyirəm sevgilim ola yanımda,
İstər xoş, istərsə də qəmli anımda.
Öləndə gözüm baxa gözünə,
Əlindən tutam, üzüm qoyam üzünə.

***

GÖZƏL NAZ ETMƏ MƏNƏ

Sevgilimdən çay istədim,
Yanağından pay istədim.
O, çayları düzüb getdi,
Gözlərini süzüb getdi.

***

Qaş-göz edib naz da satdı,
Müjdan oxun mənə atdı.

Dedim: yarın alsın qadan,
Dedi: – “oğlan, olsun həyan”.

***

Dedim: – “qol salım boynuna”,
Dedi: – “al məni qoynuna”.
Dedim: – qoru onu, xudam,
Dedi: – “alım sənin qadan”.

***

Sən Əşiri üzmə, gözəl.
Qaş-gözünü süzmə, gözəl.
Canım qurban olsun sənə,
Gözəl sən naz etmə mənə.

ŞAM YANMASA, YAŞAMIR

Yarım günəş, mən onun peyki yerəm,
Gecə-gündüz başına fırlanıram.
Fırlandıqca yarımdan nur alıram,
Pərvanədək eşq odunda yanıram.

***

Eşq atəşi məni yandırıb yaxır,
Mən yandıqca aləm nura boyanır,
Günəş yer eşqindən alışıb yanır,
O, yandıqca yerdə həyat yaranır.

***

Dolansam da mən yarımın başına,
Əlim yetmir, yanıram atəşinə.
Hər ikimiz eşq odunda yanırıq.
Biz də belə arzu-kama çatırıq.

***

Əşir, yara yaxınlaşma, yanarsan.
Eşq odunda yanıb külə dönərsən.
Sənin yaşamağın yanmağındadı,
Əgər şam yanmırsa yaşamır demək.

SADƏ GEYİN SƏN

Al geyimdə buluda bənzəyirsən,
Elə sanıram ki, təzə gəlinsən.
Getdikcə gözümdə sən ucalırsan,
Qorxuram buludla göyə uçasan.

***

Qırmızı geyimdə alov saçırsan,
Mavi geyimdə səmayə oxşayırsan.
Hər iki geyimi sən xoşlayırsan,
Qorxuram ki, alışasan, yanasan.

***

Qara paltar da çox yaraşır sənə,
O gözəllik verir ağ bənizinə.
O geyimdə ulduza oxşayırsan,
Mən gedirəm, sənsə uzaqlaşırsan.

***

Öldürmə yarını, sadə geyin sən,
Al geyinsən Əşiri öldürərsən.
Onsuz da yanıram odunda sənin,
Xoşdur çit, qədəh lap bez də geyinsən.

YAR GÖRÜŞƏ QAÇIB GƏLDİ

Mən yarıma nə etmişəm?
Yarım məndən kənar gəzir.

Ayaqyalın, başıaçıq,
Üz-gözünü sazaq kəsir.

***

Dodağından bal süzülür,
Mən ləbindən pay istədim.
Yar qıyqacı baxıb getdi,
Canım oda yaxıb getdi.

***

Yar görüşə qaçıb gəldi,
Könül qapım açıb gəldi.
Ürəyimi alıb getdi,
Boynuma qol salıb getdi.

***

Əşir sənə yarım deyir,
Günəşim, həm ayım deyir.
Dodağına balım deyir,
Sənə qurban canım deyir.
Sən səbrimi alma, yarım,
Sənə qurban olsun canım.

DODAQDƏYMƏZ

Aşiq oldun dildara,
Onu tez-tez sal yada.
Sellər, sular daşardı,
Aşiq gözü yaşardı.

***

Yarın qaraqaş ola,
Yarına sirdaş ola.
Yaltaqlardan uzaq ol,
Sənə desinlər sağ ol.

***

Dağa uçdu ac arı,
Düzəndə tapdı yarı.
Eşqindən güc alar,
Yaş ötər cavan qalar.

***

Yedin, doydun, uç, arı.
Geridə qoy Ucarı.
Sən eşqinə sadiqsən,
Göyə qalx, sən uç, arı.

***

Gözəl nədən incidi.
Kədəri sevinc idi.
Düzdü əhdi, ilqarı,
O gözələ tay hanı?

***

Yar, Əşiri yada sal,
Onun ağzın dada sal.
Eşqin odunda yandı,
İşarədən qanandı.
Heyranlıq yar gözünə,
Qoy düz olsun sözünə.

CAN QURBAN EDƏRƏM VƏFALI YARA

Olarsa kişinin vəfalı yarı,
Nə lazımdır ona dünyanın varı?
Olmaz onun ürəyində qubarı
Can qurban edərəm vəfalı yara.

***

Vəfalı yar uymaz dövlətə, vara,
Yol verməz ürəkdə nisgil, qubara.
Dost-tanışdan qoymaz qalasan dala.
Can qurban edərəm vəfalı yara.

***

Çətinə düşəndə dayağın olar,
O, səni hamıdan ucada bilər.
Dərd onu əysə də təsəlli verər.
Can qurban edərəm vəfalı yara.

***

O, dərdə dözməsə gizli ağlayar.
Gecə də yüz dəfə səni yoxlayar.
Ürəkdə dərdini pünhan saxlayar,
Can qurban edərəm vəfalı yara.

***

Mənim dərdim qoşadır: – vətən, oğul
Hər ikisidə bir-birindən ağır.
Çaşanda zövcəm verir mənə ağıl.
Can qurban edərəm vəfalı yara.

***

Cavanlıq dözümüm qalmayıb daha.
Bəzi işlərdə mən qalmışam dala.
Çox meyil salmışam kədərə, aha.
Can qurban edərəm vəfalı yara.

***

Gedib tayım-tuşum mən tək qalmışam.
Körpə nəvələrə həmdəm olmuşam.
Təsəllimi öz zövcəmdən almışam.
Əşir mehman olar vəfalı yara.

O, məhəl qoymaz nisgilə, qubara.
Can qurban edərəm vəfalı yara.

SƏN DƏ DÜŞƏRSƏN YADIMA

Bağda bülbül ötüşəndə,
Sevgililər görüşəndə,
Qucaqlaşıb öpüşəndə
Sən də düşürsən yadıma.

***

Küsülülər barışanda,
Yar yarına qovuşanda,
Şirin-şirin danışanda,
Səndə düşürsən yadıma.

***

Mən canımdan bezəndə də,
Dərd-qəm məni üzəndə də,
Namə gələndə adıma,
Sən də düşərsən yadıma.

***

Yar yarını arıyanda,
Qarı qızlar yarıyanda,
Tanrım yetəndə dadıma,
Sən də düşərsən yadıma.

***

Al yanaqlı qız görəndə,
Qəmli çalan saz görəndə,
Bir həsrətli göz görəndə,
Sən də düşürsən yadıma.

***

Haqdan əlim üzüləndə,
Yar gözləri süzüləndə,
Yar bağından nar üzəndə,
Sən də düşürsən yadıma.

***

Əşir canın qurban yara,
Gələ könlünü yar ala,
Eşqdən yananda oduma,
Sən də düşürsən yadıma.

NAZI, QƏMZƏSİ CANIM ALIR

Allah, bu gözəl mənə baxır.
Ürəyimi yandırıb yaxır.
Hara getsəm,qarşıma çıxır
Nazı, qəmzəsi canım alır.

***

Yar görüşünə qaçıb gəlib,
Günəş kimi nur saçıb gəlib,
O ahu gözlüm mənə baxır,
Nazı, qəmzəsi canım alır .

***

Yar unutdurur dərdi-qəmi .
Gozlərimdən silirdi nəmi.
Odur könlmün zili, bəmi.
Nazı, qəmzəsi canım alır .

***

Toy paltarını biçib gəlib,
Eşqin badəsin içib gəlib.

Yar görüşünə uçub gəlib.
Nazı, qəmzəsi canım alır.

***

Mən unutmuşam dərdi-qəmi,
Artıq yoxdur gözümün nəmi.
Mənə paxılıq edir hamı,
Nazı, qəmzəsi canım alır.

***

Sevgilim ay kimi nur saçıb,
Gözəl, sinəni külək açıb.
O qoşa yara əğyar baxır,
Nazı, qəmzəsi canım alır.

***

Əşir qurbandı gözəl yara,
Afət, dərdimə eylə çarə.
Busə ver səni sevən yara,
Qoyma yarın həsrətli qala.
Nazı, qəmzəsi canım alır.

ATDI MƏNİ

Bir gözələ könül verdim,
Tez inciyib atdı məni.
Gördü yoxdu varım, pulum,
Bir əğyara satdı məni.

***

Dedim:-“vətən yoxmuş, gözəl”.
Dedi:-“Sən oxuma qəzəl”.
Mən səni sevirdim əzəl,
Sonra pula saldın nəzər.

***

Sevgini pula satanlar,
Arı, namusu atanlar,
Həyatı kefdə görənlər,
Yox ola gedə dünyadan.

***

Sən vəfasız olma, gözəl,
Həcər adına sal nəzər.
Yarı üçün özün üzər,
Dağı-daşı aşıb gəzər.

***

Vəfalı yar neynər varı?
O, istəyər ancaq yarı.
Yara qurban edər canı,
Heç istəməz dünya malı.

***

Əşir sev vəfalı yarı.
Ona qurban elə canı,
Mənim yarıma tay hanı?
Ona qurban yarın canı.

GEDİM

Ya sev, əzizlə yarını
Ya da qov çıxım gedim.
Bir təbəssüm göstər mənə,
Ya od vur alışıb gedim.

***

Qəm üstə köklənmiş sazam,
Bilmirəm qış, yoxsa yazam.
Sənə çox tərif yazmışam,
Azsa, yenə yazım gedim.

***

Haqq yazanı pozmaq olmaz,
Sular axmasa durulmaz.
Həsrətlə baxıram hərdən,
Üz göstərmə çıxım gedim.

***

Ümüd xəyal məni üzmüş,
Düz qamətim kaman olmuş,
Göz yaşlarım selə dönmüş,
O, sellərdə üzüm gedim.

***

Əşir, döz yarın zülmünə,
Qoşul onun qüsəsinə.
Yar, qoyma mən fəryad edim,
Üz göstərmə çıxım gedim.
Canım, döz yarın zülmünə,
Yar qıymaz yar ölümünə.

QOCALIQDA

Qadir Allah, bu nə işdi?
Başa gəldi qocalıqda?
Viran könül eşqə düşdü,
Gözəl sevdi qocalıqda.

***

Onu görüb olmuşam səy,
Yay ayında gəzirəm qar.
Qoynundakı gülövşə nar,
Ağlım aldı qocalıqda.

***

Hər kəs tapar öz tayını,
Gözəldən alar payını.
Əşir də eşqin atını
Minib çapdı qocalıqda.

MƏNİ YADA SALIRSANMI?

Canım oda yaxan gözəl
Görəsən məni anırmı?
Məni alırmı vecinə?
Görən məndən betərdimi?

***

Bəlkə məni görmür gözü?
Axı niyə gülmür üzü?
Onun eşqi, məhəbbəti
Görəsən mən qədərdimi?

***

Fərhad külünglə dağ dəldi,
Şirin onu sevirdimi?
Əsli yandırdı Kərəmi
Özü o odda yandımı?

***

Məni dəli edən, gözəl
Yarı yada salırsanmı?
Əşir –Məcnundu dərdindən
Sən də onu anırsanmı?

***

İLK BAHARIM

Hara getdin, mənim yarım?
Heç demədin hara gəlim?

İstərəm sənə gül dərim,
Onları sinənə sərim.

***

Ahım dağları yandırır,
Duman yolları bağlayır.
Mənim arzum güll açmadı,
Körpələrim dil açmadı.

***

Bu yollar mərdlərin yoludur
Ürəyim dərdlə doludu
Sevmir məni yar dediyim,
Daim cəfasın çəkdiyim.

***

Yarım gələ boynun qucam,
Qucaqlayam, qollar açam.
Yar harda olsa taparam,
Yollarına su səpərəm.

***

Əşir atmaz öz yarını,
O vəfalı dildarını.
Niyə gəlib çıxmır yarım?
Odu mənim ilk baharım.
İstərəm çatam yarıma,
O vəfalı dildarıma.

GEYİNİB

Bu gözəl mənə xoş gəlir,
Gözü-qaşı tanış gəlir.
Qırmızıdır onun donu
Elə bil alov geyinib.

***

Sığal veribdi telinə,
Kəmər qurşayıb belinə.
Paltarı aldan biçilib,
Elə bil alov geyinib.

***

Çiçəkdən biçilib donu,
İncədir səsinin tonu.
Paltarı təndir belinə ,
Elə bil çiçək geyinib.

***

O,sanki cənnət quşudu,
Canım alan göz-qaşıdı.
Qızıl güldən paltarı var.
Elə bil günəş geyinib.

***

Əşir, ağlın gedib başsdan,
Yarın gözəldi Günəşdən.
Paltarı tüldən biçilib,
Yarına məlhəm geyinib.

NƏ ZİYANI

Yarım, sürməni çək, gözünə,
Sürmənin gözə nə ziyanı.
Gözəl, qaşlarına vəsmə çək,
Vəsmənin qaşa nə ziyanı.

***

Yar, kəməri bağla belinə,
Kəmərin belə nə ziyanı.

Al yanağından bir busə ver,
Onun yanağa nə ziyanı.

***

Yerişi, duruşu şux elə,
Şuxluğun sənə nə ziyanı.
Bal dodağından bir öpüş ver
Onun dodağa nə ziyanı.

***

Əşir dərdindən dəli olub,
İntizardan saralıb-solub.
Qoy yar yetişsin vüsalına,
Vüsalın sənə nə ziyanı.
Yarın bağından bi nar dərsin,
Bir narın bağa nə ziyanı.

GƏLMİSƏN

Mənə verdiyin əzabı az bilib,
Sən yandırıb-yaxmağamı gəlmisən?
Bu sınıq könlümü qəmli ney bilib,
Asta-asta çalmağamı gəlmisən,

***

Mənim qəlb evimi duman, çən alıb,
Yarımın dərdi məni oda salıb.
Yara çatmaq üçün gəzirəm dağı,
Heç yerdən gəlmir yarımın sorağı.

***

Sevgilim, öldürür məni qəm-kədər,
Sevgisiz keçən ömür olar hədər.
Yarına az qəm-kədər yüklə, gülüm,
Sevən sevənə belə etməz zülüm.

***

Yarı əğyarla gördüm sındı belim,
Yar mənə niyə edir belə zülüm.
Mən istəyirəm bir dəfəlik ölüm,
Təki yarımın zülmündən qurtarım.

***

Əşir yar yolunda çox çəkib zülüm,
Qorxur ki, onu tez haklaya ölüm,
Sevgilim düşüb haqqın yoluna,
İstərəm qayıda düzgün yoluna.
Yarım məni atsa ölərəm inan,
Onun yola gəlməyinə var güman.

SAT MƏNİ QUL YERİNƏ

Sevgilim, qulunam mən,
Sat məni qul yerinə.
Bitərəm harda desən,
Səp məni tum yerinə.

***

Ələ, keçirt ələkdən,
Palçıq et qum yerinə.
İstəsən şuma göndər,
Əkim kotan yerinə.

***

Haqq aşiqi Kərəməm,
Yar yolunda ölərəm.
Od vur, sən yandır məni,
Ölüm Kərəm yerinə.

***

Yol boyu ağac olum,
Yoluna kölgə salım.
Xalçana arğac olum,
Toxu sap, ip yerinə.

***

Leyli-Məcnun yalandı,
Əşir qəmdən öləndi.
Sevgilim atma məni,
Saxla sən qul yerinə.

İÇƏK DEDİM

Bir qız gördüm boyu bəstə,
Görənləri edir xəstə.
Adına mən "çiçək" dedim,
"Süz badəni içək "-dedim.

***

Atəşin odludu gözü,
Dili şirin, baldı sözü.
Adı "gözəl", özü çiçək,
"Süz badəni içək"-dedim.

***

Allah eyibsiz yaradıb,
Baxışı məni odlayıb.
Gözünü gözümlə yedim,
"Süz badəni içək"-dedim.

***

Əşir sevir sən tək yarı,
Gəl itirmə etibarı.
Gözəl, səni seçib sevdim
"Süz badəni içək"dedim.

KEÇƏSƏN GƏRƏK

Dostum Elnur Məhərrəmova həsr edirəm

Eşq yolunda cəfa çəkəsən gərək,
Olsa da yağış, çovğun, qar və külək.
Sevgi dənizinə girməyə nə var,
O dənizi üzüb keçəsən gərək.

***

Özündə qüvvə tap sevgi yolunda,
Dolanda buludtək yağasan gərək.
Sevgi solar əgər qəlbinə dəysən,
Çiçəktək yaxana düzəsən gərək.

***

Sevgi qismətini Allahdı verən,
Sən sevgi yolunda öləsən gərək.
Zaman sənə əzab verib bezdirsə,
Onda da yarını sevəsən gərək.

***

İndi ismətli qızlar xeyli azdı,
Azların qədrini biləsən gərək.
Qanmazlar sevginin qədrini bilməz,
Qananın qədrini biləsən gərək

***

Əşir dünynın yaxşı, pisin görüb,
Güllərdən özünə bir çələng hörüb.
Ömrünü qürbətdə güdaza verdi,
Didərgin yaşadı, pis günlər gördü.
Qərib, qürbət eldə biz necə ölək,
Vətəni azad edib ölmək, gərək.

BURYAT GÖZƏLİ

İrkutskda bir qız gördüm,
Dərdindən saralıb-soldum.
Dodağının təbəssümü,
Aldı səbr qərarımı.

***

Buryat idi milliyəti,
Salam verdim salam aldı.
Əl uzatdım qaşın çatdı,
Əl verərək könlüm aldı.

***

Məni dəvət etdi evinə,
Getdim sevinə-sevinə.
Mehmanı oldum gözəlin,
Vəsfinə yazdım qəzəlin.

***

Baxışı ruh verdi mənə,
Sevgi dolu ürəyimə.
İntizarda qaldı gözüm,
Ayrılığa necə dözüm,

***

Həsrətlə döndüm vətənə,
Gözü yolda qaldı gözəl.
Əşir dözəmmir həsrətə,
O, necə getsin qürbətə?
Nə mən orda qala bildim,
Nə o, bura gələ bildi.

İrutsk şəhəri
02.09.2009

YAR GƏLƏNDƏ GÜL AÇIR

Yar vəfalıdır mənə,
O, gül taxır yaxama.
Bənövşətək həyası.
O, dağların laləsi.

***

İşvəsi, nazı çoxdu,
Kin-küdurəti yoxdu,
İxtiyarım alıbdı,
Məni dərdə salıbdı,
Ürəyə od salıbdı.

***

O, saf məhəbbətiylə,
Əhdə sədaqətiylə,
Məni məndən alıbdı,
Ürəyim odlanıbdı.

***

Dağ başın qar alıbdı,
Ürəyə od salıbdı.
Yarsız bahar qış olar,
Rəngim saralıb-solar.

***

Yar gələndə gül açar,
Ayla günəş nur saçar.
Kədər uzağa qaçar,
Sevincim aşıb-daşar.

***

Əşir sevir yarını,
Bilir etibarını.
Mənim yarım incidi,

Qəlbimin sevincidi.
Yar gələrsə yanıma,
Çataram muradıma.

AY QARA QIZ

Daraq alıbsan əlinə,
Sığal verirsən telinə.
Kəmər qurşayıb belinə,
Süzmə məni, ay qara qız.

***

Az çək üzə kirşan, boya.
Heç kim səni salmaz saya.
Sifətin olsada qara,
Bəxtin gülə, ay qara qız.

***

Yaradan yazıbdı yazı,
Haqq yazana yoxdu pozu.
Mən sevirəm qara gözü,
Üzüm ağart ay qara qız.

***

Əşir "yarım" –deyir sənə,
Sən ona mehman olsana.
Qaralığın gedər yola.
Təki ürəyin ağ ola.
Hər nəsən qəbulsan mənə,
Canım qurban, ay qara qız.

YARATDI

Şükür olsun Allaha,
Hamını cüt yaratdı.

O qızı mənə buta,
Mənə məlhəm yaratdı.
***
Görüşsə suyla torpaq.
Gül açar yarpaq.
Yarım, ol mənə qonaq.
Öpüşsün dil ilə dodaq.
***
Əşir, sev gözəl yarı,
Sən ol onun mehmanı.
Sevişir bütün canlı,
Mehriban, istiqanlı.
Yara qurbandır canım,
Odur ürəyim, qanım.

YAR MƏNƏ GÜLƏR GEDƏR

Ürəkdən sevirəm yarı,
Qazanıb etibarı.
Yarım məni anlayır.
Hərdən də bir danlayır.
***
Yar elə bil özümdü,
Mənim iki gözümdü.
Ürəkdən yar sevənlər,
Öz eşqinə güvənər.
***
Ayrılığı kim əkib?
Yollara, pərdə çəkib.
Yar mənə gülər güdər,
Ürəyim alar gedər.

***

Yarsız yollar bağlanır,
Mənim könlüm dağlanır.
Dağ-daşlar da qan ağlar,
Ürəyimdən qan axar.

***

Yar baxmır sözümə,
O, güvənir özünə.
Yuxu getmir gözümə,
Qapılıram özümə

***

Əşir güvənir yara,
İlqara, etibara.
O, sadiqdi yarına,
İnanır ilqarına.
Yarım mənə naz eylər,
Qışa novbahar eylər.

DƏRMƏLİSƏN

Əgər girsən gülşən bağına,
Onun gülünü dərməlisən.
Yar bağında sehr eləsən,
Onun narını dərməlisən.

***

Bir cavanın yasına getsən,
Düz olmaz ağlamayıb ötsən.
Toy məclisinə varid olsan,
Qol qaldırıb oynamalısan.

***

Dünyada gözəl yerlər çoxdu,
Yarı acdı,yarıda toxdu.
Çox yer gəzənlər çox da bilər,
Çox yerlər gəzsən üzün gülər.

***

Gözəl görəndə yan keçmə sən,
Onun qəlbini duymalısan.
Özünü saxlaya bilməsən,
Gözün gözünlə öpməlisən.

***

Əşir gözəlliyin acısan.
Bac al gözəldən, sonu yoxsan.
Sürəmmədin sən dövranını,
Sən yarı acsan, yarı toxsan.

QALARSAN

Qürbət eldə gözəl sevmə amandı.
Ömrün boyu sən həsrətdə qalarsan.
Vurulma baxışlarına qızların,
İlişib o baxışlarda qalarsan.

***

Gözü yol çəkən vətən qızın ovla.
Qürbət eldə oynama alovla.
Mavigözlü qız səni salar tora,
Sən ilişib o tordaca qalarsan.

***

Vətəndə keçən hər bir an gözəldi.
Vətən qızlarının dili qəzəldi.
Vətənin qarlı qışı da gözəldi,
Qürbətdə ilişib, qarda qalarsan.

***

Əşir Bəşiroğlu isdi qanlıdır,
Vətəni sevir, vətən canlıdır.
Yad qızlar səni keçirsə tilova,
Sən ilişib tilovdaca qalarsan.

İrkutsk şəhəri 06.09.2009

SON NƏFƏSDƏYƏM

Bulaq başında bir gözəl gördüm,
Dərdindən mən yanaraq kül oldum.
Gəl mənə naz etmə, amandı,
Bir içim su ver, ciyərim yandı.

***

Camalın görcək ay üzün örtdü,
Günəş utanıb, qızarıb pörtdü.
Ört üzünü, qoy günəş nur saçsın,
Torpaq oyansın, bağlar gül açsın.

***

Bəxt açıla, əlim xına görə,
Gözəllər telin daraya, hörə.
Sevgilim, dərdindən mən xəstəyəm,
Könlüm al, axı son nəfəsdəyəm.

***

Əşiri niyə dara çəkirsən?
Vaxtsız qocaldıb belin bükürsən.
Yar, sev ki, dərdindən ölən olsun,
Ürək az qalır köksündən uçsun.
Kim var səni məntək sevmiş olsun,
Yarının həsrətindən ölmüş olsun.

YANDIRIR

Hürüsən, mələksən göydən enmisən,
Aydan arı, sudan duru sevgilim.
Sən qismətimsən taxtıma qonmusan,
Baxışı, yerişi can alan gözəl.

***

Baxışın canımı yandırıb –yaxır,
Gözlərimdən leysan kimi yaş axır.
Dodaqların beçə balın andırır,
Görənləri alışdırır, yandırır.

***

Gözlərini oğrun-oğrun süzərdim,
Bal dodağlndan şirə çəkərdim.
Oğrun baxışların canım üzərdi,
İnsaf et, öldürmə yarını, gözəl.

***

İnan Əşir, sənsiz bir gün yaşamaz,
Özgəsin sevib xoşbəxt ola bilməz.
Gözəl, atma səni candan sevəni,
Pərvanətək başına dolananı.
Ya birdəfəlik öldür canını al,
Ya da yarının qeydinə qal, gözəl.

AXI NEYLƏYİM

Yaşayıram bütün qəriblər kimi,
Dözürəm bir təhər, axı neyləyim?
Bəd gəlib əzəldən mənim taleyim,
Yoxdu başqa çarəm, axı neyləyim.

***

Dərdə düşmüşəm, yoxdur mənim çarəm.
Sanki başıma uçur külli-aləm.

Gözəl əldən alıb ixtiyarımı,
Sağalmazdı yaram, axı neyləyim?

***

Ürəyə həmdəmdi qüssə, qəm-kədər,
Yar yolunda zəhmətim getdi hədər.
Yazıq canım dözür dərdə bir təhər,
Yar alıb səbrimi, axı neyləyim?

***

Əşir, dərdin olsada döz birtəhər,
Qoy yarının ömrü getməsin hədər.
Yarıma baxanda dolur gözlərim,
Dərdə dözmür ürək, axı neyləyim?

QORU ONU

Mənim yarım yüz nazla gəlir,
Əlində qaval, sazla gəlir.
Gözəl mənə meydan oxuyur,
Allah, pis gözdən qoru onu.

***

Gözləri gözümü yandırır,
Nəfəsi üzümü yandırır.
Paxıllıq edir mənə hamı,
Allah, pis gözdən qoru onu.

***

O, ahu, ceyran balasıdı,
Uca dağların balasıdı.
Əğyarın canın alasıdı,
Allah, pis gözdən qoru onu.

***

Əşir düşüb yarın izinə,
İstəyir oduna qızına.

Qorxuram göz dəyə gözünə,
Allah, pis gözdən qoru onu.

YANAĞI QOŞA XALLIDI

Qürbətdə ağlayır yarım,
Sinəsin dağlayır yarım.
Yar gələ bilmir özünə,
Qaranlıq çökür gözünə.

***

Dağların başı dumandı,
Yarımın halı yamandı.
Sevgilim ağlayır zar-zar,
Tez sona yetə intizar.

***

Yarım görüşə gəlibdi,
Hicrana son qoyubdu.
Baldan şirindi ləbləri,
Şəkər, şərbətdi dilləri.

***

Yarım şərəfli, şanlıdır,
Yanağı qoşa xallıdır.
Zərifdi onun əlləri,
Dərməlidi cüt narları.

***

Yar qəmə qılınc çəkibdi,
Yar görüşünə gəlibdi.
Yarına busə veribdi,
Onun könlünü alıbdı.

***

Əşir vəsf edir yarını,
Üzdəki qoşa xalını.

Kaş ömrümə yazılmaya
Canansız keçən günlərim.
Mən qurbanam öz yarıma,
O gözəl vəfadarıma.

GƏLMİSƏN

Məni oda salmağını az bilib,
Sən yandırıb-yaxmağamı gəlmisən?
Ürəyimi simi qırıq saz bilib,
Qəmli-qəmli çalmağamı gəlmisən?

***

Könlümü alıbdı duman, çən indi,
Qərib yarını hərdən bir sevindir.
Xəyalımda yaşayırsan sən indi,
Onu məndən almağamı gəlmisən.

***

Xatirələrin dəli edib məni,
De, görüm yandırıb-yaxırmı səni?
Yandırmısan, kül etmisən yarını,
Külün sürmə etməyəmi gəlmisən?

***

Əşirəm günah mənim özümdədi,
Nakam sevgim qəlbimdə, gözümdədi.
Adın gecə-gündüz dilimdədi,
Onu məndən almağamı gəlmisən?

ALIŞDI

Dünya yaman qar-qarışdı,
Gah savaşdı, gah barışdı.

Səni andı könlüm yenə,
Sızladı, yandı, alışdı.

***

Elə hamı dəlidi,
Ürəyin yağı əridi.
Atəşlə mənə baxdı yar,
Od düşdü, qəlbim alışdı.

***

Gözəl məni oda saldı,
Özümü özümdən aldı.
Oda düşdü dəli könlüm,
Bilmədim necə alışdı.

***

Əşir yaman yanır oda,
Dərd-qəm çoxdu dünyada.
Bir vəfasız salıb oda,
Ürəyi yandı, alışdı.

ATAQ DƏRDİ-QƏMİ

Dostlar, ataq dərdi-qəmi,
Gözümüzdən silək nəmi.
Badələrə süzün içək,
Dərddən, qəmdən uzaq qaçaq.

***

Nisgili salmayaq saya,
Qəm-qüssəni ataq çaya.
Çox içək, allanıb gedək,
Şənlənib, şadlanıb gedək

***

Sanki dərd-qəm heç yox imiş,
Sevinc bizdə çox bol imiş.
Arsız ol, allanıb gedək,
İçib xumarlanıb gedək.

***

Əşir, Vətən çıxmaz yaddan,
Sən danışma kefdən, toydan.
Birləşib Vətəni alaq,
Toy edib arzuya çataq.

QOCA

Üstünü qocalıq alıbdı sənin,
İndi ağla, göz yaşını tök, qoca.
Eşqin dəlisiydi sənin əzəlin,
Daha sevmə, öz qeydinə qal, qoca.

***

Gözəllərə oğrun-oğrun baxma sən,
Bica yerə canın oda yaxma sən,
Yalan yerə tüfəngini çaxma sen,
Al yanağın qara xalın süz, qoca.

***

Cavanlıq quş olub uçdu uzağa,
Baxma sən balı süzülən dodağa.
Göz yetirmə zərif, incə buxağa,
De küsmüşəm, istəmirəm pay, qoca.

***

Qalmayıb daha səndə nə halət, nə hal.
Qocalıq dilin kəsib olmusan lal.
Süzmə gözəlləri sən, ol əhli-hal
Daha yoxdu səndə taqət, hal, qoca.

***

Cavanlıq bir daha qayıtmaz geri,
Gizli süz gözəlləri, asta yeri,
Baxışın yandırardı gözəlləri,
İndi baxma, günlərini say, qoca.

***

Əşirəm, qocalıq minib boynuma,
Sevgilim də daha gəlmir yanıma.
Kim gülsə qocaya, doğru, düz gülər,
Qoy gülsünlər, gəlin gülər, qız gülər.
Daha səni düz göstərmir güzgülər,
Qocalmısan, saçın olub çal, qoca.

GÜLÜŞÜ MƏNƏ XOŞDU

Yar gələndə qış idi,
İçməmiş sərxoş idi.
Yara qurban bu canım,
Əhdimi necə danım?

***

Gülüşü mənə xoşdu,
Həm şirin, həm meyxoşdu.
Yarım məndən baş ola,
Gözüm gözə tuş ola.

***

Yarım bizim yerlidi,
Qədəmi xeyirlidi.
Qaraqaş, üzü ağdı,
Ata, anası sağdı.

***

Gəlsə, qışım yaz olar,
Dərdim, qəmim azalır.
Yarın ansa, xoş olar,
Kədər donar, daş olar.

***

Yarını atmaz yarım,
Odur dövlətim, varım.
Bağı bəhrə barlıdı,
Alma, heyva narlıdı.

***

Əşirin can-ciyəti,
Odur sevimli yarı.
Lalədən çətirlidi,
Gül kimi ətirlidi.
Tez-tez gəlsin yanıma,
Dərdin salım canıma.

EŞQİ ÜLVİ, TƏMİZDİ

Yar ürəyi aynadı,
Sevinci bir dünyadı.
Yardı başımın tacı,
Niyə baxır qıyqacı.

***

Yar məni tez anladı,
Yadlara yer qoymadı.
Qışım bahara dönüb,
Arzularım çin olub.

***

Günəş yeri nurladı,
Arzularım parladı.
Lalə yayılıb düzə
Hədiyyə verim qıza.

***

Yarım mənə kəc baxdı,
O, yaxama gül taxdı.
Mən qurbanam yarıma,
Yetirər muradıma.

***

Eşqi ülvi, təmizdi,
Gözü mavi dənizdi.
O çox sınaqdan keçib,
Əlimdən şərbət içib.

***

Əşir sınayıb yarın,
İlqarın, etibarın.
Gələ bilmir özünə,
Qurban yarın gözünə.
Yarım qapımı açır,
Qəm-qüssə məndən qaçır.

SEVİRƏM YARIMI

Qadınlar incədi, zərifdi, güldü,
Onların könlünü alıb sevindir.
Əgər bir gözəli sevsən ürəkdən,
Sən onun qəlbini duymağı öyrən.

***

Bir gözəldən ləzzət almaq istəsən,
Onun dolmuş gözündən öpməlisən.

Əgər sən onunla səmumi olsan,
Onun gözünə dik baxa bilərsən.

***

Necə ki, taqətdən düşməyib canın,
Hələ ki damarından axır qanın,
Artisttək yalandan girmə min dona,
Bütün varlığını bağışla ona.

***

Əşirəm, qəlbən sevirəm yarımı,
Yolunda qurban edərəm canımı.
Min gözəl içində seçmişəm onu,
Gözəldi gülüşü, səsinin tonu.
Ürəkdən, candan sevirəm yarımı,
Çünki o, qazanıb etibarımı.

GÖRÜNDÜ

Bir qız mənə dayı deyərək güldü,
Dilindən şərbətlər, ballar süzüldü.
Gözüm sataşanda ceyran gözünə,
Yanağında qoşa xallar göründü.

***

Öyrəndim yaşını məndən cavandı,
Əhli-haldı, işarədən qanandı.
Dili şirin, gözü canlar alandı,
Gözlərində işvə-nazlar göründü.

***

Gözlərinə baxdım qəlbim anladı,
Qəlbimə dəymədi özün saxladı.
Dedi: -Şairsən, qəlbini duyuram,
Sevgidə yaş həddi yoxdu, bilirəm.

***

Gözəl camalının seyrində azdım,
Hicrana qərq olmuş yaşımdan yazdım.
Nazlı gözəl salıb məni çöllərə,
Dərdim bəyan olub cəmi ellərə.

***

Artıq yetmiş beş yaşım tamam olub,
Başım üstün duman, çovğun, qar alıb.
Əşir, yaşın ötüb, dəyişib zaman,
Yarla görüşünə qalmayıb güman.
Gözəllərə kənardan et tamaşa,
Yaş ötüb, sən dərdinlə ver baş-başa.

YARIM MƏNƏ NAZ SATIR

Yarım gələndə bizə,
Sevincim qalxıar yüzə.
Gözlərimə nur gəlir,
Evim eşiyim gülür.

***

Vurulmuşam xalına,
Dodağının balına,
Eşqdə bir az naşıdı,
Etibarın daşıdı.

***

Paltarları tüldü onun,
Yanağı güldü onun.
Yarım mənə naz satır,
Dodaqları bal dadır.

***

Yar ürəyimi açır,
Dərd-qəmim məndən qaçır.

Saçları qulac-qulac,
Dərdimə edir əlac.

***

Yar ömrümun yazıdı,
Xoşa gələn nazıdı.
Əgər gülsə yaz olar,
Dərdim, qəmim azalar.

***

Əşir sevir xalını,
Dodağının balını.
O, qurbandı yarına,
Kamanına, tarına.
Gəzirəm yar bağında,
Gülüşüm dodağımda.

SANIRAM

Yarım qoşa xallıdı,
Yanaqları allıdı.
O qız bizim yerlidi,
Ətirlidi güllüdü.

***

Mən qurbanam o cana,
Az qalır özün dana.
Yar od salır canımı,
Niyə gəlmir yanıma?

***

Ömrü əfsanə sanır,
Sevənləri o danır.
Canım alışıb yanır,
Yatmış bəxtim oyanır.

***

Daldalardan baxıram,
Yağış olub yağıram.
Baxıb xumarlanıram,
Yarı xoşbəxt sanıram.

***

Əşiri atmaz yarı,
O, nazlı vəfadarı.
Məcnun edibdi yarı.
Yar çəkir intizarı.
Sözü şirin bal kimi.
Mən baxıram lal kimi.

DÜZ BƏNÖVŞƏNİ

Başıma çiçəkdən çələng hörürəm,
Ürəkdə əkdiyim dərdi bölürəm.
Harda bağ görürəm, çəmən görürəm,
Gözlərim axtarır tər bənövşəni.

***

Gəzib dolanıram bağı, meşəni,
İlhamla vəsf edirəm bənövşəni.
İlahi gözəllik susdurur məni,
Dil söz tapmır tərif edə bənövşəni.

***

Bilirəm güllərin meyli xaradı,
Ürəkdən sevənin bəxti qaradı.
Doyunca gəzmədim bağı, meşəni,
Təbiət tez soldurur bənövşəni.

***

Lalə bürüyübdü tarlanı, düzü,
Yerə səpələnib göyün ulduzu.

Gözəllər dərirlər dağın gülünü,
Mənim gözüm gəzir tər bənövşəni.

***

Əşir söz açır gül gözəlliyindən,
Danışır boynu bükük bənövşədən.
Hicranın dərdindən əyilib başı,
O, daim axıdır qanlı göz yaşı.
Sən harda görsən tez üz bənövşəni,
Heç kəs görə bilməz düz bənövşəni.

QIZLAR

Oğlanlar qızları qoruyaq,
Onlar bizə xoş gələcəkdi.
Ana, bacı həm də ki, yardı.
Qıza xor baxmaq bizə ardı.
Nəbi, Babək doğandı qızlar.

***

Qızı aldadıb kama çatma,
Onun təmiz adın batırma.
Eşqə xor baxıb aldatmağın,
Ləkədi namusu atmağın.
Nəbi, Babək doğandı qızlar.

***

Qızı aldatmaq qəbahətdi,
El qarşısında cinayətdi.
Gələcəkdi, gözəl mələkdi
Təmiz eşqdi, ülvi həyatdı.
Nəbi, Babək doğandı qızlar.

***

Qız anadır Azərbaycana,
Bizə örnəkdi Tomris ana.

Sənə yardı, övlada ana,
Biz məhəbbət bəsləyək ona.
Nəbi, Babək doğandı qızlar.

***

Dahilər dünyaya gətirən,
Onları ərsəyə yetirən,
Daş üstündə çiçək bitirən,
Gələcəkdi, həyatdı qızlar.
Nəbi, Babək doğandı qızlar.

***

Əşir yurda bahardı qızlar.
Gələcəkdi, vüqardı qızlar.
Nigar, Sara, Həcərdi qızlar.
Bizim qıza məhəbbətimiz,
Olar anaya hörmətimiz
Nəbi, Babək doğandı qızlar.

OLSUN

Yarım hamıdan baş olsun,
O, içməmiş sərxoş olsun.
Yar görüşünə gələndə
Qədəmi uğurlu olsun.

***

Yarım dərdimin əlacı,
Geyinib şah libası.
Sözü şirin, dili baldı,
Yara həmdən vəfadardı.

***

Yarım mənə naz eyləyir,
Halım pərişan eyləyir.
Yarım baxır əğyar sözünə,

Görünmür yarım gözünə.

***

Oğrun-oğrun mənə baxır,
Canımı odlara yaxır.
Allah mən qızılgül olum.
Yarımın döşünə qonum.

***

Əşirərm qəlbi talanam,
Sevgi yolunda ölənəm
Yar əməl edə sözünə
Görünə yarın gözünə.
Məni qonaq edə aşına,
Dolanam yarım başına.

GÜNLƏR

Nə qədər uzaqda qalıb,
O, sevimli gözəl günlər.
Ruhumu tilsimə salıb,
Qəlbimi oxşayan günlər.

***

Sevincim aşıb daşardı,
Dərd-kədər uzaq qaçardı.
Sevgilim qıcaq açardı,
Ayla, günəş nur saçardı.

***

Gəzərdim çəmənin, düzün,
Öpərdim bulağın gözün.
Xoşbəxt sanardım özümü,
Yardan çəkməzdim gözümü.

***

Kainat xoş idi mənə,

Sevinc dolardı sinəmə.
Gülşəndə güllər güllərdi,
Gül çiçək könlüm alardı.

***

Əşiri sevir yaradan,
Düşmənləri edər candan.
Allah qaytar keçmiş günü,
Sil ürəkdən dağ-düyünü.
Biz gedək vətənə elə,
Qovuşaq ocağa pirə.

ŞİRİN BALDI MUĞAM

Dərdlilərin dincliyinə,
Yaman haram qatdı muğam.
Dərdliləri də götürüb,
Asimana qalxdı muğam.

***

Qəmli çalıb qəmi qovdu,
Sevənlərə, o bir ovdu.
Avazlı həm, bəm səsiylə,
Ruhları oyatdı muğam.

***

Tilsimlənər igid ərlər,
Qulaq asan bihuş olar.
Müqəddəs Quran ayəsin,
Qəlbimizə yazdı muğam.

***

Dərdlilər dərdlərin açdı,
Sevgililər qucaqlaşdı.
Bəzən ucaldı zil getdi,
Bəzən bəmdə yatdı muğam.

***

Naqis oda düşər, yanar,
Çağırar mərdi haraylar.
Sanki tilsim var qanında,
Bir neçə qatlıdı muğam.

***

Əşir, muğam layla çalır,
Yatan qəlbləri oyadır.
Bəzən zəhər kimi acı,
Bəzən şirin laldı muğam.
Sevənləri görüşdürür,
Dərdlini ağladır muğam.

YANDI, ALIŞDI

Yarla gördüyüm günlər toy düyündü,
Bağçalar gül açdı dağlar öyündü.
O illərdə yerdə, göydə sevindi,
İndi o günlərim xəyala döndü.

***

Ürək fərəhləndi, qəlbim sevindi,
O yarlı günlərim qəlbimdə ündü.
Fələyin məndən de üzümü döndü?
Canansız bənizim saraldı soldu.

***

Mən itirdim başımdakı tacımı,
Küləklər oxşadı gümüş saçımı.
Bağrıma basanda cənub bacımı,
Tamam unuduram ağrı acımı.

***

Yarımla gəzərdim dağı, aranı,
Ölüb, itsin ayrılığı salanı.
Düşmən bizi vurdu, sağalmaz yaram,

Namərdlər, satqınlar törətdi talan.

***

Səməndar od aldı, yandı, alışdı,
Gözümün yaşından dərya bulaşdı.
Cəmi güllər gözəl yardan söz açdı,
Səndən ürəyimdə qalan səs ündü.

***

Əşir düşmən səni eldən ayırdı,
Bir şirin dil nazlı yardan ayırdı.
Yarsız, Vətənsiz gəzirsən avara,
Göz yaş tökür ürək bağlayıb yara.
Qartalı dağlardan, bülbülü güldən,
Məni bir şirin dil yardan ayırdı.

GƏLMƏDİN

Baxışın can alır gözəlim,
Sənsən, mənim şeir qəzəlim.
Sən günəşim, ayın, mələyim,
Sevincimi sənlə bölüm.

***

Güllərdən incəm təzə-tərim,
Çox əzizsən qədrini bilim.
Baxışı can alan gözəlsən,
Mənə əziz tər bənövşəsən.

***

İncədi kipriyin, qaşında,
Eşq ürəkdə, ülfət başında.
Gözlətdin yarını gəlmədin
Sevinci onunla bölmədin.

***

Gül-çiçəkdən, soruşdum səni,

Qara gözdən, soruşdum səni.
Gözlədim sən niyə gəlmədin?
Həsrətin bağrını dəlmədin.

***

Ömür günümün qibləsisən,
Mənim can-ciyərim gözümsən.
Arzumun sevimli yarısan,
Ömrümün yazısan, baharısan.

***

Gözlədim sən niyə gəlmədin?
Hicranın bağrını yarmadın.
İstərəm qəlbimi duyasan,
Eşqini mənimlə bölәsən.

***

Nur saçırsan gənclik çağında,
Tər çiçəksən könül bağında.
Durursan ayna qabağında,
Qoşa xalın var yanağında.

***

Sən Əşirin gözəl yarısan,
Tər çiçəyi, güllü bağısan.
Laləyə bənzər gül yanağın,
Bal dadır qaymaq dodaqların.
Sən mənim canım həyatımsan,
Arzumun qolu qanadısan.

YARIM NAZLIDI

Gözəl ağlım aldı gözlərin,
Baldan da şirindi sözlərin,
Mən təkcə səni sevib, seçdim,
O, pak eşqinlə alovlandım.

***

Bir müddət mən səni izlədim,
Ürəkdən sevdim, əzizlədim.
Mavi dənizdi o gözlərin,
Baldan da şirindi sözlərin.

***

Dodaqların bal dadır yarım,
Canın canlar alandı sənin.
Gözəl sən bahar ulduzusan,
Ömrümün dadı, duzusan.

***

Mənim gözəl yarım nazlıdı,
Xoş sözlüdü, dadlı, duzludu.
Yar güləndə dərdim azalır,
Ürəyimdə kaman, saz olur.

***

Yarım saf sulardan durudu,
Mənim gözlərimin nurudu.
Canən, tapılmamış incidi,
Bu dəli könlümün sevincidi.

***

Yarı Əşirin sevincidi,
Nə dedin ki, səndən incidi.
Heç yerdə tapılmaz belə yar,
Belə saf məhəbbət, düz ilqar.
Könlüm evində tutmuş qərar,
Yar həsrətin bağrını yarar.

VARDI QOŞA XALI

Yarla görüşdüm axşam çağı,
Yandı qəlbin sönmüş çırağı.

Yer, göy güldü bayram sayağı
Titrədi eşqin dil-dodağı.
***
Güldü, açıldı qaş-qabağı,
Gözdə gülüş, ürəkdə qayğı.
Gün kimi yanırdı yanağı,
Boynunda qızıl boyunbağı.
***
Utandım danışa bilmədim,
Sevincimi yarla bölmədim.
Üzündə vardı qoşa xalı,
Təbiət çəkibdi sığalı.
***
Yar fikirə xəyala daldı,
Süfrə açıb məclis də qurdu.
Könlündən keçəni bilmədim
Danışıb könlünü almadım.
***
Əşiri öpdü qələm qaşdı,
Dodaqları bala bulaşdı.
Yar əlimi buraxıb qaçdı,
Mən qaçanda qıçım dolaşdı.
Hicranın qurudu dodağı,
Sehrə çıxanda axşam çağı.

QURBANIN OLUM

Viranə bağlarda dolaşan yarım,
Sərgəndər dolanma qurbanın olum.
Nolar gəl yanıma boyunu görüm.
Dolanım başına qurbanın olum.

***

Sən könül evimdə tutmusan qərar,
Kəs, doğra məni öz əlinlə yar.
Görüşə gəlsən ürəyim açılar,
Bağ, bağçalar gülər, günəş nur saçar.

***

Yarım cilvələnib, saçın daramış,
Hürüdü, mələkdi qeybdən yaranmış.
Damla ürəyinə dünya sığarmış,
Dərdimin dərmanı elə yar imiş.

***

Sevincim, fərəhim hey aşıb daşır,
Bülbül dilə gəlir gül pıçıldaşır.
Yar yarına sarmaşıq tək dolaşır,
Həsrətlər görüşür, sevinc gül açır.

***

Aşiqi məşuqəm saçlarımda qar,
Hüsnümdə əzamət, canımda vüqar.
Kaş yanıma gələydi nazlı yarım,
Ürəyimdə qalmazdı intizarım.

***

Əşir gözəl yarın kaş görə səni,
Yara, kəsə, şan-şan edə sinəni.
Sarılasan boynuna ilan kimi,
Ovçu şikarından can alan kimi.
Bu qəm libasında yar görə məni,
Öpə, oxşaya sevindirə məni.

QƏZƏLLƏR

***

Ölsənə, ay canım, yar yetirmir kama səni,
Əcəl gəlib yetmədi, hicran öldürür səni.

Ovçutək kəs bərəni, yarı ovlamaq üçün,
Kəssən də bərə, yar yaxın buraxmadı səni.

Yarın bağının gülün gəlib dərsə də hamı,
Təkcə sən dərmədin, yar əğyara satdı səni,

Əşir, vəfasız yarını sevmisən yenə sev,
Qoy dildarın öz gülşən bağından qovsun səni.

***

Heç bir dərdi olmaz səntək yarı olanın,
Qışı yaza dönər, gözəl yarı olanın.

Tufandan qorxusu olmaz gözəl sevənin,
Hicranı da vüsal olar yarı olanın.

O atəşin gözlərin vurğunuyam, gözəl,
Eşq atəşi sönməz səntək yarı olanın.

Gözəlim, həsrətin Əşiri dəli edib.
Ağlı başda olmaz səntək yarı olanın.

***

Daha bəsdi, gözəlim, az yandır yax məni.
Onsuz da yanıram, sən də az odla məni.

Könül səndən dönməz, bürüsə hicran məni,
İstər yar ürəyimi, istər odla məni.

Səni sirdaş bilib sirrimi verdim sənə,
Sirrimi yay külli-aləmə, odla məni.

Əşir yar yolunda ölsə də eyib etməz,
Yar atəşin gözlərlə baxıb odlar məni.

***

Eşq oduna yanıram, xəbəri yoxdu yarın.
Telinə gül taxıram, eyni açılmır yarın.

İllərlə dolanıram mən yarımın başına,
Heç bir dəfə üzü gülmür yarın.

Ömür yolu qısadı, gözəlim, üzmə məni,
Sənə qurban yarın canı, nolar atma yarın.

Əşir, sən car çək, dərdini yay bütün aləmə,
Onda qeyzə düşər, atmaz səni gözəl yarın.

***

Külli-aləm sənin düşmənin olarsa,
Qəm yemə, qədirbilən cananın varsa.

Ovçular vurduğu ovu tez qaldırar,
Canan, qaldır ovunu, insafın varsa.

Yandırıb kül etdin, baxmadın halıma.
Sel olan göz yaşımı sil, insafın varsa.

Baxışınla canım alıb qanım tökdün,
Qoyma aşiqin ölə, insafın varsa.

Mən sənin namus-qeyrətini sevmişəm.
Sən də sev aşiqini, insafın varsa.

Əşir, bu qədər yanma eşqin oduna.
Qoy məşuqun da yansın, ürəyi varsa.

***

Sevgilim, atəşindən yanıb kül oldum.
De, sən də yanırsanmı eşqin oduna?

Lağ etmə sən başıma ələnən qara.
Başına qar yağar, yansın eşqin oduna.

Yaşım atsa da də eşqdir məni yaşadan.
Tez ölərəm, yanmasam eşqin oduna.

Qəlbim möhkəm tellərlə bağlıdır sənə.
Qırammazsan, qaynaqdı eşqin oduna

Yar atmaz məni, Allah yetsin dadına.
O da mənimtək yanır eşqin oduna.

Əşiri unudub atsa da dildarı,
O ata bilməz, yanır eşqin oduna.

***

Çoxdan yar həsrəti ilə ağlayır gözüm mənim,
Çarəsi tapılmır, canım da xəstədi mənim.

Çox sevənlər vüsalına yetibdi yarının,
Vüsala yetmirəm, halım pərişandı mənim.

Dağlar da ağlayır mənim bu miskin halıma,
Əzəldən təsəllim olubdu ahu-zar mənim.

Hökm, qərar yarındı o mənim şahım olubdu,
Qoy öldürsün yarıma halaldı qanım mənim.

Xeyli vaxtdı Əşir dözür yarın zülmünə,
Dözərəm, öz yarım şan-şan etsə də məni.

***

Nə müddətdi gözləyirəm, gəlsənə, yarım,
Mənim ülvi eşqim, məhəbbətim hardasan?

Çox əzab verib öldürürsən yarını,
Etibarını itirmə, yarım, hardasan?

Qoyma yarın Məcnuntək düşə səhralara,
Mənim can-ciyərim, vəfadarım, hardasan?

Əşiri həmişə odlayıb yandırırsan,
Mənim ilk məhəbbətim, gözəl yar, hardasan?

***

Mənim canımı yara qurban et, ya Rəbbim,
Canım, ciyərim yardı, qoy bilsin, ya Rəbbim.

Çağırdım gəlmədi yanma nazlı yarım,
Ürəyinə rəhm sal, bəlkə gələ, ya Rəbbim.

Göz yaşım leysan olub axsa da çöllərə,
Nolar, sən özün kömək et mənə, ya Rəbbim.

Əşir, sən Allahından istə dərmanını,
Sən özün dərdimə əlac elə, ya Rəbbim.

***

Cananımdan ayrı mən bu canı neynərəm?
Eşqdən Məcnun olmuşam, bu canım, divanədir.

Yar üçün gözyaşı axıtmaq günah deyil,
Qoy desinlər aşiqi-məşuq divanədir.

Min belə dərdim ola çarə istəmərəm,
Qoy görsünlər bu yazıq necə divanədir.

Əşirəm, yolunda canı qurban edərəm,
Baxanlar desin bu aşiq divanədir.

***

Gözəl, bircə dəfə məni dindir qoy şad olum,
Həsrətin viran eyləmiş qəlbim şad edəsən.

İnanmıram ki, sən əğyara könül verəsən,
İstərəm əğyara atıb, məni şad edəsən.

Bu viran qəlbi, gözəl, nə vaxt şad edəcəksən?
İllərlə ağlatsan da, bir dəfə şad edəsən.

Əşirə çox meyl eyləmisən, yar, yenə elə,
Könlümü sındırmısan, istərəm şad edəsən.

***

Olarmı elə bir kəs çatdıra yara məni,
Dildarım öz əliylə doğraya, yara məni.

Dərdindən ölürəm, yar niyə inanmır mənə?
Allah, yalvarıram sənə, çatdır yara məni.

Gözəlim, mən heç vaxt sevmərəm özgəsini,
Sevgimə sadiqəm, Allah, yetir yara məni.

Əşir, nakam ölsən də bəxtdən şikayətlənmə,
Ölümqabağı Allah yetirər yara məni.

***

Könül eşq odunda şam kimi yanır,
O, eşqin atəşin əyləncə sanır.

Bilirəm, sönməyəcək atəşimiz,
Çünki o, həm safdı, həm də ki, təmiz.

Gözüm baxır gözünə, gülmə mənə.
Çünki vücudum çox bağlıdır sənə.

Axsın gözüm yaşı qarşında sənin,
Gör göz yaşından necə dürr yaranır.

Zülfünü yana atsan üz görünər,
Günəş doğar, aləm nura bürünər.

Xumar gözlərin əsiri olmuşam.
Leysantək yağıram, çünki dolmuşam.

Əşir, fələk səni sınağa şəkir,
Atma yarını, de, buna da şükür.

***

Yarsız mənim günüm hicranla keçir,
Nə müddətdi günüm canansız keçir.

Yarım yoxdur, mən onsuz qürbətdəyəm.
Canansız məclisimiz cansız keçir.

Vətən dardadı, gözlərim yollarda,
Ona görə günüm ah-vahla keçir.

Yazıq yarım daim gözyaşı tökür.
Çünki onun günü Əşirsiz keçir.

***

Qürbətdə günlərim pərişan keçir,
Nə müddətdir ömrüm vətənsiz keçir.

Vətən yağı düşmən tapdağındadı,
Vətənsiz günüm ahu-zarla keçir.
Doğma ruhlar narahat edir məni,
Xəstə canım çox intizarla keçir.

Yarımı da çox sıxır Vətən həsrəti,
Çünki Əşirtək gözünəmli keçir.

***

Solma, ey gül, solarsansa könlüm viran olar,
Gülü yarın telinə düzsəm necə şad olar.

Camalının tayı - bərabəri yoxdu sənin,
Telinə şanə etsəm əli, ürək şad olar.

İncimərəm, sən xəncər ilə doğra canımı,
Yar acı söz də desə, yazıq yarı şad olar.

Xəncər al əlinə, gözəlim, doğra yarını,
Əşir yar əlində ölsə, ürəyi şad olar.

***

Vüsalına yetmək üçün yarın cəfa çəkir,
Yarına bircə dəfə büsa versən şad olar.

Gözəlim, yalvarıram sən məni xar eləmə,
Xoş gün görməmişəm, könlümü tar-mar eləmə.

Yarımın bağından gül dərməyə gəlsəm də mən,
Dərə bilmədim, yar, ürəyimi qan eləmə.

Yarım bilir mən nə çəkirəm onun üzündən,
İnsafın olsun, gözəlim, məni xar eləmə.

Əşir, yarın oda salıb sənin qəlb evini,
Yalvarıram, yar, məni yandırıb kül eləmə.

***

Allah, çox pərişan olubdur mənim halım,
Fikrim toplanmır, çox qüssəlidi halım.

Gecə-gündüz izləmişəm mən dildarımı,
Vüsala yetmədim, pərişan oldu halım.

Yar dərdimə dərman eləmir, kim eləsin?
Ürəyim ağrıyır, pərişan olur halım.

Günahım nədir ki, zülm edir mənə yarım?
Yar məni öldürür daim pisləşər halım.

Yetsə də əcəl, öldürə bilməz Əşiri,
Yar, vüsalına yetməsəm pisləşir halım.

***

Hicran odun məni yandırır, ölürəm, afət,
Ölməsəm yəqin bil yanına gələrəm, afət

Günlərim heçə dönür, hicranla ötür ömür,
İnsaf elə, eşqinə xəyanət etmə, afət.

Yüzlərlə düşmənim olsa da qorxu bilmərəm,
Yalvarıram, tək sən mənə düşmən olma, afət.

Əşiri yaşadan da, öldürən də eşqindir
İllərlə dözərəm sənin hicranına, afət.

***

Hicran odu məni yandırıb-yaxır, gözəl,

Sənsiz günlərimi ömərə yazma, gözəlim.

Həsrətin yazıq yarını divanə edib,
Biçarə yarına eylə çarə, gözəlim.

Zülmünə dözərəm, təki sən atma məni,
Bir canım var o da sənə qurban, gözəlim.

Sən məni bu qədər yandırırsan, eyb etməz.
Unutma ki, mən sənə heyranam, gözəlim.

Hələ çoxunu əzab verəcəksən Əşirə?
Ölmərəm çünki sənə vurğunam, gözəlim.

***

Gözəlim, həsrətin qəlbimi qan edir, ağlaram,
Vüsalından qeyri-çarə yox mənə, ağlaram.

Məcnun Leylisiylə tapar nicatın, neynərəm?
Fərhad sevgisi yolunda dağ çapar, ağlaram.

Hər zamanın var özünün aşiqi, məşuqu,
Bu zamanın aşiq-məşuqu mənəm, ağlaram.

Kəpənək deyiləm çiçəkdən çiçəyə qonam,
Mən tək öz gülümün qoxusu üçün ağlaram.

Eşqin yolunda ölsəm də mən çarə ummaram,
Həsrətinlə xoşdu dərmansız ölüm, ağlaram.

Əşir, vüsal üçün cəfaya dözəsən gərək,
Dildarıma özüm qurban olaram, ağlaram.

***

İnsan yaranandan hörmətə möhtac.

Əkib-biçənlər bir zəhmətə möhtac.

Zəhmətkeş tərifə, qiymətə möhtac.
Şana, şöhrətə və hörmətə möhtac.

Ulu insanlar mində bir yaranır,
Cəmiyyət ulu şəxsiyyətə möhtac.

Kölə buxovun qırıb atan millət
Olar ancaq bir hürriyyətə möhtac.

Əşir daim yanır eşqin oduna,
Odur cananın vüsalına möhtac.

***

Canan həsrət ilə, gözyaşı ilə.
Car çəkib gəzirəm uzun yolları.

Vəfalı yarımın sorağındayam,
Hey gəzirəm kələ-kötür yolları.

Vüsal eşqiylə gəzirəm elləri,
Hey süzürəm kələ-kötür yolları.

Tapmayınca sədaqətli yarını,
Əşir gəzəcəkdir uzun yolları.

***

Gəlmisən yar görüşünə, afət, indi niyə?
Yarın çox qocalıb, əldən düşüb, indi niyə?

Aşiqinə rəhm elə, ömrə yoxdu vəfa,
Vaxtında gəl ol yarın meühmanı, indi niyə?

Cavanlıqda zövq alırdım yarın cəfasından,
Mən əldən düşmüşəm, zülm edirsən, indi niyə?

Ətrafında şamtək ərimişəm mən həmişə,
Vaxtında gələydin, can xəstədi, indi niyə?

Sənin şirin sözünə möhtac olmuşam hər vaxt,
Sərt cavab vermisən, meyil edirsən indi niyə?

Zülm, cəfadan heç zaman can qurtara bilmədim
Daha bəs deyilmi, zülm edirsən, indi niyə?

Əşirin çulğalayıbdı ömrünü qəm-kədər
Yarım dil-dil ötür, könlüm alır, indi niyə?

***

Yar gələ dərdimə eyləyə çarə, bu gecə,
Arzu-kama çatdıra biçarəni, bu gecə.

Vüsala yetməsəm həsrət çəkərəm, bu gecə,
Yarın intizarında qalıb könlüm, bu gecə.

Bülbül oxuyur, yarın bağına bahar gəlib,
Gəlmədi gül, könül yetmədi yara bu gecə.

Yar əğyarla gör necə əhdü-peyman eləyir,
Mənsə ağlar gözlə qaldım kənarda, bu gecə.

Əşir cananından qeyri yarı sevməyəcək,
Çünki könül o yara bağlanıbdı, bu gecə.

***

Duman kəsib qabağın gələ bilmir gözəlim.
Qovaram dumanı, yar sənə qurban, gözəlim.

Aləmdə sən edə bilərsən dərdimi çarə,
Əğyar yaramı bağlasa ölərəm, gözəlim.

Əğyara uysan öldürərsən öz pərvanəni,
Pərişan könlümü gəl sən elə şad, gözəlim.

Səndən qeyrisinə heç vaxt könül verməmişəm.
Bu miskin yarının könlünü gəl al, gözəlim.

İllər keçsə də Əşir unuda bilməz səni,
Sən də unutma biçarə yarını, gözəlim.

***

Vaxtında gəlmədi, yar gəlir indi niyə?
Çox əzab verib, könlüm alır, indi niyə?

Çoxdan intizarındayam o gözəl yarın,
Yada salmırdı, yada salır, indi niyə?

Camalı günəştək nur saçır hər tərəfə,
Görməzdim camalın, göstərir, indi niyə?

Cavanlıqda çox zülm edərdi yarım mənə,
Əşir qocalıb, yar zülm edir indi niyə?

***

Qürbətdə axır gözüm yaşı, gülməyir üzüm.
Gedibdi məndən səbir-qərar, qalmayıb dözüm.

Açılmır könlüm, az qalmışam canımdan bezim,
Vətənlə, oğul dərdlərinə mən necə, dözüm?

Sevincim məndən qaçır, dərd isə düzüm-düzüm,
Xudaya, kimdə olar dərdə mən qədər, dözüm?

Gülüşüm çoxdan itib, dərdə öyrənib üzüm,
Hansı insanda olar bu qədər dərdə, dözüm?

Qəm-qüssəyə çox öyrənibdi mənim üzüm.
Əgər qəm-qüssə mənədən qaçsa, mən necə dözüm?

Əşirəm, bu qədər dərdlərə mən necə dözüm?
Dərd-kədər qoymadı məndə səbir-qərar, dözüm.

***

Könlüm quşu pərvazlanar uçmaz sənsiz, vətən!
Xoş günlərim çıxmaz xəyalımdan, sənsiz, Vətən!

Qürbətə düşsəm də xəyalınla yaşayıram.
Yaralanmış quştək uçmuram sənsiz, Vətən!

Sənin bol nemətin süfrələrin bəzəyidi,
Düşmən paralayıb, mən qalmışam sənsiz, Vətən!

Vətən eşqi ilə can verirəm gecə-gündüz!
Qürbət eldə xəstə canım ölər sənsiz,Vətən!

Əşir çoxdandır ki, qaçqın, didərgin yaşayır,
Ər oğul, azad et, qoyma qala sənsiz Vətən!

***

Saza söylədim dərdimi bu gecə,
Baxsan görərsən mən yanıram necə.

Candan oldum, göydə ulduzum söndü,
Afət, bax mənə, nə tez üzün döndü?
Sənsiz bir gün yaşasam olum candan,
Qoy ölüb qurtarım, töhmətdən, ardan.

Röyada görürəm qara zülfünü,
Yarım, məndən əsirgəmə lütfünü.

Daim yanıram yarın atəşinə,

Yar, gül üzümə, dolanım başına.

Yarı atsa, Əşir olar divanə,
Eşq oduna yanar, olar pərvanə.

***

İnsaf elə, həsrətlə öldürmə, gözəl,
Yarı sal qoynuna dərdinə dərman, eləsin.

Hansı bülbül qoxlayıb atar xəstə gülünü?
Sən atma yarını, qoy qoynunda kef eləsin.

Eşqinlə yetişsəm əcələ mən of demərəm,
Qorxum budur dərdin məni divanə eləsin.

Əşiri öz əllərinlə öldürsən inciməz,
Qoyma özgələr dara çəkib, divan eləsin.

***

Nə günah etmişəm ki, yetmirəm yarə hələ,
Yazıq Məcnun kimi həsrətəm Leyliyə hələ.

Öz yarımdan istərəm dərdimin çarəsini,
Yarımsa insaf etmir, yandırıb-yaxır hələ.

Gendən baxıb gülür çəkdiyim əzaba yarım,
İnsaf etmir, göz yaşıma baxıb gülür hələ.

Bəşiroğlu birtəhər dözür yarın zülmünə,
Yar vüsalı üçün eşq odunda yanır hələ.

***

Yar yolunda ürəyi doğrayıb qan edərəm,
Xəstə ürəyimə yarımı dərman edərəm.

Fəryad ilə keçsə də gecə-gündüzüm mənim,
Yardandı bu zülüm deyib mən şükür edərəm.

Külli-aləm bilir, kaş sən də biləsən, yarım.
Vüsala yetməyib ölsəm ah-nalə edərəm.

Gözəl, sənsiz gülşən bağımı viran sanaram.
Sənlə xaraba bağlarda da dövran edərəm

Vüsalına yetmək üçün hicrana dözərəm,
Yolunda ölümə də getsəm şükür edərəm.

Səninlə bir il yaşasam min il sanaram,
Sənsiz min ildə yaşasam təəssüf edərəm.

İstəsəm də çəkə bilməm vüsaldan gözümü,
Əsirəm, eşqinlə illərlə tüğyan edərəm.

***

Bu dünyada olsa həmdəmim dərd olacaqdır,
Dərd olmasa həmdəmim görən nə olacaqdır?

Yağıya aman yoxdur, ürəyim sərtdi mənim,
Düşmənə nifrətim həmişə çox olacaqdır.

Alçağa, nadana, naqisə öyüd kar etməz,
İllər keçsə də erməni düşmən olacaqdır.

Qisasa qisas Həzrəti Əlidən miras qalıb,
Bizdən də sonrakılara miras qalacaqdır.

“Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı”

Müdrik atalardan bu yadigar olacaqdır.

Aqillərdən bizlərə çoxlu kəlamlar qalmış
Bizdən sonrakılara qalan nə olacaqdır?

Əşir, sən tənbəllik eləmə, sarıl qələmə.
Səndən nəsillərə qalansa, söz olacaqdır.

***

Ya Rəbb, düşüb könlümə yenə ata yurdu,
Təslim olarmı düşmənə Həcər, Nəbi yurdu?

Qəlbimə dolmuş bu qara dumanlar çəkilməz
Əgər azad olmasa qəhrəman Nəbi yurdu.

Qarı düşmən tutub gözəl yurdumuzu,
Ürək sakitləşməz alınmasa Nəbi yurdu?

Vətən həsrəti ürəyimi göynədəcəkdi,
Azad olmasa igid, qəhrəman Nəbi yurdu.

Əşir, dərd ürəyini yesə də eyib etməz.
Təki səndən üz döndərməsin Nəbi yurdu.

***

Canan, niyə zar-zar ağladırsan yarını?
Sən olmasan qəlb evim viranə qalardı.

Eyib etməz hicranın əysə də belimi,
Sənsiz bu xəstə canım divanə qalardı.

Pərvanə şam odunda yanır ölmək üçün,
Yazıq canım yar oduna həsrət qalardı.

Əşir xoşbəxt olar yar üçün ölsə əgər,

Başqa yolla ölsə, yara həsrət qalardı.

***

Yara sığınardım, o, mənə biganə qalıb,
Rəhm etmir aşiqinə, onu divanə qoyub.

Pərvanə yaşamağın şamda yanmaqda görür,
Sevgilim yandırıb aşiqin divanə qoyub.

Hər gələnlər bu dünyada bir iz qoyub gedir.
Sənin eşqinsə aşiqini divanə qoyub.

Cahanda hər bir dərdə dözər bu xəstə canım,
Sənin həsrətinsə Əşiri divanə qoyub.

***

Xudaya, yazıq bəndənin dərdinə çarə et,
Hicran odunda yanıram, yazığam, çarə et.

Gözyaşı boğur məni, dözmək olmur hicrana,
Əzəldən bu bəxtim qara yazılıb, çarə et.

İnsaf etmir yarım gecə-gündüz ağlasam da,
Ümüdim sənədir, Rəbbim, dərdimə çarə et.

Gülşən bağında yar üçün gül dərmək istədim.
Gül dərə bilmədi əllərim, Rəbbim, çarə et.

Bəşiroğluna xoşdur yarı yolunda ölmək,
Dərdimə yoxdu dərman, gözəl mənə çarə et.

***

Sevgilim gəlirsə görüşə naz ilə gəlsin,
Alsın əlinə tar, qaval, ya da saz ilə gəlsin.

Qürbətdə gülməyir üzüm, qışa dönübdür yazım,
Gül-çiçəklə, xoş avazla, növbaharla gəlsin.

Əzəldən sazın, sözün vurğunudur dəli könlüm,
Yar saz-söz vurğunu Zülfiyyətək gözəllə gəlsin.

Yarımdan ayrı bir umacağım yoxdu dünyada,
Gəlsə yar görüşümə şeirlə, qəzəllə gəlsin.

Almaq istəyirsə bu qərib yarımın könlümü,
Gecə yarısı durub yanıma pünhan gəlsin.

Keçmiş xatirələri könlündə saf-çürük etsin,
Əşirin yanına xoş niyyətlə, avazla gəlsin.

***

Doğma yurdun həsrəti ilə ömrümü vur başa,
Sevgilim, həsrət məni öldürsə də, sən yaşa.

Mən yanım eşqin oduna, sən istimə qızın,
Yurdu azad görmək üçün, sevgilim, sən yaşa.

Əgər ah çəksəm, ahım yandırır dağı-daşı,
Vətən nisgili məni öldürsə də, sən yaşa.

Tez-tez görüşə gəl, qoyma ölə aşiqini,
Yansam külümü sürmə et gözünə, sən yaşa.

Dərdindən Məcnun olub dağlara düşsəm də mən
Axıtma göz yaşı, doğma yurd üçün sən yaşa.

Sən Əşiri yandırıb külə döndərmə, gülüm,
Mən ölüm qarşında, Vətən naminə sən yaşa.

***

Ellər, mənim dərdimi nazlı yara deyin,
Ürəyimi niyə edibdi, yara, deyin.

Biz pünhan gəzdiyimiz yerlərdə, gözəlim,
Bəduğur əğyar niyə aşkar gəzir, deyin?
Vəfasız yarım məni dəyişsə əğyara,
Onu atsam da özgəyə baxmaram, deyin.

Əşir yardan başqasına baxmaz inanın,
Bəs niyə yarı özgəsinə baxır, deyin?

***

Siz çağırın məclisə qoy dildarım gəlsin,
Günümüzü şən keçirək, gözəlim gəlsin.

Vüsala yetmək üçün ömrü zay etmişəm,
Bu qədər zülm olmaz, yarım insafa gəlsin.

Çoxdandı ki, mən hicran odunda yanıram,
Atəşə yanmaq üçün indi də yar gəlsin.

Hicranın odu yandırıb-yaxır Əşiri,
Atəşimi söndürmək üçün yarım gəlsin.

***

Allahım, yetir yarım vüsalına məni,
Nə üçün yada salmır o bivəfa məni.

Mən zəhmətlə gül əkdim, yadlar gəlib dərdi,
Yarım qoymur girəm gülşənə məni.

Qoyun külli-aləm bilsin mənim halımı,
Yarın əzabı da gətirmir zara məni.

Əvvəldən cani yara fəda eyləmişəm,
Ya öldürsün, ya da döndərsin qula məni.

Əşir, sən düş ayağına yalvar yarına,
Hərdən çağırıb yetirsin vüsala məni.

***

Gəlmədin məclisimə, yar, bu gecə,
Hicrandan yandım-yaxıldım bu gecə.

Aradım, axtardım hər yerdə səni,
Uçdu ruhum, sanki öldüm bu gecə.

Gəl məclisimə, üzümə gün doğsun,
Gəlməsən hicrandan öləm bu gecə.

İstərəm çatam yarım vüsalına,
Kaş ki, olmaya tufan, qar bu gecə.

Eşqindən mən yanıb külə dönmüşəm,
Gəl, Əşirin könlünü al bu gecə.

***

Bağçaya gül dərməyə getdim sənsiz,
Tapa bilmədim, ruhum öldü sənsiz.

Arxanca gəzərək mən səni sordum,
Tapa bilmədim, ruhum öldü sənsiz.

Qorxum budur: gün keçə, il dolana,
Hicrandan ürəyim dayana sənsiz.

Gözəlim, mən ki, sənə könül verdim,
Qoyma biçarə Əşiri ölə sənsiz.

***

Sevgilim, insanın meracı eşqdir,
Yerin Süleymanı, baş tacı eşqdir.

Fərhada dağları dəldirən eşqdir,
Onu yaşadan, öldürən də eşqdir.

Eşqsiz keçən ömür bir viranədir,
İnsanı yaşadan, ucaldan eşqdir.

Məkkəm, Mədinəm, Gövhər-kamım eşqdir,
Qibləm, Kəbəm, ülvi sevgim də eşqdir.

Yar, zülmdən məni qoruyan eşqdir,
Məni öldürən, yaşadan da eşqdir.

Əşir yar yolunda ölümə gedər,
Çünki canına təpər verən eşqdir.

***

Hər kim ki, yurdumu alıb, evi tar-mar olsun,
Onun da mənim təki günü ahu-zar olsun.

Mənə dərd verən özü dərdə giriftar olsun,
Gecə-gündüz onun yediyi zəhrimar olsun.

Məni dərdə salanın özü o dərddən ölsün,
Xəstə düşsün, dərman tapmasın, eldə xar olsun.

Mənimtək yağıya qalsın onun nəyi varsa,

Ev yansın, ocaq sönsün, ürəyi şan-şan olsun.

Siçan deşiyi qədər yer tapsa qoy sevinsin,
Gen dünya onun tapdığı yerdən də dar olsun.

Verdiyimiz çörək, ya Rəbbi, tutsun dığanı,
Gözlərinə qan damsın, dərmanı bizdən olsun.

İnşallah Əşirin qarğışı tutar qağını,
Yurdu talansın var-yoxu yerlə leysan olsun,

***

Hicran odu məni yandırıb-yaxır bu gecə,
Yar görüşə gəlməliydi, gəlmədi, bu gecə.

Birgünlük həsrətin bir ilə dönür, gözəlim,
Yarım, görüşə gəl, gəlməsən ölləm, bu gecə.

Var-dövlət, ev-eşik heçə dönübdür gözümdə,
Gəl yarı sevindir, gəlməsən öləm, bu gecə.

Dostlar da üz döndərib, soran yoxdu halımı,
Əşirin bəxt evi olubdu tar-mar, bu gecə.

***

Heç nə eləmir dərdimə çarə, gözəlim,
Xəstə ürəyimə dərman yoxdu, gözəlim.

Ətraf gözəllərlə dolsa da üzüm gülməz,
Təkcə sənsən dərdimin dərmanı, gözəlim.

Daim gözyaşı axıtsam da, nə faydası,

Ancaq sənsən dərdimin çarəsi, gözəlim.

Çoxdan atıb getsə də Əşiri dildarı,
Axı o, səni unuda bilmir, gözəlim.

***

Yaraşıq verdi məclisimizə, Zülfiyyə gəldi,
Elin sazlı-sözlü aşıq qızı, Zülfiyyə gəldi.

"Sarıtel" qanadında əsdirdi qara telini,
Sevənlərə zövq verən o gözəl, Zülfiyyə gəldi.

Sevən ürəklər yatdı sazın, sözün laylasında,
Gecəni xoş keçirdik, məclisə, Zülfiyyə gəldi.

Duyan ürək, sevən könül tilsimləndi o səsdən
Sazına, sözünə vurulduğum, Zülfiyyə gəldi.

Xoş səsindən qar əridi, göründü qərənfillər.
Qış arxada qaldı, yaz ətirli, Zülfiyyə gəldi.

Məhəbbətdən maya tutdu, bərəkətləndi yerim,
Süfrəyə ləziz yemək, məclis, Zülfiyyə gəldi.

Əşir eşqə gəldi, yada düşdü ilk məhəbbət.
Çünki məclisinə sazlı-sözlü, Zülfiyyə gəldi.

***

Gecə zülmətdən bir əl uzandı mən doğru,
Döydü qapımı ki, ömrün başa çatdı, sənin.

Çox çalışdım zülmətdən gələn əli öldürəm,

Gülüb dedi: “Artıq ömrün sona yetib, sənin”.

Dedi:-Əzrayılam, işim can almaqdır mənim,
Atılıb-düşsən də alacağam canın, sənin.

Mənim başım çox yeyibdi düşmənin daşını
Aşın da yemişəm, alıram canını, sənin.

Əşir, yaz-yarat, boş keçməsin sənin bir anın,
Qoy səndən yadigar qalsın yazıların, sənin.

***

İnsaf elə, qoy gülşən bağın mən də gəzim,
Güllərdən dəstə tutub yarın telinə, düzüm.

Səninlə keçən bircə anım min ilə bənzər,
Sənsiz keçən günlərdə dərdim olar bir, düzüm.

Bir gülüşünü külli-aləmə dəyişmərəm
Sənsiz fəryad edirəm, dərdim olur bir, düzüm.

Gözəlim, yarın Məcnun olub düşüb çöllərə
Gəl yarın könlün al, onun dərdi var bir, düzüm.

İllər ötsə də Əşir gözlər sənin yolunu,
Nazlı gözəllər yanında olsa da bir, düzüm.

***

Qoy yarını gəlib qovuşsun Vüsala, gülüm,
Dərdimə dərman elə, mən çatım kama, gülüm.

Sənsiz keçən günlərim ömrümə yazılmasın,

Min ilə dəyişmərəm sənli bir anı, gülüm.

Yarımın yerişi, duruşu aləmə dəyər.
Canansız bağ-bağçada gül açmaz, solar, gülüm.

Məcnunam, çöllərə düşüb gəzirəm səni,
Sənsə Leyli ol, axtar divanə yarı, gülüm.

Yüz yerdən ürəyin doğrasalar da Əşirin,
Yenə unutmaz sənin kimi cananı, gülüm.

***

Yarım insafa gələ məni mehman eləyə
Vüsala yetirə, canına qurban, eləyə.

Yarım fürsət versə əğyara o, məni kəsər,
Yar doğraya məni, ürəyim şan-şan, eləyə.

Yurda bahar gəlir, bülbül oxur, güllər açır,
Qorxuram yarım gəlib gülü xəzan, eləyə.

Könlümün soltanı etmişəm o nazlı yarı,
Qorxuram o gözəl taxtımı tarac eləyə.

Əşir heç vaxt narazı qalmaz nazlı yarından,
İstəyir bir gün yarı onu mehman, eləyə.

***

Müxtəlif məzmunlu şeirlər

XAR OLSUN

Daşa düşsün yolu şərlərin,
Qatlanmasın dizi nərlərin.

Çox dərindi ağlı mərdin,
O, içməsin ölüm şərbətin.
***
Şərin işi düyünə düşsün,
Fırıldağa, kələyə düşsün.
Mərdlərin daim üzü gülsün,
Onların arzuları çin olsun.
***
Nadanı, naqisi xar olsun,
Ocağı yanmasın kor olsun.
Özgələrdə gözümüz yoxdu,
Vətənimi alan xar olsun.
***
Şər içindən kələyə düşsün,
O, büdrəsin quyuya düşsün.
Qəsibkarlar vətənsiz qalsın,
Bizim kimi saralsın, solsun.
***
Bəşiroğlu vətən canlıdı,
Elə gedən yolu bağlıdı.
Var, mülk onu sevənə qalsın,
Mənim beş metr bezim var olsun.
Arzumdu öz elimdə ölmək,
Gedib doğma diyarı görmək.

ŞAD XƏBƏR

Ərisin qəlblərdən ətalət buzu,
Çəkilsin yurdumdan barıt qoxusu.
Müzəffər olmasa milli ordumuz.
Düşməndən alınmaz ana yurdumuz.
***

Gözləri yoldadı vətənin, elin,
İgidlər bilirlər düşmənin felin,
Milli orduya komanda verilsin,
Düşməni yurdumdan qovsun, qaçırsın.

***

Topçu sərrast atsın hədəfi vursun,
Qırsın, parçalasın daşnaq yuvasın.
Biz turp əkək düşmənin yurduna,
Qolları bağlı göndərək sürgünə.

***

Yurdumun dağların boğmasın qəhər,
Yayılsın ellərə belə şad zəbər,
Döyüş meydanında hazırdı kəhər,
Hücuma keçirik elə bu səhər.

***

Əşir şad xəbərdən sevinsin ellər,
Qələbə marşını oxusun dillər.
Quzular kəsilsin bişsin kabablar,
Natiqlərin bir-birini qabaqlar.
Mən yazdığım zəfər marşını deyim,
Sakitcə quzu kababından yeyim.

NƏ DEYİM

Alçaq, naqis hər işdə başdı,
Nanəcib kəslərlə qardaşdı.
Elələrinin ürəyi daşdı,
Daş ürəkliyə mən nə deyim?

***

Əl yetməz dərdimin dağına,
Mən həsrətəm gülşən bağına.

Yalançı dostların andına,
Etibarına mən nə deyim?

***

Arın-namusunu satana,
Dost-tanışa tələ qurana,
Bərk ayaqda qoyub qaçanın,
Namus, qeyrətinə nə deyim?

***

Qışda xalqına qar satanın,
Xəstəyə heyva nar satanın,
Bazarda namus, ar satanın,
Qeyrətinə mən nə deyim?

***

Əşir xalq neynim, neynimdədi,
Erməni əkin biçindədi.
Millətin möhtac içindədi,
Toxların gözü aclardadı.
Dünya çox qarma qarışdısa,
Qarışıq dünyaya nə deyim?

OLMAZ

Anadan şair doğulmasan,
Bil! Səndən şeir yazan olmaz.
Türkün dili safdı təmizdi,
Başqa dil qatsan şirin olmaz.

***

Şeirin gərək dadı ola,
Bil ki, doşabsız xəşil olmaz.
Sözlər də inci kimi safdı,
Düz yazmasan o şeir olmazdı.

***

Bülbüllər oxumaz qəfəsdə,
Sarı misdənsə qızıl olmaz.
Çöllərdə yaşayan maraldan
Bil ki, heç vaxt quzu olmaz.

***

Yetməsən xalqımın dadına,
Bil ki, səndən əsl insan olmaz.
İnsanlar firavan yaşasa,
Uşaqlar belə çöpə dönməz.

***

Əşir daim el dərdin yazır,
Eldən yazmayan şair olmaz.
Dilinə əcnəbi söz qatan,
Millətə layiq ola bilməz.

QISAS VAXTIDI

Qəddar düşmən yurda soxuldu,
Millətin nahaq qanı axdı.
Qisas istəyir qaya daş da,
Doğma vətəndə uçan quş da.

***

Qana qan istəyir analar,
Düşmənləri gorda yanalar.
Zəfər vaxtıdı cum irəli,
Hücuma keç vətən əsgəri.

***

Hücuma çağırır ruhlarda,
Gəmisi qərq olan o, Nuhda.
Verilən o vədlər saxtadı,
Atəşkəsdə bir bəhanədi.

***

Satılan böyrək qan istəyir,
Xalqımı hücuma səsləyir.
Daşnaqdan qan almağa vaxtdı,
Amerkadadı daşnaq taxtı.

***

Qan istəyir Ceyran bulağı,
O, ətirli Göyəzən dağı.
Dığa xaldı daşa döndərib,
Körpələri xaşa döndərib.

***

Əşir indi qisas vaxtıdı,
Sınası erməni taxtıdı.
Xalqım dost, düşmənini tanı,
Doğra axsın erməni qanı.
Ürəkdə var intiqam tələş,
Hücuma çağırır qaya, daş.

BU İLLƏR

Ömrümün yazı getdi, qışı gəldi,
Ömrüm, günüm heçə döndü bu illər.
Doğma vətənim küsgün baxır mənə
Söndü ürəyimin şamı bu illər.

***

Didərgin dedilər qəlbim sızladı,
Dağın zirvəsində qartal ağladı.
Bülbül gülü solğun görüb sızladı,
Həkəri, Bərgüşad susdu bu illər.

***

Çəməndə güllərin yanağı soldu,
Vüqarlı dağların vüqarı sındı.

Meşədə palıdı ildırım vurdu,
Ürəyimdən qanlar axdı bu illər.

***

Yaz gəlmədi, yerin verdi payıza,
Qarılar ağlamaq öyrətdi qıza.
Səməndar dərdindən alışıb yandı,
Ah naləmiz ərşə qalxdı bu illər.

***

Əşir qərib illər ötür ömürdən,
Sən hələ asılmısan səbirdən.
Bəsdi yatdın, oyan sarıl qələmə,
Qoy səsin yayılsın küllü aləmə.
Milli ordumuzu qaldır ayağa,
Yurdumuzdan qaçsın məkirli dığa.

SÖNÜB ÜMID ÇIRAĞIM

Haqdan sönən ocağı qalama,
Vətənim həsrət qalıb salama.
Yurdumuz viran olub talanıb,
Dərdimiz bir-birinə calanıb.

***

Səhərə tək yatmırıq gecəni,
Tapmırıq bizə quyu qazanı.
Varımız gedib yoxdu qədəri,
Bizəsə qalıb qəmi, kədəri.

***

Vətəndə gur yanardı ocağım,
Qürbətdə sönüb ümid çırağım.
Dərdlinin dərdinə də göz düşər
Bəxtinə səbir düşər, döz düşər.

***

Qaçqın ömürə payı az alıb,
Onun yazı gedib qışı qalıb.
Didərgin vətənsiz qocalar.
Qəmindən, kədərindən güc alar.

***

Dərdlilər bir-birindən qor alır,
Kədərdən, qəm qüssədən qocalır.
Onları ancaq dərd, qəm ovudur,
Ətrafı dərdlilərlə doludur.

***

Dərdimizi yığaq dərdin üstünə,
Dərdim, qızınım sənin istinə.
İstəsən çıx dərdimin üstünə.
Ordan bax vətənimin büstünə.

***

Əşirə dərdi verib doyunca,
O, unudulmaz dünya durunca.
Yazıq canım dünyadan qəm dərdi,
Dərdlərim ürəyimə məlhəmdi.
Dərdim olmasa ölərəm inan,
Odu məni əcəldən qoruyan.

USANMIŞAM

Nadanlara insan deyən,
Göydə Allahını danan,
Yetimlərin malın yeyən,
Gədələrdən usanmışam.

***

Daldalarda tələ quran,

Şan, şöhrətə, pula uyan,
Fırıldaqla xalqı soyan,
Acgözlərdən usanmışam.

***

Satqınlara qahmar duran,
Mərdi ilan kimi çalan,
Mala, pula meyil salan,
İlanlardan usanmışam.

***

Qartalı olmayan dağa,
Meyvəsiz, bəhrəsiz bağa,
Suyu quruyan bulağa,
Gülənlərdən usanmışam.

***

Şan, şöhrəti pulda görən,
Yalanlardan qala hörən,
İgidlərə quyu qazan,
Alçaqlardan usanmışam.

***

Qeyrəti namusu pula satan
Adı, sanı pulda görən
Para üçün üzə gülən,
Pulgirlərdən usanmışam.

***

Gecə yarasa tək gəzən,
Onu, bunu oğrun süzən,
Tinlərində lüt qız duran,
Dalanlardan usanmışam.

***

Şər atını minb süzən,
Zülmətləri gecə gəzən,
Dünyamızı zəhərləyən,

Satqınlardan usanmışam.

***

Əşirin sözü haqq sözdü,
Düzlərin yolları düzdü,
Vətən bizlərə əzizdi,
Vətənini satanlardan,
Onu qoyub qaçanlardan,
Qorxaqlardan usanmışam.

ÇAĞIRIR BİZİ

Bizdən küsüb vətən torpağı,
Vətəndə at oynadır yağı.
Xalqı qaldırmasaq ayağa,
Yurdumuzdan qovulmaz dığa.

***

Vətən torpağın düşmən əkir,
Gülüm yerinə qanqal bitir.
Vətən yolunu düşmən kəsir,
Qürbətdə xalqın olub əsir.

***

Eldən qovaramsa düşməni,
Mən gəzərəm bağı, meşəni.
Əkərəm tarlamı, çölümü,
Dərərəm ətirli gülümü.

***

Şəhid ruhlar çağırır bizi,
Azad istəyir yurdumuzu.
Yurdumdan qovularsa yağı,
Gedər qəlbin düyünü, dağı.

***

Əsir döyüşə çağır xalqı,
Azad edin doğma torpağı,

Vətəndən getsə çovğun, külək.
Bizə təbrikə gələr mələk.
Gedərik doğma elimizə,
Qovuşarıq torpağımıza.

ÇALXALANIRSAN DÜNYA

Eşq atəşi dolanır başımda,
Gülür dostumda, gülür yadımda.
Səni yaradan, tikən var dünya,
Qoruyub saxlayan var dünya.

***

Dərdlilər gözünün yaşını sıxır,
Dərd ağacına min dərdli çıxır.
Bəzən qarşıma düz adam çıxır,
Nə yaxşı sənin düzün var dünya.

***

Bəzən yaydada qarlı qış gəlir,
Çovğun, yağış, tufan həm qar gəlir.
Min oyun açırsan başımıza,
Zəhər qatır aşımıza dünya.

***

Həm qəddar olursan, həm həlim,
Dərdlərimi yuyum harda sərim?
Vulkan püsgürür, zəlzələ olur,
Sən elə çalxalanırsan dünya.

***

Əşir bəzən dərddən sıxılır ölür,
Həllin vətənə getməkdə görür.
Namərd mərdə quyu qazır hərdən,
Heç kim baş açа bilmir bu sirdən.
Sənin dərdini çəkən var dünya,

Gözümün yaşın silən var dünya.

DƏRDİM ÇOXDU

Mən yağı tükənmiş bir şamam,
Arzusu ölmüş bəxti kəməm.
İstərəm ömür olsun tamam,
Daha gözləməyə yoxdu halım.

***

Dərin dəryada batıb gəmim,
Quruyub, biçilmir zəmim.
Kefliyəm itib mənim dərdim,.
Dərdli varmı dərdimi deyim?

***

Sevinib gülərdim Vətəndə,
Həsrətdən ölürəm qürbətdə.
Danışdığım sanki nağıldı,
Sel apardı dəhnəm dağıldı.

***

Öz əlimlə vətəni verdim,
Qürbətdə diri-diri öldüm.
Dözdüm o da kömək etmədi,
Arzular həyata keçmədi.

***

Əşir sən minnət götürmə heç,
Ömrün sonudu ölümü seç.
Sənin ömrün bura qədərmiş,
Həmdəmin qüssə, qəm, kədərmiş.
Ağrın azalmır dərdim çoxdu,
Ürəyim ölüb gücü yoxdu.

BİLMƏZ

Dərdi dərdliyə verir Allah,
Dərdsizlər çəkə bilməz onu.
Namərdlər şər toxumu əkir,
Mərdlər əkə bilməzlər onu.

***

Nanəcibin sifəti yüzdü,
Danışıqları saxta sözdü.
Yüz dərdi ola çəkir dərdli,
Dərdsizlər çəkə bilməz onu.

***

İllər fırlanır, çözələnir,
Həmin illərdən söz ələnir.
Köhnə xatirələr köhnəlir,
Təzələr yaddan çıxa bilməz

***

Ömrün yolu çox çətindi,
Onu qət edənlər mətindi.
Haqlı, haqsızla bir tutulur
Namərd keçib başda oturur.

***

Dərdi, səri Əşiri üzür
Düşmən yoluna tikan düzür.
Ürəyi həsrətdən sıxılır,
Qürbət eldə o çox darıxır.
İstər gedə doğma elinə,
Qovuşa ocağına, pirinə.

TUTMADIQ DAŞA

Bina qurduq düşmən aldı,

Bizi dərdə qəmə saldı.
Uçurdu evimi yağı,
Ürəyimə çəkdi dağı.

***

Düşmənə verdik fürsəti,
Seçmədik düşməndən dostu.
Düşməni tutmadıq daşa,
Arxa durmadıq qardaşa.

***

Uyduq düşmənin felinə,
Elimizi qatdı elinə.
Erməni qız verdi bizə,
Sahib oldu yurdumuza.

***

Seçəmmədik yolumuzu,
Biz itirdik yurdumuzu.
Bağladılar qolumuzu,
Silah tutan əlimizi.

***

Əşir dığa əzdi bizi,
Talan etdi elimizi.
Xalqım yatma qalx ayağa,
Qoy qana boyansın dığa.
Sən topla elin mərdini,
Azad elə öz yurdunu.

QALAN DEYİL

Gəlmişik baxaq dünyaya,
O ki, bizə qalan deyil.
Nə mərdindi, nə namərdin,
O heç kimə qalan deyil.

***

Biz çətin doluruq yaşa,
Ömür ağır gəlir başa.
Gələn gedir dünya qalır,
O heç kimə qalan deyil.

***

Özünün bildiyin edir,
Ömrümüzü vaxt əridir.
Nə şahındı, nə də nökərin
O heç kimə qalan deyil.

***

Dünya bütövlükdə sirdi,
Adamı yıxan fikirdi.
Ona gələn nələr çəkir,
Heç vecinə almır dünya.

***

Bəşiroğlu içir zəhər,
Ömrü yaşayır bir təhər.
Elsiz onu boğur qəhər,
Dərd-qəm yeyir axşam, səhər.
Axırda hamı öləcək,
Təkcə ölməz, qalar dünya.

AĞADIR DIĞA

İgid mərd üçün canını verər,
Mərdin yolunda ölümə gedər.
Dağ dözməz dərdi yükləsən dağa,
Hələ vətəndə ağadır dığa.

***

Elin güzəranı ağır keçir,

Qəm kədər həmişə onu seçir.
Qızıl bitirir vətən torpağı,
İndi o, yerdə ağladı yağı.

***

Zamanda sürüyər, mərdi döyər,
Bəd xəbər verər, qəsdinə durar.
Gün ağır keçər, ili bəd gələr,
Dostlar ağlayar, düşmən gülər.

***

Boynumuza gündə günah minir,
Həm qəm-kədər həm də ah minir.
Nökərin bir səhvi min sayılır.
Ağanın etdiyi səhv sayılmır.

***

Əşir dərdin əlindən ağlayır.
Qəlbini dərdə, qəmə bağlayır.
Ömür çay kimi axıb çağlayır,
Anam başına qara bağlayır.
İgidlərimiz dursa ayağa,
Vətəndən qovular alçaq dığa.

ELİ GƏRƏKDİ

Əcəl bilməz qoca, cavan,
Ac nə bilir yağlı, yavan.
Göyün yox tərsi, avandı,
Yağışla dolu bir andı.

***

Nankorda bol olar ruzu,
Övnəyə yeyər bir quzu.
Namərdlə yesən gülmərsən
Çox yesəndə sən, doymazsan.

***

Varlı gizləsədə varın,
Hamı bilər onun sayın.
Dəvə girərsə pambığa
Mütləq görünər hamıya.

***

Şər çalışar işi bura,
Özüsə kənarda dura
Nəbiyə arxa durmağa,
Obası, eli gərəkdi.

***

Əşir il pis gəlir ildən,
Sən qorx zalımın şərindən.
Namərdlər çıxır dəridən,
Qaçır paxılın əlindən.
İl ağardır saçımızı,
O, artırır yaşımızı.

ÜRƏYİN YANA

***

Əcdadımız bir olsa da bil,
Cəmi doğulan insan deyil.
Biri aqil, doğru sözlüdür,
O biri paxıldı gözlüdür.

***

Bəzinin bütün sözü haqdı,
Eləsi vətənə dayaqdı.
O, çatdırır xalqa Quranı,
O birisi vurur aranı.

***

Yaltaq yol tapsa doğru-düzə,
Sonda özü atılar düzə.

Öz eybini görmürsə biri,
Nə fərqi onu söy, ya kiri.

***

Müdrikləri eşidən bir kəs,
Birin özünə düşmən bilməz.
Ömürü Allah verir sənə,
Gərək xalqa ürəyin yana.

***

Əşir dərdlərə şərik olsan,
Xalqın gözündə ucalarsan.
Sənə zövq verməsin eyş-işrat,
Ağıl, kamalla murada çat.
Sən yara xalqının işinə,
Şərik ol onun dərd-sərinə.

KAŞ VƏTƏNƏ GEDƏM

Yol uzun şələ ağır,
Biz gəzirik fağır-fağır.
Yıxılsan Allah çağır,
Onda gün keçməz ağır.

***

Zülm olur müsəlmana,
Qalırıq yana-yana.
Bu zülmə dözmür ürək
Dərd, qəmi necə çəkək?

***

Düşdük vətəndən uzaq,
Bizi öldürür sazaq.
Gözümün nuru itir.
Qəm, qüssə bizi tapır.

***

Sevmirəm mən qürbəti,
Qəlbdə yox məhəbbəti.
Bu zülüm ağır oldu.
Kərbala qırğınından.

***

Əşir dağların qaldı,
Cənnət bağların qaldı.
Zülm etdi sənə fələk
Qoşa çayların qaldı.
Kaş mən vətənə gedəm,
Onu ziyarət edəm.

VƏTƏN ÇIXIB YADDAN

Vətən yaddan çıxıb alanı yoxdu,
Yeyib dağıdanı talanı çoxdu.
Haqq danışanları asırlar dardan,
Hamı var yığır, vətən çıxıb yaddan.

***

Qeyrətli oğul dərd çəkir haçandı,
Qadir Allah bağlayandı, açandı.
Hamı susur heç kəs haqdan danışmır.
Nankor, satqın el dərdinə qarışmır.

***

Nanəciblər tamahından sallanır,
Tula payı verilənə allanır.
Qarınqulu ancaq qarnını güdür,
Alçaq yallandığı qapıda hürür.

***

Vətən oğlu yasın saxlayır,
Vətənçün hönkür-hönkür ağlayır.
Axşam səhər fikir edir, dərd çəkir,

Dərdlilər onun gözündən nəm çəkir.

***

Siz soruşmayın Əşirin halını,
Düşmən bağlayıb vətənin yolunu.
Allah fürsət versə alarıq eli,
Açılar Vətənin bağlanan yolu.
İgidlər oyansın, dursun ayağa,
Yurdumdan qovulsun məkirli dığa.

ZÜLÜMKARDI ERMƏNİ

Çağırmayın kişi məni, ər məni,
Vətənimdə at oynadır erməni.
Həmişə danlayır Vətən, el məni,
Həkəri, Bərgüşad, Araz, Kür məni.

***

Parçalayır ürəyimdə kin məni,
Od qalayıb vətənimdə erməni.
Saçın yolub ağlayır bacı, ana
Comərd insanlar qalır yana-yana.

***

Göyə qalxıb Xocalının fəryadı,
Düşmənə əsirdi onun övladı
İsmətli, həyalı qızlar əsirdi,
Bu vəziyyət şanımıza qəsirdi.

***

Oyan millət intiqamın vaxtıdı,
Dığalardan qan almağın vaxtıdı.
Körpəni nizəyə taxdı erməni.
Qan içəndi, zülümkardı erməni.

***

Dığa rusun güngörməzin yalayır,
Rus vasitəsilə yurdumu talayır.

Unudulmaz yanvardakı faciə,
Dost gərəkdi bu dərdimə acıya.

***

Pislik yazılıb ermənin adına,
Məhəl qoymurlar uşağa, qadına.
Çox qınayır vətən məni, el məni,
Siz silah verin mən öldürüm erməni.

***

Əşir erməni bildiyin edəcək,
Silahlanmasaq elimiz gedəcək.
Erməni tülkü tək quyruğun bulayır,
Rus vasitəsilə yurdumu talayır.
Çeçenlər örnək olsun bizlərə,
Onlar rusları salıblar lərzəyə.

QİBLƏM SƏNSƏN QUBADLI

Sənsiz göz yaşı ilə yaşayıram,
Acı taleyemi fikirləşirəm.
İlk andımı sənինlə başlayıram,
Sənsən ömür-günüm, qibləm Qubadlı.

***

Sən mənim taleyim, şirin sözümsən,
Canımdan əzizsən, iki gözümsən.
Tək sənin önündə əyilər başım.
Dilimin müqəddəs sözü Qubadlı.

***

Naxələf alçaqlar satdılar səni,
Doğma vətənə həsrət qoydular məni.
Dağlarının başın çis-duman alıb,
Balan qaçqın, köçkün olub Qubadlı.

***

Bolluca duz-çörəyini yemişik,
Bulaqlarının suyundan içmişik.
Səni özümüzə ata bilmişik,
Şirin sözüm, duz-çörəyin Qubadlı.

***

Sən Əşirin dəryası, dənizi,
Can, ciyəri, iki gözü əzizi.
Sənsiz yoxdu mənim gün, güzaranım,
Çoxdu ağrı, acın artıb azarım.
Allahım yar olar alarıq səni,
Dadarıq bal-şəkərini Qubadlı.

DÜNYA HARA GEDIR?

Hə haqqı var, nə də divanı,
Bu dünya hara gedir belə?
Candan bezib qoca, cavanı,
Bu dünya hara gedir belə?

***

Qanunu qaydası işləmir,
İşləyən insanlar dişləmir.
Comərd insanları dərd əyib.
Bu dünya hara gedir belə?

***

Nadanların işi xod gedir,
Onlar yeyir, içir kef edir.
Nadan harın, Allahlıq edir
Bu dünya hara gedir belə?

***

Dünya şərlə, yalanla dolub,
Dünənki gədə ağa olub.

Bəndə qədər Allah yaranıb,
Bu dünya hara gedir belə?

***

Əşir yaşamır fəryad edir,
Əyrilərin işi düz gedir.
Bülbülə dərs keçir qurbağa.
Şair, alim qoyulur lağa,
Gör kim başçılıq edir elə?
Bu dünya hara gedir belə?

02.04.1992

BU ÖLKƏ

Düşmən yurdumu talan edib,
Ər oğul ələ baxan olub.
Bəlkə oğulsuzdu bu ölkə,
Onun xalqı düşüb bu kökə.

***

Dərdin, kədərin sonu yoxdu,
Xalqın çoxu ac, azı toxdu.
Şadlıq evi insandan çoxdu,
Allahın xəbərimi yoxdu?

***

Nə vaxt ayılacaq bu ölkə?
Ərlər düşmənin qanın tökə.
Qoç Nəbilər oyana bəlkə,
Düşməndən alına bu ölkə.

***

Yatmış inamımız oyansa,
Haqq, ədalət bərpa olunsa,
Bəlkə onda qovula dığa.
Onda gedərik Qarabağa.

***

Dünyaya deyək sözümüzü,
Dərddən tökməyək gözümüzü
Yumruq tək birləşək bir olaq,
Düşməni yurdumuzdan qovaq.

***

Əşir itirmə heyrətini,
Sən qoru saxla şöhrətini.
Xalqını çağır haqq yoluna,
Bəlkə dərdə çarə oluna.
Tanrımız kömək edər bizə,
Biz qayıdarıq yurdumuza.

ŞƏR AĞACI ƏKDİ

Namərd kürəyindən vurur mərdi,
Onun dediyinin hamısı şərdi.
Özün qabağa verir hər yerdə,
Var üçün gecə də qalar çöldə.

***

Hər ağrı acı göndərdin bizə,
Etdiyin zülüm çıxıbdı dizə.
Namərd şər ağacın əkdi düzə,
Meyvəsin dərib göndərdin bizə.

***

Bol kədər verdin, sevinci aldın,
Ürəkləri ilan kimi çaldın.
Sən gecə-gündüz ağlatdın bizi,
Əlimizdən aldın səbrimizi.

***

Fağırın qismətin alıb yedin,
Ona min şər, şəbətə dedin.
Yetimi fağırı daim söydün,

Gündə onların başına döydün.

***

Satqın yaltağın qeydinə qaldın,
Əşiri həmişə oda saldın.
Yaxşı nə varsa özünə qıydın,
Kasıbın son tikəsində aldın.
Sənlə birgə gülə bilmədik
Günahımızı bilə bilmədik.

ÜZÜNƏ GÜLÜR

Namərd mərdin düz sözünə gülür,
Onun ayağının altını sökür.
Daldada böhtan deyir adına,
Aşkarda onun üzünə gülür.

***

Satqın yaltaq olur hər bir yanda,
Küçədə, bazarda, çayxanada
Siz iki üzlü deməyin ona,
O, çox üzlüdü, girir min dona.

***

Satqın bəla açıb başıma,
Düşmən yiyə durub dam, daşıma.
Zülmət gecəyəm, səhərim yoxdu,
Barsız ağacam, bəhərim yoxdu.

***

Adın-sanın var pislər içində,
Bilirsən onun əyri suçunda.
Düzlər yaxına buraxmaz səni,
Əyri yerin var, əyri içində.

***

Əşir dərd içində yanır yaman,
Yetişibdi pis dövran, pis zaman.

Namərd altdan-altdan mənə baxır,
Bağrımın başına güllə çaxır.
Hamıya bəllidi yalan sözü,
Geci-tezi açılacaq iç üzü.

YALAN DÜNYADA

Ağrı, acı çəkər canım,
Damarımda donur qanım.
Biz yolumuzu azmışıq,
Yol tapammıram dünyada.

***

Arzularım puça çıxdı,
Ağır dərdlər məni yıxdı.
Arzularım boşa çıxdı,
Bu qəddar talan dünyada.

***

Torpağımı düşmən alıb,
Elim düzə səpələnib.
Ömür günüm zəhərlənib,
Bu çarxı dönən dünyada.

***

Biri alır, biri satır,
Satan mala haram qatır.
Düzlərim düzə atılır,
Yeriyir yalan dünyada.

***

Düşmən bizi topa tutur,
Alazan, Qrad atılır.
Müsəlmanlar fəryad edir,
Çoxalıb qırğın dünyada.

***

Əşirin ahu zarına,

Allahı yetmir dadına.
Basılmaz yurd harayına
Göz yaşının sorağına,
Allahım yetə dünyada,
Tanrı bizi sala yada.

DƏRDİ BOL ÇƏKMİƏM

Mən bezmişəm dünya işindən,
Qaçammıram onun dişindən.
Sevinci az, dərdi bol verir,
Onun dərd, qəmindən bezmişəm.

***

Vətənimi alıb dərd verib,
Üşüsəm başıma qar səpib.
Daim qəm şərbəti içmişəm,
Dünyanın işindən bezmişəm.

***

Küsüb barışıram özümlə,
Dardan asılıram sözümlə.
Dərdi hamıdan bol çəkmişəm,
Dərdlilərə könül açmışam.

***

Xəzan gələndə güllər solar,
Qışda tufan olar, qar olar.
Qürbət eldə çox dərd çəkmişəm.
Onunçün dünyadan bezmişəm.

***

Bəşiroğlu var adın sanın,
Dərd çəkməkdən çürüyüb canın.

Dərd-qəmə dözmüsən ər kimi,
Azad elə ata mülkünü.
Gəl haqdan əlini üzmə sən,
Vətəni sevsən yüksələrsən.

DÜŞMƏNİ QIRAQ

Bu ağrı, acı əydi bizi,
Kaman etdi düz qəddimizi.
Namərd gülləsi tutdu bizi,
Düşmən bağladı yolumuzu.

***

Ər oğul istənilən qədər,
Vətənim, elim getməz hədər.
Sevincim gedib, boldu kədər.
Dərd çəkən olarmı biz qədər?

***

Dünya kəm baxır müsəlmana,
Müdriklər qalır yana-yana.
Zülüm edir insan, insana,
Mərd az qalır alışa yana.

***

Ocağımız sönübdü, çoxdan,
Toxun xəbəri yoxdu acdan.
Qaçqın candan bezib ağlayır,
Könlün dərdə-qəmə bağlayır.

***

Siz gəlin yurda yiyə duraq,
Çəkici biz zindana vuraq.
Bir qılıncla yüz düşmən qıraq,
Yurdumuzdan yağını qovaq.

***

Əşir vətən hayına qalaq,
Yağı düşmənin burnun ovaq.
Nəbilər, Babəklər hələ çoxdu,
Düşmənin bundan xəbəri yoxdu.
Səfərbər edək ordumuzu,
Düşməndən alaq yurdumuzu.

VƏTƏN TORPAĞI

Dünyamız nərd taxtasıdı,
Kimə yek, kimə şeş verir.
O, əllərdə oyuncaqdı,
Kim hara istəsə çəkir.

***

Abır, ismət indi yoxdu,
Binamus alçaqlar çoxdu.
Hər şeyi pula satırlar,
Dözəmmir ölür aqillər.

***

Satqın tor qurur aqilə,
Alimə dərs keçir gədə.
Dünyanın işi düz getmir,
Mərdlər muradına yetmir.

***

Qorumadıq Nəbi adın,
Düşmənlərə verdik yurdun
Sən köməyə yet Allahım,
Qürbətdə qalıb millətim.

***

Əşir biz insanıq axı!
Dərd çəkir millətin çoxu.
Qəflətdən ayılsa başım,
Alınar torpağım daşım.

YAXŞILIQ QALACAQ

Barmağına sarımısan bu xalqı,
Qabağa çəkmisən axmağı.
Qana boyamısan yurdunu,
Döyüşə çəkmirsən ordunu.

***

Yurdu təriflə il boyunca,
Gül üzünə baxaq doyunca.
Əsəratda saxla acını,
Toya çevir onun yaşını.

***

Toyun yas, yaşını toy elə,
Aqilləri ələ sal ələ.
Şair, alim oyunbaz olsun,
Ətrafın yaltaqlarla dolsun.

***

Alim ixtirasın qoy lağa,
Şairinsə dola barmağa.
Tərlan yurdunda gəzir qarğa,
Yurda ağalıq edir dığa.

***

Oğru, quldur dolub vətənə,
Rəvənc verilir şər əkənə.
Hələ yaltaq gülür üzünə,
Sən quyu qaz xalqın düzünə.

***

Əriyəcək süstlüyün buzu,
Xalq seçəcək əyrini düzü.
Onda açılar sənin gözün,
Görər xalqın əyrisin düzün.

***

Axı səni el sayıb, seçib,
Qoruyaraq qayğına qalıb.
Tərifini aləmə yayıb,
Bəs səndən xalqına nə qalıb?

***

Əşir hamı bərədən keçir.
Vaxtı çatsa əzrayıl seçir,
Heç kəs çıxa bilmir qırağa,
Ağa nökər bükülür ağa.
Pislər öz cəzasın alacaq
İnsandan yaxşılıq qalacaq.

14.05.1992

SAXTA ÇIXIR

Vəzifəyə keçən anlar,
Yağlı dil tökür onlar.
Sən yaxşı bilib seçirsən,
Sonra saxta çıxır onlar.

***

İlan sayağı dil çıxarır,
Lazım gəlsə o, ağlayır.
Sən seçdiyin saxta çıxır,
Aldanmağın səni sıxır.

***

Yığır tayfasın başına,
Rəvənc verir aşnasına.
Tanımırsan kök soyunu,
Başına açır oyunu.

***

Onun yalan sözü keçir,
Düzləri doğrayır biçir.
Onda yoxdur abır, həya,
Qanunları salmır saya.

***

Tərifdən xoşlanır özü,
Düzü əyri görür gözü.
Nə vecinə vətən yoxdu,
Onun ki, qarnı toxdu.

***

Özün çox ağıllı sayır,
Baş biləni lağa qoyur.
Saymır alimi şairi,
Görmür dilənçi, sayılı.

***

Daha çaşıb onun ağlı,
Onu saymır qızı, oğlu.
Arabası dala gedir,
Dost tanışı yala gedir.

***

Can verir o həşirdədi,
Pul yığır əl həşirdədi.
Çoxları vay, şivən edir,
Arxa gedir, kömək gedir.

***

Əşir ölüm yalan deyil,
Vaxtından tez gələn deyil.
Vaxtı gəlsə alar canın,
Tanımaz nökərin, xanın.

20.11.1992

ŞƏHİDLƏR

Şəhidlər gəncliyini atıb oda,
Onlar candan keçib sınmayıb yada.
Doğranıb, əzilib can gedib bada,
Məzar xəyala dalır xiyabanda.

***

Anaları diri-diri yandırıb,
Körpələri şişə taxdı daşnaqlar.
Quzu kimi mələsə də uşaqlar,
Körpələrin qanın içdi daşnaqlar.

***

Məzardakıların çırağı sönüb,
O yolundan nə çəkilib, nə dönüb.
Vətən göylərində ulduza dönüb
Əbədi yuxuya gedib şəhidlər.

***

Daşnaqlar o ruslarla bir gəzənlər,
Türkün qabağında tir-tir əsənlər,
Birləşərək xalqımızı biçdilər.
Tikə-tikə edib qanın içdilər.

***

Şəhidlər Vətən yolunda getdilər.
Vətənini candan əziz tutdular.
Vətən torpağında uyuyur onlar,
Unudulmaz Vətən üçün ölənlər.

***

Vətənin yolunda qılınc çalanın,
Canından qorxmayıb qanın verənin,
Övladı intiqam almamış olmaz,
Qələbə Marşını çalmamış olmaz.

***

Əşir canın alar nankor dığaların,

Onlara rəvənc verən ağaların.
Mütləq bu qisasın sonu yetəcək.
Nankor dığalar qovulub gedəcək.

AXIR GÖZÜMÜN YAŞI

Vətəndə həmişə gülərdi üzüm,
İndi qürbətdəyəm yaş tökür gözüm.
Nəzərə alınmır fikirim, sözüm,
Qalmayıb məndə nə taqət, nə dözüm.

***

Elimlə birlikdə çəkirəm dərdi,
Bu dərdi çəkənlər həqiqi nərdi.
Qoruyammadıq yurdu düşmən aldı,
Varı düşmənə, dərdi bizə qaldı.

***

Mən özümü qurban etsəydim yurda
İndi fikir etməzdim qürbət eldə,
Vətəndə biz bəy-xan kimi yaşardıq
Qürbət eldə ələ baxdıq alçaldıq.

***

Sevincin içində üzərdim bir vaxt,
Taleyimə açılardı qızıl taxt.
İndi qüssə, kədər olubdu butam.
İstəyirəm ömrün sonuna çatam.

***

Əşir çəkəni çəkə bilməz nərdə,
Onun günü ötüşür dərdi-sərdə.
Gecə-gündüz axır gözünün yaşı,
Onunla ağlayır dostu, qardaşı.
Yaş tökən görəndə ana bacını

Qəlbdən silə bilmir ağrı acını.

DÖZÜR YARADAN

Dərd hopub iliyə, qana,
Qürbətdə gəlmişəm cana,
İlahi dərd olmaz bu qədər,
Nə vaxt qurtarar qəm, kədər?

***

Nadanlar şər gəzir yenə,
Mərdi gətirirlər, cana.
Çaşıram dünya işindən,
Mərdi keçirir dişindən.

***

Yalan bürüyüb dünyanı,
Qoru saxla görək canı.
Bir dərmanı yox, min dərdin
Niyə sözü keçmir mərdin?

***

Gədələr çəkilir başa,
Tor qurur qardaş, qardaşa.
Dost dostunu ələ salır,
Alçağın qeydinə qalır.

***

Əşir dözəmmir ağlayır,
Könlün dərd-qəmə bağlayır.
Pullular çəkilir başa,
Aqillər tutulur daşa,
Bu işlərə dözür yaradan,
Pisi götürmür aradan.

ÇIXIR

Başçılar millətə zülm edir niyə?
Millət möhtacdı bir qarın çörəyə.
Belə zülmə niyə dözür yaradan?
Alçaqları o, götürmür aradan.

***

Varı tükənibdi bizim ellərin,
Gül-çiçəyi quruyubdu çöllərin.
Alçaqların, satqın nanəciblərin,
Qazancı vətəni satmaqdan çıxır.

***

Allah görmür bu yalavancı-acı?
Bəs niyə dağıtmır bu taxtı-tacı.
Dolanmaq üçün hərə bir yol seçir.
Nakişilər ar, namusundan keçir.

***

Dərdlisən dərdinin oduna qızın.
İsmətli, utancaq, namuslu qızın,
Sorağı Kitaydan, Dubaydan gəlir,
Ara gör bəla sənə hardan gəlir?

***

Qeyrəti çat verib arsız kişinin,
Doğmalarıda sözün demir onun
Arvada da sözü keçmir kişinin
Uşağı da tutmur qolundan onun.

***

Əşir dünya şeytan çuğulla dolub,
Ər kişilərin ələ baxan olub.
Mərd namərd əlindən daim alçalır.
Hamı işin atıb indi əl çalır.

Şaşqın əyrilər, düzlərdən bac alır,
Aqillər də bunu görür qocalır.

20.04.1992

ÇAĞIRIR MƏNI

Ruhlar intiqama çağırır məni,
Vətəndə at oynadır rus erməni.
İkisi xalqımı doğrayıb biçir
Körpə balaların qanımı içir.

***

Vətənə od yağır, qanlar tökülür,
Haqqın ədalətin qəddi bükülür.
Yurdumda qan tökür rusla erməni,
Şəhidlər döyüşə çağırır məni.

***

Təbrizi ram edib farsla erməni,
Vətən intiqama çağırır məni.
Silaha sarılsa vətən övladı,
Silinməz vətəndən millətin adı.

***

Bizlərə ATƏT-də yetməyir dada,
Xaçpərəst xaçpərəsti salır yada.
Xalqımı şişə taxır rus, erməni,
Hücuma çağırır vətən, el məni.

***

Elim, vətənim çağırır hücuma,
Sadiq qalmalıyam vətən borcuma,
Millətimin qanın içir erməni,
Qəzəbim hücuma çağırır məni.

***

Daşı göynədir millətimin ahı,
O, yanan körpənin nədir günahı.
Mən yenə görürəm qanlı sabahı,
Şəhidlər döyüşə səsləyir məni.

***

Lüğətdən silinsin erməni adı,
Arzusu ölə, sına qol-qanadı.
Əşir milləti əzir rus, erməni,
Vətənim döyüşə çağırır məni.
Vətən üçün doğra məni, böl məni,
Vətənə qənim çıxıb fars, rus, erməni.

KEÇƏK HÜCUMA

Odlar yurdunun igidi mərdi,
Vətən dardadı uzat əlini.
Səslə igidlər dursun ayağa,
Yurdumdan qovulsun məkirli dığa.

***

Biz silahlanaq keçək hücuma,
Şahin tək yeriyək cuma-cuma.
Sındıraq daşnaqların belini,
Pozaq dığaların fitnə, felini.

***

Qəbul etməz ana torpaq məni,
Yetər qanımı içir erməni.
Döyüşə çağırır vətən məni,
Qıraq, biçək qalmasın erməni.

***

Millətimi doğrayıb tökdülər,
Dığalar qanımızı içdilər.
Körpələr qundaqlara keçdilər,

Türklə vuruşda onlar heçdilər.
Qisas almaqçün keçək hücuma,
Dığaların üstünə cuma-cuma.

***

Əşir səs salıb küllü aləmə,
Düşmənləri sarıyıb qələmə.
Qanına qəltan olub şəhər, kənd,
Hücum etməyi hökm edir ürək.
Bağlanıbdı bizim bərə, bənd,
Düşmənə qalamasın şəhər, kənd.

BİRLƏŞƏK BİR OLAQ

Min sifətli gördüm əyyaşı
Aqil, kamalı, qanmaz naşı.
Kişiliyi pulda görür onlar,
Namusun atıb bilməyir ar.

***

Başa düşə bilməz heyvanlar,
Şan-şöhrəti yeməkdə anlar.
Göz çıxarsa ürəyi yanmaz,
Pulu getsə dayana bilməz.

***

Daşnaqlar vətəni taladı,
Yurdda sönməz ocaq qaladı.
Körpələri nizəyə taxdı,
Dığaların vicdanı yoxdu.

***

Xalqımın tifaqı sovrulur,
Öldürülür qanı sorulur.

Xanimanı uçur dağılır,
Ürəyim sinəmdə qovrulur.

***

Daşnaqlar dağı dağıdır,
Bir olmaları elə dağdır.
Tünd sirkə qabını dağıdır,
Tündlüyü özünü ağrıdır.

***

Mən Xəyalla cahana gəldim,
Dağın seyr edib, gülün üzdüm.
Təmkinlə, səbirlə, dolandım,
Səbir etməsəm dözəmməzdim.

***

Yumruq kimi birləşsə millət,
Əməlində olmasa qələt,
Vətəni almaq olar asan.
Gərək birləşib bir olasan.

***

Birlikdi ən basılmaz qüvvət,
Əşir ona bəslər məhəbbət.
Qarışqa kimi bir olsaq biz,
Düşməndən alınar yurdumuz
Xalqımın birliyi olarsa,
Erməni həsrət qalar hasa.[1]

ÜZÜ GÜLMƏZ

Enirəm vətənimin səddinə,
Hər düşüncə bir hökm edir mənə.
Yeridir qəlbə əmr edir mənə,
Kişi yurdunu atıb qaçarmı?

[1] Has-çörək deməkdi.

Yad ölkədə bazar açarmı?

***

Yurdu verib dığanın əlinə,
Dığalar hökm edir elinə.
Didərginin heç üzü gülərmi?
O, qana-qan almasa ölərmi?
Yad eldə yaşamağa dəyərmi?

***

Xoşluqla donuz çıxmaz darıdan,
Gərək döyüb çıxardasan ordan,
Bədxahlar mərdin əlini sıxmaz,
Burnu ovulmasa donuz çıxmaz.
Heç vaxt doğma Vətən unudulmaz.

***

Vətənin dərdini soruş məndən,
Gərək önümdə diz çökə düşmən.
Əmr edir vətən mənə, yurd mənə.
Tez olun silah verin siz mənə.
Mütləq qan udduracam düşmənə.

***

Mənə təpər verən doğma eldi,
Kəpəzimdi, Arazım, Kürümdü.
Əşir qan almaq yetib həddinə,
Dığaları qovaq öz səddinə.
İgid sən tez ol silah al ələ,
Sahib ol doğma vətənə, elə.

ELMDİ

Bəşərə nur verən ixtira, elmdi,
Elmsiz insanların gözləri kordu.
Mətinlik dəyanət insana yardı,
Dəyanətsiz insan kül altda qordu.

***

Göyləri fəth edib, kosmosa gedən,
İnsanın şöhrətin dünyaya yayan,
Torpağa bərəkət, dağa vüqar verən,
İnsanların zinəti elm, savaddı.

***

İnsanı dünyaya tanıdan elmdi,
İxtira bəşərə şərəfdi, şandı.
Allah dahiləri elmlə ucaltdı,
Onları arzu, murada çatdırdı.

***

Elminlə xalqına verginən nicat,
Atomla həyat ver, qırğını qır at.
Qırğın silahların ərit sobada,
Alət düzəlt xalqın yetişsin murada.

***

Bəşiroğlu elmsiz insanlar kordu,
Yolu kələ, kötür, dolanbac yoldu.
Elm həm bəşəri murada çatdırır,
Həm də dünyadan sildirib atdırır.
Elmi faydalı işlərə yönəlt sən,
Onunla maşın, traktor düzəlt sən.

İNAM ÖLÜBDÜ

Dərd-qəm məni alıbdı,
Tale gözdən salıbdı.
Ümüd inam da itib,
Yerini dərd-qəm tutub.

***

Bizim dağlar girovdu,
O görükən Murovdu.

Mənim gözüm yoldadı,
Hoçazla, Kirs hardadı.

***

Yaş süzülür gözümdən,
Mən gedirəm özümdən.
Gözlərim öz dağımda,
Dərdlilər sağ-solumda.

***

İnam qalıb orduma,
Mən gedərəm yurduma.
İnamım yox sabahıma,
Çarə olmaz ahıma.

***

Yazın gülşən çağında,
Yarpaq tökülür bağda.
Ümüd, inam ölübdü,
Gülşən bağım solubdu.

***

Əyilib o şux belim,
Ağarıb qara telim.
Canım, artıb dərd-gəmin,
Dəryada batıb qəmim.

***

Qartallar enib düzə,
Küskün baxırlar bizə.
Dağlar saxlamır qarın,
İtiribdi Vüqarın.

***

Əşirəm dərd çəkirəm,
Dərdimi mərd çəkirəm.

Bu dərdin yoxdu çarəsi,
Çoxdu qəmi qüssəsi.
Əl açım Allahıma
O, yetişsin dadıma.

SİNƏMİN DAĞI

Düz danışsan, ağrıyar başın,
Qurunun yerinə yanar yaşın.
Fərmanları ağlı çaş verir,
Sol əl yazır sağ yalan olur.

***

Dilimiz öyrənib ağuya,
Möhtacıq şəraba, saqiyə,
Tar-mar olub könlümün bağı,
Alınıb yurdum aranı dağı.

***

Fələk zəhər edib aşımı,
Başdan əskik etmir daşımı.
Qanlıda qan ağlar, halıma,
Dostlarımda gəlmir yanıma.

***

Ürəyə çəkiblər min dağı,
Məni sıxır sinəmin dağı.
Sağalmazdı sinəmin dağı,
Bu dərdimə sevinir yağı.

***

Əşir ocağından his çıxar,
Desən yaşayıram pis çıxar.
Ölmüşəm desəm yalan olar,
Qəm kədərlə ürəyin dolar.

Tənbəl olma sarıl qələmə,
Səsin düşsün küllü aləmə.

SOLARIQ DÜNYA

Göz yaşım dönübdü selə,
Həsrətəm vətənə, elə.
Üzü gülsə bizim elin,
Dərərəm çiçəyin gülün.

***

Fələk dərd yüklədi bizə,
Öldürüb o, güldü bizə,
Vətən yolun bağladılar,
Ürəyimi dağladılar.

***

Yol verdin əyriyə, çaşa,
Düzləri saldın savaşa.
Dərd çəkəni sən bilmədin,
Dərdin ürəkdən silmədin.

***

Allahda sevmədi, mərdi,
Onlara yüklədi dərdi.
Öz işinə qarışıb başı,
Dünya sevir ağlı çaşı.

***

Əşirə verdiyin aldı,
Ürəyin ney kimi çaldı.
Sən ağlar qalasan dünya,
Saralıb solaşan dünya,
Bulud tək dolaşan dünya,
Gül kimi solasan dünya.

NƏ DEYİM

Nadan bilməz namus ar nədi,
Ömürləri eyşdi işratdı.
Namusu, qeyrəti atıblar,
İnsana biganə qalıblar.

***

Vətən qeyrəti çəkməsən sən,
Bu haqsızlıqları duymazsan.
El dərdin özünün sanmasan,
Deməli, sən insan deyilsən.

***

Namusu satılmış nadana,
Doğma vətənini satana,
Ana bacısı əsir düşən,
Arsıza, nadana nə deyim?

***

Vətən üçün alovlanmayan,
Elinin namusun çəkməyən,
Bir yetimə kömək etməyən,
Heyvan tək yaşayana nə deyim?

***

Əşir sınaqdan mətin çıxmış,
Nanacibə sözünü demiş.
Naqis– nadan var yığır yenə
Onlar oğul deyil vətənə.
Birləşib vətəni alarıq
Nadanı pis günə qoyarıq.

GƏLMİR BAŞA

Dost da çatmır hayına,
Dərd çıxır qabağına.
Dost qoşulmur ağuma,
Bir arzum gəlmir başa.

***

Vətənə çatmır əlim,
Bağlanıb vətən yolum.
Yaşayım, yoxsa ölüm?
Dərdimlə hara gedim?

***

Bəxtimə tor hörünüb,
Dərd-qəmim bol verilib.
Vətəndən əlim üzülüb
Gözümdən yaş süzülüb.

***

Keçən günü anıram,
Həsrətdən odlanıram.
Onu ömür sanıram,
Alışıram yanıram.

***

Əşir dözmür həsrətə,
Bu bəxt düşüb qismətə.
Gülə qarışıb çayır.
Oğulsan güldən ayır.
Vətəndə yağı gəzir
Bağrımın başın əzir.

SAZ AĞLASIN

Qürbət eldə ölən qəribin,
Vətəni eli yas saxlasın.

Gül açmasın, yazım ağlasın,
Çalmasın, telli sazım ağlasın.

***

Qürbət eldə hamı ağlayır,
Ana bacı qara bağlayır.
Gözəllər yara yas saxlayır,
Könlün dərdə qəmə bağlayır.

***

Gülşən bağı saralıb solub,
Gülün içini qanqal alıb.
Nazlı gözəllər sevmir daha,
Öyrəniblər kədərə, aha.

***

Sevgi olar ürəkdə, qanda,
Atəşindən alışar, canda.
Sevənlər qalar biyabanda,
Alışıb yanar eşq odunda.

***

Əşir yanar vətəni üçün,
Artıq dünyadan çəkir köçün.
Sevir vətənini, elini,
Onun ocağını, pirini.
İnsan vətənini sevə gərək.
Əgər sevmirsə ölə gərək.

VƏTƏN

Qədimdi tarixin yaşın,
Çox bəlalar çəkib başın.
Alınıb torpağın, daşın,
Ağla göz yaşı tök Vətən.

***

Alınmaz qaladı Şuşan,
Can verərdi ora düşən.
Qalanı verdik yağıya,
Dilim öyrəşib ağuya.

***

Şəhid ruhlar fəryad edir,
Vətən üçün qanın tökür.
Bu qanı almasaq olmaz.
Qürbətdə üzümüz gülməz.

***

Qoç əlyar çağırır bizi,
Deyir igid qalx ayağa.
O, danlayır üzümüzü,
Deyir eldən qovulsun dığa.

***

Əşirin yurdu talandı,
Kim satandı, kim alandı?
Ər bazarda, daldalandı,
Didərgin halın yanmadı.
Vətəni almasaq olmaz,
Əlyar bizi bağışlamaz.

ALINAR YURDUMUZ

Dünyamız itiribdi başın,
Qardaş aldadır öz qardaşın.
Sumbatlar satırlar Babəki,
Dostların yoxdu etibarı.

***

Olanı dost dostdan qoparır,
Həmzə Koroğlunu aldadır.

Onun qır atını aparır,
Qoç Koroğlunu atsız qoyur.

***

Dünyamız elə çalxalanır,
Hər yerində qan laxtalanır.
Haqsızlıq yayılıb cahana,
Zülüm olunur müsəlmana.

***

Allahımızda pislik edir,
O vulkan, zəlzələ törədir.
Aqil, alim itirb başın,
Hamısı axıdır göz yaşın.

***

Bəşiroğlu dərddən ağlayır,
Qəm kədərə könül bağlayır.
Bezmişik dünyanın əlindən,
Qurtara bilmirik şərindən,
Ayağa qalxarsa ordumuz,
Düşməndən alınar yurdumuz.

SƏN ÖZÜN QORU

Allah bu xalqa çox veribsən dərdi,
Qırılıb ərləri, igidi, mərdi.
Düzlüyü sevər haqq yoludu yolu,
Düşmənlə doludu sağı və solu.
İlahi bu xalqı sən özün qoru.

***

Məmurlar bu xalqın haqqını danır,
Xalqsa qəzəbindən alışıb, yanır.

Təmiz qəlbli, uşaq sayağı, sadədi,
Bilmir ki, ətrafındakılar gədədi.
İlahi bu xalqı sən özün qoru.

***

Çadırlarda xalqın qurdu böyüyür,
Körpələrdən cəsur ordu böyüyür.
Qaçqının doğma vətəni kiçilir,
Məkirli digərinin yurdu, böyüyür.
İlahi bu xalqı sən özün qoru.

***

Hər gələn yurdumda bir ocaq çatır,
Mənim sərvətimi xarici dartır.
Çoxdandı ki, qəflət yuxusunda yatır,
Qılıncları qınında pasa batır.
İlahi bu xalqı sən özün qoru.

***

Əşir xalqını tərpət sən silkələ,
Bəlkə o ayıla özünə gələ.
Özünün haqqına inana bilmir,
Yağını yurdundan çıxara bilmir
Çoxdandı Babəklər, Nəbilər yoxdu,
İlahi bu xalqı sən özün qoru.

YAMAN QORXURAM

İnsan yolun azıb hamı şər gəzir,
Namərdin şərindən yaman qorxuram.
Mənə ağıl verir hər ağlı çaşlar,
Qəddim kaman olub yaman qorxuram.

***

Haqsızlıq alçağın qanından gəlir,
Mərdə tələ qurmaq canından gəlir.
Dərs alıb soyundan, kökündən gəlir,
Soy-kökü naqisdən yaman qorxuram.

***

Nanacib, alçaqlar tuş olur mənə,
Çalın-çarpaz dağ çəkirlər sinənə.
Zülümkardan dərs alıb onlar gəlir,
Şeytanın şərindən yaman qorxuram.

***

Qılıncı əlində, kini gözündə,
Günahsız öldürür mərdin yüzündə.
Mərdi tuturlar elə düz sözündə,
Namərdin şərindən yaman qorxuram.

***

Əşir dünya şeytan çuqulla dolub,
Düzlərin düz işində müşgül olub.
Dünyamız fırlanmır yerində durub,
Şairlər, alimlər saralıb solub.
Düz danışanların dilin kəsirlər,
Onu boğazlayıb dardan asırlar.

20.02.1990

İZİ QALAR

Sən yalvarıb ömür alma tanrıdan,
Hamını bir gözdə görür yaradan.
Hünər deyil, uzun ömür yaşamaq,
Hünərdi ömürdə yaxşı iz qoymaq.

***

Çoxdu var eşqiylə alışıb yanan,
Onu yaradan ulu tanrını danan.
Daş qəlbli insanı yaratma Allah,
Onlardan xalqa xeyir gəlməz vallah.

***

Dünyanın dərdini çəkmədi hamı,
Çoxu eyş-işrətdən aldı ilhamı.
Nadan həyatın dəyərin bilmədi,
Onun xalqına xeyiri dəymədi.

***

Qanuna, fərmana məhəl qoyulmur,
Düz deyilən sözə fikir verilmir.
Yaşamaq gümandan asılı qalır,
Düzlər düzdə qalır saralıb, solur.

***

Əşir insanın evin yıxır yalan,
Yalanlar ömürü eyləyir talan.
Ümidlər ölər haqsızlıq görəndə.
Nankor insan uzun ömür sürəndə.
İnsan yaxşılıq etsə izi qalar,
Öləndə əzab əziyyətsiz ölər.

15.04.1992

SƏNƏ DAĞLAR

Sən haqlısan qına məni,
Bərkdə, boşda sına məni.
Küskün baxıb danla məni,
Qorumadım səni dağlar.

***

Düz qamətim əyilibdi,
Binəm düzə sərilibdi.
Yetmiş yerə səpələnib,
Mənim elim, obam dağlar.

***

El obamda nərçə idim,
Qürbət eldə kiçildim.
Solum ölüb, sağım qalıb.
Günüm dömüb ilə dağlar.

***

Gözlərim yollara baxır,
Damla-damla qanım axır.
Düşmən mənə güllə çaxır,
Mən həsrətəm sənə dağlar.

***

Əşir baxır sinə dağlı,
Vətənin yolları bağlı.
Vüqarını saxla dayan
Biz olarıq sənə həyan.
İgidlərin səni alar,
Üzün gülər yenə dağlar.

GÜLLƏR SOLAR

Nadandan allah da bezir,
Dərdi onu çəkənə yazır.
Qanqala kim yaxın gedər,
Gözəllər gülləri dərər.

***

Mən nə deyim tale yazana?
Gözəl bəxt yazıb nadana.
Namərd yağ, balı bəyənmir,
Mərd yavan çörəkdə tapmır.

***

Nadan yeyir içir gəzir,
Aqilləri fikir əzir.
Mərdin düz sözü də keçmir
Allah onun qəlbin açmır.

***

Nadan! Varın gəlmir saya,
Şair möhtacdı çörəyə.
Bu isə dözür yaradan,
Pisi götürmür aradan.

***

Bəşiroğlu az yan, yaxıl,
Bildiyini edir paxıl.
Şaxta vuranda gül solar,
Gülləyə tuş olar maral.
Allah bizə kömək edər
El düşməndən azad olar.

MƏNİM DAYIM

(satirik şeir)

Düşmənə bahar yazdı, bizim üçün qışdı dayım.
Dığaya torpaq verdi, bizə qəbir qazdı dayım.

***

Sözü şirin şəkər, kəklik tək səkir, sazdı dayım.
Mənə düşmən, sizə isə arxa köməkdi dayım.

Dostları yoldan çıxartdı, yolunu azdı dayım.
Onun hökmünə bax, ayıqdı, sanki qazdı dayım.

***

Qabəhəti əlindədi, söyüşü dilindədi.
Şirin sözlüdü, bir az ağızdan pərtavdı dayım.
Dondan dona girir elə bil ki, aktyordu dayım,
Gövdəlidi, nəhəngdi elə bil ki, divdi dayım.

***

İçkibazdı araq, şərabdı onun dost, tanışı.
Onunla fəxr edirdik deyirdik ayıqdı başı.
Onun düşməni çoxdu nə olsun ki, düzdü dayım.
Jiquli nədi, Volqa nədi, nəhəng Cipdi dayım.

***

Gözü açıqdı, harda aşdı, orda başdı dayım.
Hərənin öz adı-sanı var, bir az bazdı dayım.
Ölsün itsin pis adamları şərə düşdü dayım.
Gözəl polis işçisiydi yolunu azdı dayım.

***

Yaxalandı, boğazlandı dama basıldı dayım.
Tamahının qulu oldu, pula satıldı dayım.
Arı-namusu çoxdan atıbdı, yapışıb puldan.
Həmi pulgirdi, həmdəki arvadbazdı dayım.

***

Əlsiz-ayaqsızları, zəifləri harda görsə,
Tutub qanın sorur elə bil ki, zəlidi dayım.
Onun zəhmi ağırdı, çoxda acı dildi dayım.
Şirdi, pələngdi, ayıdı, elə bil fildi dayım.

***

Çoxları deyəcək niyə bu kökə düşdü dayım?
Axı tülkü qədər bic, qazdan ayıq idi dayım.

Türmədə ayrıca qalır, kefi çox sazdı dayım.
Haqsızlığa dözmədi bu şeiri yazdı Əşir.
Vətəni satdı daşnağa, bizə zülm etdi dayım.
Arvad, uşağı yaramaz, özü satqındı dayım.

VƏTƏN MƏHƏBBƏTİ

O şimal iblisi gözləri gömgöy,
Ermənіyə doğmadı bizə ögey.
Silahlansın bizim milli ordumuz,
Rusdan, ermənidən yoxdu qorxumuz.

***

Vətənin təbii sərvəti çoxdu,
Mənim xalqımın gözləri toxdu.
İrəvan, Zəngəzur əzəldən yoxdu,
İndi də Qarabağ gözünə oxdu.

***

Hücuma keçsək biz nəslin silərək.
İblisi daşnağa doğrayıb, bölərik.
Nəbi tək vuruşsa milli ordumuz.
Düşməndən tez təmizlənir yurdumuz.

***

Bütün dünyanın əşrəfisən vətən.
Ömrümüzü səninlə bölərik tən.
İstəsən bir yoxla sına bizləri,
Heç vaxt əsməyib Nəbinin dizləri.

***

Sənin hər torpağın qızıldı, zərdi,
Qürurun, vüqarın Xəzər, Kəpəzdi.
Kür-Arazındı ellərin bəzəyi,
Qarabağdı vətənimin özəyi.

***

Erməni alçaqdı ondan dağ olmaz,
Bizim qartal oylağında sor ola bilməz
Sənin vətənin daşlı Araratdı,
Nə qədər bəsləsən də gül bitiməz.

***

Əşirəm vətənə məhəbbətim var,
Ölməyən sərkərdəm, qəhrəmanım var.
Dünyaya yayılıb şanım-şöhrətim,
Odlar yurdu çağrılır mənim adım.
Qəhrəmanlar yetirəm diyardanam
Cavanşir, Koroğlu doğan eldənəm.

EL SALAMAT QAL

Bir gündə min dəfə adın çəkdiyim,
Vətən salamat qal, el salamat qol.
Əksini sinəmə zövqlə əkdiyim
Lalə salamat qal, gül salamat qal.

***

Övladın oxşayıb könlünü alan,
Həsrətli qollarım boynuna salan,
Ayrılığın təməl daşını qoyan.
Çəmən salamat qal, çöl salamat qal.

***

Sevincim qalıbdı vətənimizdə,
Xəyalla gəzirəm cığırda izdə,
Düşməni gözündən vursun gürzə.
Çünki xalqımı səpələyib düzə.

***

Əldən qılıncı verdim, başdan tacı.
Düz danışıram dilim olur acı.
Sərvəti talanam el salamat qal,
Aran salamt qal, dağ salamat qal.

***

Əşir eşqin dənizdi, adın təmiz.
Elinə-obana sevgin əvəzsiz.
Dildən asılsamda yazıram düzün,
Qələmlə tökürəm düşmənin gözün.
Qarı düşmənə qalan el salamat qal,
Sayı unudulan il salamat qal.

XALQI OYAQ

Toylarımız getmir dolğun,
Hər şey sönük, hər şey soğun.
Vətənimdə oldu qırğın,
Adım olub köçkün, qaçqın.

***

Qürbətdə biz yaşa dolduq,
Tez qocaldıq, vaxtsız öldük.
Ocağımız sönük yanır,
Ərlərimiz adın danır.

***

Vətəndə biz ağa idik,
Qürbətdə sındıq, əyildik.
Nə versələr onu yedik
Biz cırım-cında geyindik.

***

Ələ baxan, qərib olduq,
Saç ağardı yaşa daldıq.

Qızların yanağı soldu,
Onlar qoca-qarı oldu.

***

Əşir götürmə minnəti,
İllərlə çəkdin zəhməti.
Qışqır, hayla xalqı oyat,
Düşməni qır leş-leşə çat.
Çadırlarda yandıq bəsdi.
Qürbət ömrümüzü kəsdi.

SARIL QƏLƏMƏ

Qürbət çıxacaq mənim axırıma,
Qaçqın sözü yazılıb bəxtimə.
Köçkün adı üstümdə qalacaq,
Dağ qarı məndən ağlıq alacaq.

***

Vətəndə şimşək olub çaxardım,
Qürbətdə mən sıxıldım, qocaldım.
Çıxardım lalə çəmən sehrinə,
Uyardım gözəllərin telinə.

***

Qürbətdə güzaranım pozulub,
Düz sözümdə tərsinə yozulub,
Hüç kim yetmir vətənin hayına,
Hamı göz dikir qonşu payına.

***

Axşam səhər qəm-kədər yeyirəm,
Bir qarın çörəyə şükür edirəm.
Allahımız necə dözür buna?
Niyə qəhr etmir qarı düşmənə?

***

Ürək butamdı, qüssə, qəm, kədər,
Kədərsiz ömrüm olar hədər.
Əşir sən susma sarıl qələmə,
Qoy səsin düşsün küllü aləmə,
Qəhrəman ordun dursa ayağa,
Yurdundan qovular alçaq dığa.

BİR OLAQ

Biz azəri övladıyıq,
Onun qolu qanadıyıq.
Gəlin hər işdə bir olaq
Tikəmizi yarı bölək.

***

Bal yesək də köçəcəyik,
Al geysəkdə köçəcəyik.
Biz qardaşıq, qardaş qalaq.
Düşməndən intiqam alaq.

***

Yeni həyat qurmalıyıq,
Düşməndən qan almalıyıq.
Birləşək, biz birgə olaq,
Bu intizara son qoyaq.

***

İşməyək qardaş qanını,
Almayaq onun canını.
Dostu düşməndən ayıraq,
Düşmənlərə qan udduraq.

***

Əşir yaman aşıb, daşır,
Düşmən görüb qartallaşır.
Deyir birləşək bir olaq,
Yağıdan vətəni alaq.
Yetişək el obamıza,
Sahib olaq komamıza.

DÜŞMÜSƏN GÖZDƏN

Vəzifən var çıxırsan özündən,
Dostlarını salırsan gözümdən.
Vəzifə ərköyün edib səni,
Görmürsən sənə canı yananı.

***

Hələ ki, sığmırsan yerə-göyə,
Vəzifə səni eyləyib kölə.
Şəninə tərif deyir, dostların,
Məclislərdən kəsilmir tostların.

***

Yaşamağına güman azalır,
Təzə dostlar gözündə ucalır.
Əcəldən aman almısan deyə,
Anam nəzir-niyaz verir yenə.

***

Adına tərif deyilir deyə
Fikir vermirsən vətənə, elə.
Saymırsan dostu, ata-anamı,
Sənə ürəkdən, candan yananı.

***

Sən baxmadın Əşirin sözünə,
Özün küllü, qoydun öz gözünə.

Vəzifən gedib düşmüsən gözdən,
Dostlar sənlə danışır üzdən.
Sən vaxtında qayıtsaydın yola,
İndi avara qalmazdın belə.

SƏNƏ NƏ DEYİM DÜNYA?

Yaxşıları sən öldürüb,
Pislərini saxlamısan,
Verdiyini sən almısan,
Xalqı dərd-qəmə salmısan.
Mən sənə nə deyim dünya?

***

Namərdlər bildiyin edir,
Yaltağın işi düz gedir.
Sən əyirsən tərəzini,
Alçağa arxa durursan.
Mən sənə nə deyim dünya?

***

Vətən yolumuz uzanıb,
Bu işdə namərd qazanıb,
Namərdə sən əl uzadıb,
Mərdinə gün ağlamadın.
Mən sənə nə deyim dünya?

***

Mərdi deyə bilmir sözün,
Ağlayır kor edir gözüm.
Yaş tutur mərdlərin gözün,
Deyə bilmir ürək sözün.
Mən sənə nə deyim dünya?

***

Əşir, mərd qana bələndi,

Başına küllər ələndi.
Vaxtından tez saç ağardı,
Günlərimiz qilu, qaldı.
Yaşamağa ümid azdı.
Mən sənə nə deyim dünya?

OĞLUMA NƏSİHƏT

Dar gündə yurduna çevirmə arxa,
Vətəninə elinə daim ol arxa.
Sən qoyma namərdlər mərdləri yıxa,
Qəddar düşmən axırımıza çıxa.

***

Elin-obanın hər işinə yara,
Satılma şöhrətə daş-qaşa, vara,
İşində əməlində sən ol qəti,
İstəmə havayı şanı-şöhrəti.

***

Artıq elə məhəbbəti ülfəti,
Kasıba, zəlilə yetir diqqəti.
Oğlum sən uca tut haqqı, hörməti,
Vətənə sevgi, elə məhəbbəti.

***

Vətənin sirrini sən açma oğlum,
Düşmənin qabağından qaçma oğlum.
Ucadan uca tut ləyaqətini,
Sən qoru Vətənin şan, şöhrətini.

***

Cəmi çox yaşayan olmayır uca,
Ada layiq deyil hər yetən qoca.

Sən istəyirsən get Məşədə, Həccə,
Mənim Məkkəm, Mədinəm də vətəndi.
Cəmi qibləgahım vətəndi, vətən.

***

Mən Əşirəm yadda saxla sözümü,
Dəryadan səbir al, dağdan dözümü.
Cahana tuturam bu gün üzümü,
Oğlum yadda saxla mənim sözümü.
Sən ləkə gətirmə ata adına,
Həmişə yetiş xalqının dadına.

QIZIM

(Nəsihət)

Sən quş kimi uçursan qızım,
Ər evinə köçürsən qızım.
Sən həyata qədəm qoyursan,
Görüm səni xoşbəxt olasan.

***

Gözün kor olsun, qulağın kar,
Gördüyün şəri elə inkar.
Aqillər qazanar hörmət,
Olar onda ismət, ləyaqət.

***

Qaynanan söysə səbir elə,
Sən atasına rəhmət dilə,
Qaynananı eşit ana tək,
Ona hörmətlə vursun ürək.

***

Manevirdi ağıllı kələk,
İşinə əl at eylə kömək.

Səni ucaldar yalnız əmək,
Yıxılan insana əl vermək.

***

Elimsiz ömür kimə gərək,
Heyvan sayağı tıxıb, yemək.
Sən birinə edərsənsə kömək,
Sənin dadına yetər fələk.

***

Bir kimsədən olma narazı,
Qəbul elə verilən azı,
Dəyişik salma qışla yazı,
Onda səndən qalarlar razı.

***

Qonum-qonşuya doğma kəsil,
Desinlər köklüdü bu nəsil.
Sən düşməni sözündən tanı,
Gözdın oxu, üzündən tanı.

***

Zəhərə çevirmə aşını,
Ağrıtma ağrımaz başını.
Öyüdümü sınaqdan keçirt.
Hirs, hikkənə şərbət də içirt.

***

Sözün şirin, dilində bəli,
Dadına yetər Həzrət Əli.
Qızım sözüm sənə yadigar,
Dilin lal olsun, qulağın kar.

***

Dava dalaşlar ev dağıdar,
Yurd-yuvanı edər tarimar.

Əşir sözün olsun yadigar,
Ata nəsihəti baş ucaldar.
Təmiz adın tarixə düşsün,
Ata, ana sənlə öyünsün.

Məndə belə övladam
(satirik şeir)

Düşmən tapdağındadı torpağım,
Əsirdi qız gəlinim vətənim.
Erməni xox etməmiş qaçmışam,
Yad eldə super-market açmışam.

***

Yurd-yuvamı mən atıb qaçmışam,
Yad eldə çadır saray tapmışam.
Karlıyam hamı deyir malades,
Çox qoçağam minirəm "mersedes".

***

Pulum olsa da yardım alıram,
Gözəl yerdə villalar salıram.
Yetimləri ilan kimi çalıram,
Nəyi varsa əlindən alıram.

***

Namus, ar nədi onlara yadam,
Üzümdə qəm olmaz daim şadam.
Vətənçün ölümə gedər adam?
Vicdanı atmışam mən bədzadam.

***

Kimə nə məndə belə övladam,
Dərd çəkmirəm qüssədən azadam.
İstəyirəm xamları aldadam,
Çəkidə həm qiymətdə kəf gələm.

***

Əşir, namərd mərdi yıxıb əzər,
Qocanın, zəifin haqqın kəsər.
Millətinə bəsləyər nifrəti,
Allah kəssin ondakı qeyrəti.
Məzlumu ilan kimi çalırlar,
Şərləyib nəyi varsa alırlar.

GÜC ALMIŞAM

Ana yurdda ucalmışam,
O, torpaqdan güc almışam.
Gəzdikcə qarlı dağları,
Sevdim sərin bulaqları.

***

Güc aldıqca yaylaqlardan,
İçdikcə buz bulaqlardan,
Mən fərəhdən ucalmışam,
Öz elimdən güc almışam.

***

Eldə daim bahar, yazdı,
Göllərində ördək, qazdı.
Yar bağında kefim sazdı,
Dərd tərəfim gözəl qızdı.

***

Vətəndən kamım alaydım,
Daşında mamır olaydım.
Yurdda dönəydim yosuna,
Yapışsaydım kol, kosuna.

***

Əşir baxır yurda sarı,
Qəlbdən qovur intizarı.
Məni bərkdə sına yurdum.
Təqsirkaram qına yurdum.
Ayağa qalxsa ordumuz,
Azad olunar yurdumuz.

MƏNƏ

Mən xoşbəxt idim vətəndə necə,
Qəmi, kədəri almazdım vecə.
Gecələr xəyallara dalanda,
Həkəri layla çalardı mənə.

***

Doğma vətənim elim var idi,
Sönməz ocağım, odun var idi.
Vətəni eli sanardım ana,
Oda balamsan deyərdi mənə.

***

Çox idi yurdun ərəni, əri,
Olmazdı onun yalanı, şəri.
İstidə çimərdim Həkəridə,
Kölgədə uzanardım bürküdə.

***

Gülün üzəndə gülərdi güllər,
Gülşəndə oxuyardı bülbüllər.
Gülüstan son qoyardı qüssəmə,
Dərd yaxın gələ bilməzdi mənə

***

Əşir, sən güvən doğma orduna,
Ordun arxa duracaq yurduna.

Yazınla topla ərəni əri,
Eldən təmizlə məkiri, şəri.
Gül açsın yurdumun bağça bağı,
Elatla dolsun aranı dağı.

DÜŞMƏNƏ QALMAZ

İllər dolandı xəbər yoxdu eldən,
Gül açmadı xəbər yoxdu bülbüldən.
Bayramımız belə qəmli keçərkən,
Biz necə şadlıq umaq elimizdən.

***

İndi təqvim ala bilmirəm ələ,
Çünki ömrümü tez vermişəm yelə.
Daha elimizi gəzə bilmirik,
Çünki vətəni düşmən alıb ələ.

***

İgid Əlyarda getdi əlimizdən,
Adı heç vaxt düşməz dilimizdən.
İgidləri o, başına yığardı,
Onsuz ordu başsız qalıb dağıldı.

***

Dünyanın işlərindən baş açan yox,
Toxu azdı, ac yalavancısı çox.
Bizim igid oğullardan tapılmaz,
Əlyarın vətəni düşmənə qalmaz.

***

Əşir sən nikbin ol, alınar vətən,
Al qana boyanar vətəni alan.
Gecə-gündüz bilmə sarıl qələmə,
Qoy səsin yayılsın küllü aləmə.

Hayla igidləri qaldır ayağa,
Yurdundan qovulsun məkirli dığa.

SƏNİ YÜZ YAŞA

Nəvəm Orxanın ad ğününə ithaf edirəm

Koroğlu cüssəli, Nəbi cüssəli,
Rüstəmi Zaldi mənim Orxan balam.
Qohum əqrabaya köməyi dəyən,
Ele bil peyğənbərdi Orxan balam.

***

Arzu istəyidi ata-ananın,
Havasına oynar tarın, kamanın.
Fəxridi bacının,qohum-qardasın,
Gözü kor olsun ona kəm baxanın.

***

Orxan balam dədəsinin nəridi,
Elə bil ki, Sahi Mərdən Əlidi.
Çox gözəldi qamətidə, boyuda,
Qiymətlidi onun iki soyuda.

***

Bu il orta məktəbi vurursan basa,
Ali məktəbə gir gələk alqışa.
Sən doğrult atanın ehtimadını,
Onunla sevindir doğmalarını.

***

Orxan balam böyü, böyük kişi ol,
Nəslin keçmişi, həm də gələcəyi ol.
Həyatda büdrəmə, mətin yaşa,
Yüzcə yaşında ömrünü vur başa.

***

Əşir dədən istər görə toyunu,
Sevir sənin qamətini, boyunu.
Ad günüdü dostlar girsin oyuna,
Dədən qurban olsun sənin boyuna.
İstəyirəm gedəm Vətənimə, elimə,
Orda yetəm ocağıma, pirimə.

02.05.2011

SAMİRİM

Nəvəm Samirin 12 yaşına xitabən

Şirin-şəkər, Samir balam,
On iki yaşın mübarək.
Mən İstərəm, ay Samir
Həmişə səni şən görəm.

***

Sev ata, ana, bacını,
Sən çıxart ağrı – acını.
Ömrünü namusla yaşa.
Kömək et qohum –qardaşa.

***

Dədənə qoyursan hörmət,
Yolunda çəkirsən zəhmət.
Hamımıza oldun dayaq,
Səni gözlər üstə qoyaq.

***

Ol xanəndə, oxu zildən,
Qiymət gələr sənə eldən.
Tərif et elini, obanı,
Yandır öz doğma sobanı.

***

Əşir dədən sevir səni,
Səndə sev əzizlə onu.
Arzumdur Vətən alına.
Düşmən qanına bulana
Bu gün şən gündü, şənlənək,
Meydanda süzək, əylənək.

09.10.2011

ŞİRİN BACIM, ŞƏKƏR BACIM

Bacım Dilişə

Anam düşəndə yadıma,
Bacım yetişir dadıma.
Anam qədər sevir məni,
Həmişə çəkir, nazımı.
Şirin bacım, şəkər bacım

***

Çox istəyirəm xətrini,
Alıram ana ətrini.
Gözlərimdən duyhur məni,
Fəxr edərək sayır məni.
Şirin bacım, şəkər bacım

***

Ana plovu düşsə yada,
Onda bacım yetşir dada
Plovu bişirir adıma
Anamı salır yadıma.
Şirin bacım, şəkər bacım

***

Baş qoyuram dizi üstə,

Oxşayaraq öyür məni.
Əgər dəcəllik eləsəm
Gülə-gülə döyür məni.
Şirin bacım, şəkər bacım

***

Bacımla mən görüşəndə,
Uzaqlaşır qəm-kədərim.
O, anamı əvəz edir
Məndən qaçır dərdi-sərim.
Şirin bacım, şəkər bacım

***

Əşir, səni anam kimi,
Sevən əziz bacın varmış,
Heyif ki, ana məzarı
Şərəfsiz düşmənə qalmış
Şirin bacım, şəkər bacım

***

YÜZ YAŞA

Nəvəm Səbinənin ad gününə ithaf edirəm

Sözü şirin, özü gözəldi,
Danışığı şirin, şəkərdi.
Onu sevir qohum-qardaşı,
Arzumdur yüzə çata yaşı.

***

Üç bacı, bircə qardaşdılar,
Onlar dost, həm də sirdaşdılar.
Allah, qoru bacıı-qardaşı,

Arzumdu yüzə çata yaşı.

***

Səbiş işarədən qanandı,
Mehriban, həm canıyanandı.
Çal-çağıra qarışa başı,
Arzumdu yüzə çata yaşı.

***

Qonaqlar oyuna girsinlər,
Onlar oynasınlar, gülsünlər.
Dərd-qəmdən uzaq olsun başı,
Arzumdur yüzə çata yaşı.

***

Əşir dədəsi sevir onu,
Sərv qamətin, uca boyunu.
İstər görə nəvə toyunu.
Bolca çörəyini, suyunu.
Azad ola doğma yurdumuz,
Vətəndə ola toylarımız.

10.05.2011

AĞLAMA, ANA

Sən mənim yolumda şamtək əridin,
Mən haqqını necə ödəyim, ana?
Yüz illərlə qulluq etsəm də sənə,
Mən borcundan çıxa bilmərəm, ana.

***

Qəm-qüssə üstündə köklənmiş taram,
Əl vurmayın, əl vursanız ağlaram.
Məzarın düşmən əlində qalıbdı,
Qurban olum, məni qınama ana.

***

Ürəyim sənindi, biləsən, ana,
Kaş ömrüm vətəndə çata sona.
Fikirim xəyalən gəzir Vətəni,
Ziyarət edirəm məzarın, ana.

***

Ümmansan, mən sənin yanında zərrə,
Sən məni dolandır başına hərlə.
Çəkdiyin zəhməti vurmaram yerə,
Yoxsa südün haramım olar, ana.

***

Əşir, sənin dərdin başından aşır,
Fikir, xəyalın Vətəni dolaşır.
Vətənsiz mən dəniz kimi çağlaram,
Siz Allah mənə dəyməyin, ağlaram.
Sən arzu – diləyim, canımsan ana,
İncimə, incisən ağlaram, ana.

O GECƏ

(20 Yanvar gecəsi)

Haqq-ədalət harda qaldı o gecə?
Namərd əllər haqqı boğdu o gecə.
Allah, haqsızlığa dözürsən necə?
Vuran əllər qurumadı o gecə.

***

Zalıma mən necə deyim sözümü,
Axı o, çıxartı görən gözümü.

İmperiya bükdü mənim dizimi,
Haqq-ədalət niyə susdu o gecə?

***

Ana naləsindən yer-göy ağladı,
Qız-gəlinlər başa qara bağladı.
Sinələr cırıldı, saçlar yolundu,
Torpaq al-qana boyandı o gecə.

***

Qara geyindi gözəl vətənimiz?
Yox bizim halımıza yananımız.
İçin-için ağladı ərlərimiz
Allah, de nələr olmadı o gecə?

***

Əşir, necə dözürsən bu dəhşətə?
Bu qırğına, bu zülmə, bu vəhşətə.
Yer niyə bəs məhşərindən çıxmadı?
Zalım alışıb yanmadı o gecə.
Mənim xalqım necə dözdü o zülmə?
O dəhşətə, o qırğına, ölümə.

BALTALA

Budapeşt şəhərində kursda olarkən bayrağımızı təhqir etmiş erməni zabitini öldürən ordumuzun baş leytenantı Ramil Səfərova ithaf edirəm.

Vur düşməni, zoruna qurban olum,
İgidə şərəfdi Vətənçün ölüm.
Xalqın düşübdü erməni toruna,
Mən bələdəm onların kök-soyuna,
Vur! Baltala! Qurban olum zoruna!

***

Biz ağladıq, sızladıq, daha bəsdi,
Anaların göz yaşları əbəsdi.
Doğma Vətənimi alıbdı yağı,
Baltayla sağalar Vətənin dağı,
Vur! Baltala! Qurban olum zoruna!

***

Vətəndə tapdanıb namus, arımız,
Çapılıb, talanıb dövlət, varımız.
Ucqar bir ölkədə, uzaq diyarda,
Qisasım qalmasın qansız dığada,
Vur! Baltala! Qurban olum zoruna!

***

Biz sülh istəyirik qudurur yağı,
Sinəmə çəkirlər dağ üstən dağı.
Xocalı dərdini çəkən oğullar,
Düşməni doğrayar, çapar, baltalar.
Vur! Baltala! Qurban olum zoruna!

***

Kim igid oğlunu qınaya bilər?
Əsəblərin basıb sınaya bilər?
Əşir sevir Ramil kimi nərləri,
Düşməni doğrayıb tökən ərləri.
Vur! Baltala! Qurban olum zoruna!

AD GÜNÜN MÜBARƏK, QIZIM!

Qızım Sevincin ad gününə ithaf edirəm

Mən çox sevinirəm bu ad gününə

Ad günün mübarək, yüz yaşa, qızım.
Xoş gün çıxsın qismətinə, payına,
Ad günün mübarək, yüz yaşa, qızım.

***

O qəhrəman yurdun gözəl qızısan,
Həcər qeyrətli, Sara ismətlisən.
Dosta həlim, düşmənə çox kinlisən,
Ad günün mübarək, yüz yaşa, qızım

***

Qız köçürəsən, gəlin gətirəsən,
Nəvə böyüdüb tərbiyə edəsən.
Altmış yaşa da belə şən çatasan
Ad günün mübarək, yüz yaşa, qızım.

***

Həmişə şad olub, deyib-güləsən,
Doğma eldə toy-büsata gedəsən.
Nəvələrlə Vətəndə toy edəsən,
Ad günün mübarək, yüz yaşa, qızım.

***

Alına torpağın, qayıda haqqın,
Adından silinə didərgin, qaçqın.
Atan Əşir də görə o şad günü,
Vətəndə keçirilən toy-düyünü
Sevinərəm, mənim də gülər üzüm.
Deyərəm ad günün mübarək, qızım.

20.02.2011

SÖZÜ QALDI

Ustad sənətkar Bəxtiyar Vahabzadənin

vəfatı münasibəti ilə

Öldü Bəxtiyarım, ellər ağlasın.
Analar, bacılar qara bağlasın.
Sənət aləminə üz verdi kədər
Ağır dərd olarmı bizim dərd qədər?

***

Arzusuydu dövlət müstəqil ola,
Azad yaza, yarada, yaşa dola.
Yetirdi xalqın, dövlətin dadına,
Çoxlu təltiflər çıxmışdı adına.

***

Şair gördü müstəqil dövlətini,
Öz gerbini, himnini, bayrağını
Dövlətin öz milli ordusu oldu
Sevincdən şairin gözləri doldu.

***

Arzu edirdi torpaqlar alına
Dövlətin işləri düşə yoluna,
İnşallah Azərbaycanın birləşər
Torpaq alınar, arzular gül açar.

***

Görüşmədi Şəhriyarla Bəxtiyar.
Hər dəfə görüş onlardan yan keçdi.
Bu dünyada görüşməsə də onlar
O haqq dünyada ruhları görüşdü.

***

Əşir yaza bilmir, Bəxtiyar ölüb,
Şeir aləmində bir məşəl sönüb.
Şair itkisinə bütün el ağlar
Əlim əsər, qələm yazmaz, dil ağlar.

Ölsə də Bəxtiyarım izi qaldı,
Çoxlu sayda, kitabı, sözü qaldı.

SAXLA YADINDA

Xalq qəhrəmanı Həcər xanıma böhtan yazan şair Akif Səmədə

Kimə böhtan yazırsan, Akif Səməd?
«Həcər, Həcər» – deyib kəkələyirsən.
Həcər xanıma atmaq olmaz kəmənd
Elə öz adını ləkələyirsən.

***

Qaçaq Nəbinin həyat yoldaşıdı,
Həm yarıdı, həm onun sirdaşıdı,
Dostlara tor atma, əlin naşıdı
Həcər dəlilərin qız qardaşıdı.

***

Sən ləkə gətirərsən öz adına,
Nər kişilər böhtan deməz qadına.
Gözdən düşərsən, el yetməz dadına,
Mən qurbanam Həcər, Nigar adına.

***

Yazırsan yaz paralanmış Vətəndən.
Düşmənə dağ çəkib, qanın tökəndən.
Qubadlıdan, Xocalıdan, Şuşadan
Sərkərdə Babəki satan dığadan

***

Nahaqdan baxırsan sən sağa, sola.
Yolunu azmısann, tez qayıt yola.

Gəl birləşib düşmənə quraq tələ,
Yurdu azad edib qayıdaq elə.

***

Əşirin sözünü saxla yadında.
Ləkə tapmaq olmaz Həcər adında.
Böhtan demə Həcər, Nigar adına
Onalar çox yetişib xalqın dadına.
Həcər xalqımın qəhraman qızıdı
Xalqını sevmək onun devizidi.

KÖVRƏK ÜRƏYİNƏ QURBANAM, ANA

Məni işıqlı dünyaya gətirən,
Qayğımı çəkib, ərsəyə yetirən,
Gecələr beşik başında oturan,
Gündə yüz dəfə bələyib yedirən.
Kövrək ürəyinə qurbanam, ana!

***

Vətənində kimsəsiz qalıb ağlayan,
Gecə-gündüz ürəyimi dağlayan,
Körpə nəvələrə könül bağlayan ,
Dəniz kimi dalğalanıb çağlayan
Kövrək ürəyinə qurbanam, ana!

***

Fələk mənə niyə belə qarğayıb,
Məni qürbət eldə anasız qoyub!
Həkəri, Bərgüşad[2] kimi çağlaram,
Qan-yaş töküb gecə-gündüz ağlaram,
Kövrək ürəyinə qurbanam, ana!

***

[2] Həkəri, Bərgüşad çay adlarıdı

Əşir gedib çıxa yazı düzünə,
Üz qoya ananın ayaq izinə,
Orda ölüb qallam anamla qoşa,
Çürüyüb qarışam torpağa, daşa.
Kövrək ürəyinə qurbanam,ana!

GƏLİB ÇATDIM 75 YAŞA

Məşəqqətli yollar aşa-aşa,
Mən gəlib çatmışam yetmiş beş yaşa
Düşmən girib torpağıma, daşıma,
Çox bəlalar gəlib mənim başıma.

***

Mən körpəlikdə itirmişəm ata.
Yaşamışam dərdə-qəmə bata-bata.
İşlərimin dalınca tək getmişəm,
Çətinə düşəndə səbir etmişəm.

***

Pir yaşda alındı torpağım, daşım,
Alnıma yazıldı didərgin, qaçqın.
Bu az imiş kimi balam da getdi.
Qəm-qüssəli günlərim tüğyan etdi.

***

Qürbət eldə balamı vurdu yağı,
Sinəmə çəkdi dağ-üstən dağı
Gözləri yolda qaldı cüt balamın,
Gül yanaqları soldu gəlinimin.

***

Şamil balam da durubdu qəsdimə,
Qızmar közü basır yaram üstünə.

Mən hər üzü tüklü görəndə onu,
Vaxtsız ölürəm, çatır ömrümün sonu.

***

Bilirəm ağırdı balamın dərdi.
Axı ağır yükü çəkəndə nərdi.
Qurban olum, eşit ata sözünü,
Qırx üzünü, qaydaya sal özünü.

***

Baxırsanmı atandakı dözümə?
Ölmür, dözür belə ağır zülümə.
Qoşa dərdə dözür,ürəyi «daşdı»
Harda dərdli varsa o, orda başdı.

***

Bağışlayın, kədərləndirdim sizi
Gülən görmək istərəm gözünüzü.
Siz girin meydana, oynayın, gülün
Ürəyinizdən qəm-qüssəni silin.

***

Elə bilək dərd-qəmimiz yox imiş,
Sevinc, gülüş, şənlik bizdə bol imiş.
Dostlar, yeyək, içək, şadlanaq gedək.
Məst olaq, hallanaq, sallanaq, gedək.

***

Səkkizinci kitab qəm karvanıdı,
Ömrümün yetmiş beşinci anıdı.
Üç noyabr günlərimin soltanıdı,
O gün yetmiş beş yaşım tamamdı.

***

Əşirəm, qəm-qüssədən boğuluram,
Qalanlara baxıb şükür edirəm.

Allah yolum açа Vətənə gedəm,
Nəvə toyu edib arzuya çatam.
Vətənimdə ömrüm çata başa,
Çürüyəm, qarışam torpağa,daşa.

20 YANVAR FACİƏSİ

Doxsanıncı ilin yanvar faciəsi
Ayın iyirmisinə keçən gecəsi
«Şanlı ordu»muz tutdu Bakını topa
Aman vermədi bir adam nicat tapa.

***

Gözəl Bakımızı boyadılar al-qana,
Öldü oğul, ana qaldı yana-yana.
Qırdı millətimi öz «qızıl ordumuz».
Qızıl qana boyandı gözəl yurdumuz.

***

Pozaraq konstitusiya adını.
Qorboçov ləkələdi «təmiz» adını.
Qanı ilə tarix yazdı gənclərimiz,
Mükafat aldı qaniçənlərimiz.

***

İyirmi yanvar günü, səhər-səhər,
Dəniz kimi coşub dalğalandı şəhər.
Tabutları düzmüşdülər dörd bir yana,
Ana fəryadı çıxmışdı asimana.

***

Qərənfillərlə bəzənmişdi tabutlar,
Dolurdu qəbristanlar, xiyabanlar.
Analar, bacılar yolurdu saçların
Ər oğullar ağlayırdı için-için.

***

Bu da qırmadı xalqın iradəsini,
Topladı onun gücünü, qüvvəsini.
Yumruq kimi birləşdi qəhrəman xalqım
İçimdən qovuldu xainim, satqınım.

***

Xain ordudan təmizləndi yurdumuz,
Qorudu Vətəni öz Milli Ordumuz,
Yarandı azad, müstəqil dövlətimiz
Öz gerbimiz, himnimiz, bayrağımız.

***

Əşir yaşasa da müstəqil dövlətdə,
Qarabağ boyda yarası var ürəkdə.
Yurdu azad edər qəhrəman ordumuz,
Biz Vətənə gedərik, gülər üzümüz.
Biz Vətənə gedərik, gülər gözümüz.

ATASIZ GÜNLƏRİM

Beş yaşımda atam oldü,
Bununla çırağın söndü.
Atasız keçmədi sözüm,
Olmadı gecəm, gündüzüm.

***

Nadanlar məni danladı,
Düz sözümü səhv anladı.
Dərd-qəmin içində üzdüm,
Ölmədim, birtəhər dözdüm.

***

Atamdan doymadı gözüm,

Getdi məndən taqət, dözüm.
Qismətim oldu qəm-kədər,
Bütün ömrüm getdi hədər.

***

Hər işə özüm tək getdim,
Çətinə düşəndə səbr etdim.
İşlədim, qan-tərə batdım,
Dərdimlə bir yerdə yatdım.

***

Ah-zarla ağardı saçım,
Gəlib çatdı ahıl yaşım.
Pəhlavan bir oğlum getdi,
Bununlada dərdim artdı.

***

Səbr-qərar əldən getdi,
Dərd-qəm məni şair etdi.
Qışım gəlib, yazım getdi,
Şeirimlə bir yaşım ötdü.

***

Ata sənə qurban olum.
Sənsiz çox çəkmişəm zülüm.
Sınıbdı qanadım, qolum
Arzumdu yanına gəlim.

***

Əşirin canı xəstədi,
Ata qəbri məhbəsdədi,
İstər Vətən azad ola
Sevinə, şadlana, gülə.

ÖLÜRƏM BACI

Bacım Dilişin məzarı önündə

Sənsiz gözümdə həyat heçə dönüb,
Qızların, qardaş, bacın gül tək solub.
Hamıdan artıq zülüm mənə olub,
Bacı, oğul, zövcə dərdi qəddimi əyib.
Dərdinə dözmürəm, ölürəm bacı.

***

Qızların dərdə dözmür hey ağlayır,
Ağladıqca ürəyimi dağlayır.
Ağbirçək Adilən ney tək sızlayır.
Onlar ac-susuz sənə yas saxlayır.
Dərdinə dözmürəm, ölürəm bacı.

***

Qardaşların beli dərddən bükülüb,
Xəstə bacın ağlamaqdan üzülüb.
Təbibin cəllad tək səni doğradı,
Fazilin də hönkür-hünkür ağladı,
Dərdinə dözmürəm, ölürəm bacı.

***

Əşir qardaşın səndən doymadı,
O, ağır yarana məlhəm qoymadı.
Mən səni ana əvəzi bilirdim.
Anamın ətrini səndən alırdın.
Mənə qardaş, həm də dayı deyərdin,
Dərdinə dözmürəm, ölürəm bacı.

08.03.2011

BACI

Ölümünə inanmadığım bacım Dilişə ithaf edirəm.

Ölçüyə gəlmir kədər, ağrı, acı

Bu gecə yuxuna girmişdin, bacı.
Yəqin baş sağlığı verirdin mənə,
Könlümü almağa gəlmişdin, bacı
Bu gecə yuxuma girmişdin, bacı.

***

Yuxu deyildi, gerçək idi o anlar,
Sənlə danışıb gülürdü insanlar.
Qaçmışdı könlümün kədəri, qəmi,
Artıq yox idi məndə ağrı, acı,
Bu gecə yuxuma girmişdin, bacı.

***

Gözümü bürüyən dumanı, çəni
Qovmaq üçün sən axtarırdın məni.
Qabillə görüşün sevinci üçün,
O sevinci mənimlə bölmək üçün,
Bu gecə yuxuma girmişdin, bacı.

***

Əşir doğulandan dərdsiz olmayıb,
O, bir dəfə də ürəkdən gülməyib.
Dərdi bir-birindən olubdu ağır,
Ata, ana, bacı, zövcə və oğul.
Dərdimi bölməyə gəlmisən, bacı.
Bu gecə yuxuma girmisən, bacı?

10.03.2011

GÖZƏLLƏR SATILIR PULA

Bu nə gün-güzəran, nə yaşayışdı?
Yetimlər sayılmır, ürəklər daşdı.
Ər igidlər bazarlarda iş gəzir,
Nadanlarsa Dubayı basıb keçir.

***

Gözəllər satılır paraya, pula,
Nadanın əlində çevrilir qula.
Qızlar satır abır, həya, ismətin,
Su içimində itirir hörmətin.

***

Haqq aşiqi atar aşiqliyini,
Görsə bəzi qızlar alçalır belə.
İsmətin qoruyub gözləməyənlər,
Elin adətiylə gəlin köçməzlər.

***

Vağzalı qızların ismət himnidi,
İsmətin itirən bəyəm gəlindi?
Qızlıq ismətini itirən gözəl,
Kaş öləydin gəlin köçmədən əzəl.

***

Əşir, Allah versin elin qismətin,
Qızlarımız itirməsin ismətin.
Vətən azad ola, dünya düzələ,
Qiymət verilə gəlinə, gözələ.
Mənim də ömrüm çata o günü,
Vətənimdi gedəm toya, düyünə.

21.05.1991

QEYRƏT ÖLDÜ

Bazarlar dəbdədi, gedir hamı,
Gədə bazardan alır ilham.
Milli pulumuz hörmətdən düşür,
Xarici pullar hörmətə minir.

***

Gədələr bazarda çox bərk gedir,
Binamus, alçaq bildiyin edir.
Əvvəl insan bir-birin anırdı.
Qardaşlar bir-birinə yanırdı.

***

Məhəbbət yolunda ölən vardı,
Sevənlər işarədən qanardı.
Eşq, məhəbbət, baxış, vüsal öldü,
Aşiqlərin məhəbbəti söndü.

***

İgidləri əyibdi pul-para,
Əksər kişilərin üzü qara.
Gözəllər axdılar Dubaylara
O gündən də öldü abır, həya.

***

Əşir, kim günahsız, kim günahkar,
İçimizdə artıb karlar, korlar.
Əgər doğularsa bic uşaqlar,
Fəxr edə bilərmi ər oğullar?
Allah, sən dayaq ol millətimə.
Kömək et qayıdın qeyrətimə.

22.05.1991

KÖZ AXTARIRAM

Yediyim xörəyin də yoxdu dadı,
İsmət gedib, gözəlin qalıb adı.
Özüm söndürmüşəm yanan ocağı,
Mən sönən ocaqdan köz axtarıram.

***

Al geyərdim, bəyənməzdim qumaşı,
İndi geyinməyə bez axtarıram.
Ayıra bilmirəm düşməni dostdan,
Onları seçməyə göz axtarıram.

***

İşə "insanın cövhəri" deyənlər,
Hamısı olubdur fitrəyeyənlər.
Xaricə qaçıbdı abır-ismətim,
Qeyrətin yerinə söz axtarıram.

***

Gədə-güdələr də olublar ağa,
Doğma yurdumda at oynadır dığa.
Bülbülə cəh-cəh öyrədir qurbağa,
Gəlmələr başlayıb yurdu soymağa

***

Əşir, itib yurdun çığırı, izi,
Yaradanın onu görmürmü gözü?
Zaman mərdi əyib, qırıb qolunu,
Varlılarsa gündə sayır pulunu.
Qalmışam düzlərdə iz axtarıram
Ocağım sönübdü, köz axtarıram.

22.05.1991

MÖHTACAM

Dostum Elnur Yusif oğluna

Məni istəyən qohumlar, dostlar,
Nə ac deyiləm, nə də yalavac.
Təkcə sizi görmək istəyirəm,
Sizin görüşünüzə möhtacam.

***

Gəlin, zəng edin, siz sorun halım,
Qoymayın qürbət eldə tək qalım.
Gəlməsəz sizdən küsüb, umacam,
Gəlin, gəlişinizə möhtacam.

***

Əvvəlki ünvandayam, gələrsiz,
Ərklə bir qonaqlıqda alarsız.
Siz gəlməsəz narazı qalacam,
Gəlin, görüşünüzə möhtacam.

***

Hərdən düşünürəm öz-özümə,
Dostlar niyə görünmür gözümə?
Bəlkə elə bilirlər mən acam?
Yox, ancaq dostlarıma möhtacam.

***

Əşir, əyilmə, kişi əyilməz,
İndiki tərəzilər düz çəkməz.
Mənim günümə düşməyən bilməz,
Alın yazısıdı, qaçmaq olmaz.
Sizin gəlişinizə möhtacam.
Dostlar, görüşünüzə möhtacam.

DEYƏSƏN

İnilti var mərdin dərdli səsində,
Namərdin zövqünə yatır deyəsən.
Yurdumuzun dağılan vədəsində,
Çoxları var-dövlət yığır deyəsən.

***

Pusquda durub vətəni satanlar,

Comərd insanlara hiylə quranlar,
Kölgədə gizlənib mürgü vuranlar,
Aqillərə quyu qazır deyəsən.

***

Hələ yazılmamış kitabdı dünya,
Çətin keçiləsi məktəbdi dünya.
Mayakı sönmüş bir gəmidi dünya,
Yolunu azıbdı, batır deyəsən.

***

Əşirdən dünyanın sevinci qaçır,
Kədər sağ olsun o, qapısın açır.
Dünyanın sərvətin namərd aparıb,
Mərd əlindən zorla dartıb qoparıb.
Alçaqlar vətənin varın talayıb,
Dərdi-səri bizə qalıb deyəsən.

YAŞAYARAM, ŞEIRIM ÇOX QALAN OLSA

Mən haqsız işə dözə bilməyirəm,
Tez özümdən çıxıram, kükrəyirəm.
Dostlarım bu halımı sevməyirlər,
“Hər şeyi ürəyə salma” deyirlər.

***

Hər bir haqsızlığı ürəyə salsan,
Vaxtsız qocalıb dünyadan köçərsən.
Dostlarım haqlıdır, bilirəm bunu,
Ölümdür, itimdir həyatın sonu.

***

Həyatda hər şeyə fikir verməyən,
Dost-tanışının dərdini çəkməyən
İnsana nifrət etmişəm həmişə.
Daim onlarla girmişəm savaşa.

***

Basılan torpağın, sönən ocağın,
Ah-nalə qoparan gəlinin, qızın,
Düşmənə verilən torpağın, daşın,
Dərdini çəkmədən necə yaşayıram?

***

Sökülən hasarın, sönən işığın,
Quruyan ağacın, batan bulağın,
Namusu tapdanan qızın, gəlinin,
Dərdini çəkmədən necə yaşayım?

***

Elin dərdini ürəyə salmasam,
Kədərdə ağlayıb, dəmdə gülməsəm,
Haqsızlıqlara mən sinə gərməsəm
Şeirim ürəyə yol açа bilməz.

***

Hər şeyə biganə qalaramsa mən,
Toyda kədərlənib, vayda olsam şən,
Viranə bağlara mən desəm gülşən,
Dostum, sən özün də məndən küsərsən.

***

İnsan çəkirsə elinin dərdini,
Ürəyə salırsa qəm-kədərini,
Onunla qəmlənər, gülərsə əgər.
Qəlbdə yaşar dünya durana qədər.

***

Ayağım isti olsa, başım sərin
Biganə olub düşünməsəm dərin,
Mən çox yaşayıram, sözünüz düzdü.
Belə yaşamağın özü ölümdü.

***

İnsandan iz yoxsa yaşamır demək,
Adamları ucaldar ancaq əmək.
Mənim öz ömrüm qısa da olsa,
Yaşaram şeirim çox qalan olsa.

***

Əşir daim elin oduna yanır,
Eliylə ağlayır, eliylə gülür.
Elinə yanmayan eldə sevilməz,
Şeirləri qəlbə yol tapa bilməz.
Xoşbəxt olaram elim məni ansa,
Şeirim qəlblərə yol tapa bilsə.

YARDIMA MÖHTAC

Yalanlar bizi bizdən alıbdı,
Milin şoran çölünə salıbdı.
Yalan vədlə aldadırlar bizi
İtirmişik güzəranımızı.

***

Dizlərindən bağlanıbdı nərlər,
Sinəsindən dağlanıbdı ərlər.
Çadırdı yaşayır ac-yalavac,
Ər-oğul qalıb yardıma möhtac.

***

Biz dinməsək canımız sağ olur,
Dinsək deyirlər üzə ağ olur.
Doğma eldən çəkilmir gözümüz,
Çadırda ölmək istəmirik biz.

***

Bir gün dözəmməzlər susuz, qazsız,
Oduna, suyuna möhtac neyləsin?
Yadlardan kömək umur millətim,
Əldən gedir abırım, ismətim.

***

Allah üz döndərsə bəndəsindən,
Əşir, haqq istəmə gədəsindən.
Bu zamanda qanmasan yaxşıdı,
Qananların gözləri yaşlıdı.
Qəhrəman xalqım ayağa qalxsın,
Düşməni qırıb yurdumdan qovsun.

12.09.1992

MİSRALAR

Ürəklərə ruh verir, nur çiləyir,
Bizi bizə tanıtdırır misralar.
Yurdumuzu daş-daş göstərir bizə,
Yel qanadlı, aslan güclü misralar.

***

Şeir dili əslin, soyun dilidir,
Nizaminin, Füzulinin dilidir.
Marşımızın, himnimizin dilidir.
Göz oxşayır, könül açır misralar.

***

Dərdimizi anlayandı, sezəndi.
Yurdumuzu qarış-qarış gəzəndi.
Bayram günü al qumaşa bəzənər,
Yas olanda kəfən geyər misralar.

***

O tay bu tay Azərbaycanı gəzir.
El üçün ağlayır, özünü üzür.
Gedən kəndin, şəhərin dərdin çəkir,
Hayqırıb xalqı oyadır misralar.

***

Gəzir eli, yatanları oyadır,
Palıd kimi daşda bitir, boy atır.
Nəsimi soyulanda o ağladı.
Elə döndü, eldə qaldı misralar.

***

Əşir, yaz gəldi, bağ-bağça gül açdı.
Şəhriyarın şeirləri dil açdı.
İntizardan Araz daşdı, bulandı.
Günahkar bu ayrılğı salandı.
Zalım cəlladlar gərək qan qusalar,
Gəzir, həqiqət axtarır misralar.

TÜLKÜ BƏYLİK EDİR

(Təmsil)

Nər bağlanıb eşşək quyruğuna,
Göndərilir tülkü buyruğuna.
Qəfəsdədir şir, pələng və ayı.
Ac qalırlar qışı, yazı, yayı.
Bu dünya yaman zalım dünyadır.

***

“Tülkü bəy” yeyib-içib şellənir,
Nər oğlu nər alnından nallanır.
Şir qəfəsdədir, bar-bar bağırır,
İnsanları köməyə çağırır.
Bu dünya yaman zalım dünyadır.

***

Şahin-şonqarı tora salıblar,
Yazıq qartalı nişan alıblar.
Şir qəfəsdə hirsindən ağlayır,
Könlünü dərdə-qəmə bağlayır.
Bu dünya yaman zalım dünyadır.

***

Çaqqal meydan oxuyur bəbirə,
Gündə yüz igid girir qəbirə.
Bizimki qalıb ancaq səbirə,
Bəbir xəstədir, pis gündədir.
Bu dünya yaman zalım dünyadır.

***

Millətimin çoxusu dilənir,
Məmurlar yeyib-içib enlənir.
Tülkü-çaqqal hallanıb, kefdədir,
Allah, millətim yaman gündədir.
Bu dünya yaman zalım dünyadır.

***

Tülkü çox şəndi öyrənib yala,
Qurda meydan oxuyur it, tula.
Xalqım möhtacdı ayrana, şora.
Başbilənlərim salınıb tora.
Bu dünya yaman zalım dünyadı.

***

Tülkü bəy məcbur edir bəbiri,
Özü qazsın özünə qəbiri.
Arxasız qalıbdı bizim bəbir,
Pələng, ayı, qəfəsdə dardadı.
Bu dünya yaman zalım dünyadı.

***

Əşir, Vətənsiz canın xəstədi,
Torpaq gedibdi ömür məsdədi.
Şir bağlıdır, salınıb qəfəsə,
"Tülkü bəy" qorxmur, gəlib həvəsə.
Bu dünya yaman zalım dünyadı.

13.10.1992

İŞLƏRİMİ KORLAMA

Tükənməz arzular, dərin arzular,
Dar çərçivə sevmir geniş arzular.
İndi-İndi işim düşür sahmana.
Get, Əzrayıl, işlərimi korlama.

***

Təzə-təzə qanad açıb uçuram.
Düşmənlərə "odlu" tənqid yazıram.
Dost yolunda ölməyə də hazıram,
Get, Əzrayıl, işlərimi korlama.

***

Çatıb ömrün qışı, qarı, şaxtası,
İndi aşılıb ürəyin boğçası.
Qoy yonulsun tabutumun taxtası,
Get, Əzrayıl, işlərimi korlama.

***

Gəl müqavilə bağlayaq, şərt kəsək,
Şərtimizi kişi kimi mərd kəsək.
Qoy bir işlərimi salım sahmana,
Get, Əzrayıl, işlərimi korlama.

***

Qız-gəlinimi mən görüm həyalı.
Uşaqları halal süddən mayalı.
Nəvə görüm, qoluzorlu, həlləmə,
Get, Əzrayıl, işlərimi korlama.

***

Gözyaşı tökməsin ana-bacılar,
Qan tökənlər cəhənnəmdə yanalar.
Canımızı gəlib alma, zorlama,
Get, Əzrayıl, işlərimi korlama.

***

Vaxtında gəlsən, "xoş gəldin" – deyirəm,
Kəfənimi öz xoşumla geyərəm.
Tabutuma gülə-gülə girərəm,
Get, Əzrayıl, işlərimi korlama.

***

Bəşiroğlu bir can borcludu sənə,
Gözlə, vaxtsız gəlib girişinə ona.
Bağışla məni sən yazı-pozuma,
Get, Əzrayıl, işlərimi korlama,
Tələsmə, işləri salım sahmana,
Sonra gəlib girim qəbir komama.

BİLMİRƏM

Xeyli vaxtdı şeir yaza bilmirəm,
Düzəldib belimi gəzə bilmirəm.

Zehinim korlaşıb, qələmim əsir,
Doğma vətənimdə olmuşam əsir.

***

Yuxuda görürəm vətəni ancaq,
Bu həsrətin sonu nə vaxt olacaq?
Ata-babaların aranı, dağı,
Olub məkrli dığaların oylağı.

***

Əldə qələm əsir, dilim dolaşır,
Bədənim süstləşir, beynim kütləşir.
Sevincim, gülüşüm uzağa qaçır,
Dərd sağ olsun, yenə qapımı açır.

***

Əşir vətənindən düşüb aralı,
Ona görə yazır yasdı, yaralı.
Yenə sulanar quruyan arxım,
Qurular, düzələr yıxılan taxtım.
Gedərik vətənə üzümüz gülər,
Toyumuz, yasımız vətəndə olar.

VƏSİYYƏTNAMƏ

Balalarım, sizə sirrimi aşım,
İstərəm qürbətdən baş alım qaçım.
Dünyaya gələnlən bir-bir gedəcək,
Gedəndə ancaq beş metr ağ geyəcək.

***

Qız-gəlinim səbr, təmkinlə ağlasın.
Başına yeddi gün qara bağlasın.
Balalarım qırx gün yasım saxlasın.
Onlar özgələrin vaxtın almasın.

***

Məni oğlumla dəfn etməyin qoşa,
Qoy o, anasıyla bir getsin huşa.
Məzarım, başdaşım qoy sadə olsun.
İzafi xərclərə yol verilməsin.

***

Qəbrim vətəndə olmasa da olar,
Əlavə xərclər özümüzə qalar.
Vətəndə məni də yada salarsız.
Qəbrimə vətən torpağı səpərsiz.

***

Oğlanlarım, sözə əməl etməsəz,
Məzarımı tək-tənha qazdırmasaz,
Siz narahat etmiş olarsız məni.
Ruhum heç zaman bağışlamaz sizi.
Sözümə əməl edin, rahat yatım.
Sizdən razı qalıb, arzuya çatım.

***

Əşirəm, sadəlik olub devizim.
Mənə cumalıq verməyin əzizim.
Məzarıma Həkəridən su tökün.
Üstümdə vətən gül-çiçəyi əkin.
Balalardan razıyam dağlar qədər,
Onlar həyatda görməsin qəm-kədər.

TÜLKÜ AĞLADI

Tülkülər aslana olublar ağa,
Bülbül cəh-cəhinə gülür qurbağa,
Köhlən atlar tabe olub ulağa,
Məhəl qoyulmur məzluma, qonağa.

***

Ehtiyac hamını qovur bazara,
Pulsuzluq kasıbı salıb azara.
Çox çalışsa da kasıb tapmır para,
Dolanmaqlarına tapılmaz çara.

***

Siçanlar pişiyi sıxıb bucağa,
Varlının pulları sığmır qucağa.
Kasıb odun tapmır qoya ocağa,
Meydan verilib oğruya, qaçağa.

***

Əşir günü-gündən saralıb-solur,
Günləri ağrılı, acılı olur.
Şeytanlar, satqınlar olublar ağa,
Alçaq təpələr meydan oxuyur dağa.
Haqqın ağzına basıblar qara daş,
Belə yaşamaqdansa öləydim kaş.

09.01.1992

PƏLƏNG, ŞİR VƏ AYI

(Təmsil)

Yuxusun qarışdırmışdı,
Meşənin şahı pələng.
Ona görə də o,
Yuxudan durdu hövlanak.
Şah yuxuda görmüşdü ki,
Güclü gücsüzü yeyir.
Zorakılıq, hərc-mərclik
Baş alıb gedir.
Heyvanlar dönüb
Tükü yolunmuş qaza.

Belə getsə,
Biri də çıxmaz yaza.
Şahın qəzəbi aşıb-daşırdı.
O özü-özü ilə danışırdı.
Tülkü ilə çaqqal
Şahın buyruğunda
Dayanmışdı lal.
Onlar əli əl üstə
Qoymuşdular.
Şahın hüzurunda
Boyunburuq durmuşdular.
Şah qəzəbindən bağırdı,
Vəziri, vəkili köməyə çağırdı.
Buyruqçular şahın sözünə
Əməl etdilər.
Vəzir Ayının, vəkil Şirin
Dalınca getdilər.
Ayı ilə Şir şaha təzim etdilər.
Onun buyuruğrnda qolubağlı durdular.
Vəzir dedi: Şahım, belə yaramaz,
Axı sizə əsəbləşmək olmaz.
Çalışın, ələ alın özünüzü,
Siz sərbəst deyin sözünüzü.
Məsləhətləşib bir tədbir görərik,
Şahın buyuruğuna əməl edərik.
Vəzirin sözündən
Şah gəldi özünə,
Sərbəst əməl etdi sözünə.
Dedi: vəzir, bir çarə düşün.
Axı, nədi sənin işin, gücün?

Yox, əzizlərim, belə yaramaz!
İşlər belə getsə
Bir ov da qalmaz.
Müşavirə çağıraq,
Bir tədbir görək.
Ətin yeyilməsinə
Qadağa qoyaq.
Qazıyaq ataq zorakılığın,
Hərc-mərcliyin kökünü.
Aradan götürək
Bu süstlüyü, bu bürkünü.
Qoy bütün heyvanlar
Azad yaşasın.
Qurd quzu ilə
Bir yerdə otlasın.
Buyruqçular
Tülkü ilə Çaqqal
Düşdülər meşənin canına.
Ətyeyən heyvanları
Gətirdilər şahın yanına.
Şah dedi:- Ayı, Şir, Canavar, Bəbir
Siz tökün bu işə bir tədbir.
Şah uzun bir nitq söylədi,
Oturanlar şahı alqışladı.
Natiqlər bir-bir
Kürsüyə gəldi.
Hamı bəyəndi
Şahın sözünü.
Dedilər çıxardarıq
Ətyeyənlərin gözünü.

Qəti qərar çıxarıldı,
Hökm oxundu.
Ətin yeyilməsinə
Qəti qadağa qoyuldu.
Həmin günün səhəri
Meşənin şahı Pələng
Yanına çağırdı
Vəziri Ayını, vəkili Şiri.
Dedi:–Bir tədbir tökün.
Dəvə çox həddini aşıb.
Meşədə yeyib,
Kökəlib harınlaşıb.
Əmr verildi
Canavarla Bəbirə.
Dedilər Dəvəni
Siz göndərin qəbirə.
Onu dağdan endirən düzə,
Parçalayın,
Ətini gətirin bizə.
Əməl olundu şahın sözünə.
Şah hər gün dadlı yeməklər
Hazırlatdı özünə.
Ayı, Şir, Canavar və Bəbir
Ov heyvanlarına bir-bir
Qazdılar qəbir.
Şah yaşayırdı
Azad, firavan,
Deyirdi yetişib
Gözəl bir zaman.
Şahın hesabına

Firəvan yaşayırdı
Şir, Bəbir,
Canavar və Ayı.
Onlar yoğunlayıb
Hərəsi olmuşdu
Bir eşşəyin tayı.
Onlar Tülkü ilə Çaqqala
Möhkəm göz qoyurdular.
Onların keçiyində
Ayıq-sayıq dururdular.
Acından qaranlıq çökmüşdü
Onların gözünə.
Təkcə onlar əməl
Edirdilər şahın sözünə.
Bir gün Çaqqal
Ələ alıb özünü
Dostu Tülküyə
Dedi sözünə.
Ayı, Şir, Canavar, Bəbir
Diri-diri bizə
Qazırlar qəbir.
Onlar özləri
Yeyirlər doyunca.
Məgər biz ac
Qalmalıyıq ölüncə?
Gəl biz də ova çıxaq.
Bir neçə quş ovlayaq.
Kəndin kənarına gedib,
Toyuq qovlayaq.
Dostlar gəldilər kəndə sarı,

Kəndin kənarında
Tapdılar şikarı.
Papıllı beçəni
Tutmaq istəyəndə çaqqal,
O qaçdı, dostlar qaldı naçar.
Onlar çil toyuğu tutub
Parçalayıb yedilər,
Göyə əl qaldırıb
Allaha şükür etdilər.
Tülkü ilə çaqqal
Gəldilər özlərinə.
İşıq gəldi onların gözlərinə.
Papıllı Beçə şaha
Şikayətə getdi.
Şaha baş əyib təzim etdi.
Dedi: –Şahım, Tülkü ilə Çaqqal
Anam çil toyuğu yedilər,
Məni isə bu kökə saldılar.
Şahın ünvanına isə
Nalayiq sözlər dedilər.
Şah qəzəbindən əsdi, bağırdı,
Tez bir müşavirə çağırdı.
Məhkəmə quruldu.
Müqəssirlərə bir-bir
Söz verildi.
Şah dedi: Siz
Yolunuzu azmısınız.
Deyin görək, niyə
Mənim qərarımı pozmusunuz?
Tülkü dilini işə saldı,

Şahdan dönə-dönə
Üzr istədi.
Bunun günahkarı
Çaqqaldı dedi.
O, məni yolumdan azdırdı.
Mən başıdaşlı da
Baxdım onun sözünə,
Külü qoydum öz gözümə.
Əməl etmədim şahın əmrinə.
Özüm fərman verdim
Özümün ölümünə.
Çaqqalsa ağzın açıb
Danışa bilmədi.
Tir-tir əsdi.
Qəhər onun boğazını kəsdi.
Şah dedi: –Düzdü, Çaqqal
Ovlayıb toyuğu.
Sən isə olmusan
Onun qonağı.
Hər ikisinə
Ağır cəza verilsin,
Qalanlarına da bu bir
Görk olsun.
Çəpgöz Ayı qərar verdi:–
Çaqqalın gözləri oyulsun,
Tülkünün isə dərisi soyulsun.
Belə olsa, haqq yerini alar,
Meşədə əmin-amanlıq olar.
Tülkü ilə Çaqqal
Layiqli cəzalarını aldı.

Bu iş başqalarına da görk oldu.
Heç kəs çıxmadı şahın əmrindən.
Xalq qurtuldu Tülkü ilə
Çaqqalın zülmündən.
İftara şah yeyirdi yeddi quzu,
Nahara isə kəsirdilər öküzü.
Qırıldı qurtardı bir ov da qalmadı.
Dağlar, meşələr qaldı Ceyransız,
Cüyürsüz, Əliksiz, Maralsız.
Meşəni etdilər dəlik-dəlik.
Tapılmadı nə bir dağ keçisi,
Nə də bir əlik.
Şahın tör-töküntüsündən
Yeyib doydu Ayı, Şir,
Canavar və Bəbir.
Onlara yol göstərirdi Ayı,
Şaha deyirdilər dayı,
Hamı bilsin canının qədrini,
Heç kim aşmasın həddini.
Əgər kimsə həddini aşsa,
Şahın qərarının əksinə çıxsa,
Onun da tülkü kimi
Dərisi soyular,
Çaqqal kimi
Gözləri oyular.

19-20 avqust 1991-ci il

BİZİ TUTDULAR DAŞA

Hörmət edib çıxartdıq başa,
Qonaq oldular plova, aşa,

Cumdular kababa, lavaşa,
Sonra bizi tutdular daşa.

***

Pis qonşu bizi ələ aldı,
Bizə qız verdi, kirvə oldu,
Guya dost-doğma qohum oldu
Sonra bizi tutdular daşa.

***

Daim onlara hörmət etdik,
Sayat Novaya dastan qoşduq.
Onlar yaxşılıq düşmür başa.
Həmişə bizi tutur daşa.

***

Biz paytaxt verib dövlət etdik,
Toylarımızda başa çəkdik.
Onlarsa başladı savaşa,
Sonra bizi tutdular daşa.

***

Ermənilər yolunu azdı,
Ələsgərin ruhunu əzdi.
Üz verdik çıxdılar başa,
Sonra bizi tutdular daşa.

***

Xalqımız torpağını alacaq,
Pislik özlərinə qalacaq.
Nankor qonşular çıxdı başa.
Sonra bizi tutdular daşa.

***

Əşir, yaran olub dözülməz.
Qorxma haqq nazilər üzülməz.

O, tayqulaqda çıxdı başa.
Ölümü oldu bir tamaşa.
Dığanın işi gəlmir xoşa.
Qonşuları tuturlar daşa.

TORPAQ İTİBDİ

Allah yetsin millətimin dadına,
Terror yazılar onun adına.
Gül qoyurlar Andranikin büstünə.
Köz basırlar yaramızın üstünə.

***

Vətənə gedən yolum bağlanıbdı.
Qürbət eldə ürəyim dağlanıbdı.
Biz sülhə üstünlük veririk hələ.
Ona görə silah almırıq ələ.

***

Torpaq itibdi, gün-güzəran gedib.
Vətən çayı quruyub, gülü sahib.
Alçaq dığa bizi tələyə salıb,
Var-yoxumuzu əlimizdən alıb.

***

Erməni namusu çoxdan atıbdı.
Şərəfi, namusu, pula satıbdı.
Basılmaz ordum ayağa qalxacaq.
Murdar dığadan vətəni alacaq.

***

Mən Əşirəm, haqqımı qanmalıyam,
El, obanın qeydinə qalmalıyam.
Millət, qalx ayağa, yapış qılıncdan,
Ermənidə olmaz heç vaxt vicdan.

Səfərbər et, doğma milli ordunu
Düşməndən təmizlə gözəl yurdunu.

DÜNYA HARA GEDIR?

Vətəndə indi gülşəndi,
Qəribin halı pərişandı.
Milli ordum qalx ayağa!
Qoy qovulsun alçaq dığa.

***

Namərd mərdi çəkir tinə.
Gədə ara qatır yenə.
Erməni bildiyin edir.
Dünya belə hara gedir?

***

Vətənsiz dözə bilmirik,
Qürbətdə həsrət çəkirik?
Vətən çıxıb yadımızdan.
Utanırıq adımızdan.

***

Körpə doğular çadırda,
O, böyüyür pis abırda.
Erməni şər əkir hələ
Dünya hara gedir belə?

***

Əşir dözəmmir bu dərdə,
Onu çəkə bilməz nər də,
Bu işlərə dözmür ürək.
Kaş düşməni zəlil görək.
Həsrətə dözürük hələ
Dünya hara gedir belə?

25.05.1992

QORXURAM

İncimərəm haqlı yerə döyülsəm,
Haqsız yerə döyülməkdən qorxuram.
İstəyirəm vətənə çatıb ölüm,
Qürbət eldə ölməyimdən qorxuram.

***

Dostlar xəbər almır mənim halımı,
Qarı düşmən bağlayıbdı yolumu,
Kaş öləndə mərd bağlaya gözümü.
Namərdin bağlamağından qorxuram.

***

Dostlarda uzaqlaşıbdı yolumdan,
Daha heç kim tutmur mənim qolumdan.
Mən həmişə düz getmişəm yolumu,
Qürbət eldə yol azmaqdan qorxuram.

***

Taleyim düz yazılmayıb əzəldən,
Uzaq düşmüşəm həmdəmdən, gözəldən.
Həmzələrin, satqınların, pislərin,
Millətimi satmağından qorxuram.

***

İllər tez fırlanır gedir ömürdən,
Neçə ildi asılmışıq səbirdən,
Əşir deyir qürbət eldə qocalıb.
Yurd-yuvasız ölmiyimdən qorxuram.
Tüfeylinin, biqeyrətin, satqının
Araları qatmağından qorxuram.

AYAĞA QALX

Adlı-sanlı ellərin var,
Nərə çəkən ərlərin var.

Keçməkeşli illərin var,
Dığaları yandırıb yax,
Qəhrəman xalq, ayağa qalx.

***

Yaşın dünya yaşındadı,
Tarixin hər daşındadı.
Yağı düşmən qabağında,
Nərə çək, ildırım ol çax.
Qəhrəman xalq, ayağa qalx.

***

Bölünən torpaq sənindi,
Dərdin dəryadan dərindi.
Düşmən səni paraladı,
Ərlər olar sənə dayaq.
Qəhrəman xalq, ayağa qalx.

***

Sənin Şuşan daş qaladı,
Möhkəm, basılmaz qaladı.
Düşmən başa od ələdi,
Ürəyimdə sönməz ocaq.
Qəhrəman xalq, ayağa qalx.

***

Sən mətin ol, möhkəm dayan,
Qəhrəmanlar sənə həyan.
Gecikmə, xalqım, oyan,
Yağı düşmənə güllə çax.
Qəhrəman xalq, ayağa qalx.

***

Şəhidlərin qanı axdı,
Düşmən gülə-gülə baxdı.

Arxaya bax özünü tanı,
Vüqarını saxlayır dağ.
Qəhrəman xalq ayağa qalx.

***

İgid gərək candan keçə,
El yolunda qandan keçə.
Namərd, naqis dönsün heçə
Düşmənə sən nifrətlə bax.
Qəhrəman xalq, ayağa qalx.

***

Geriyə yol yoxdu, dayan,
Ya qalib gəl, ya da ki, yan.
Qəflət yuxusundan oyan,
Düşmənləri yandırıb yax.
Qəhrəman xalq, ayağa qalx.

***

Qoyma dığa ada çata!
İgid Nəbi dada çata,
Düşmənlər al qana bata,
Babəklərdən gəlsin soraq.
Qəhrəman xalq, ayağa qalx.

***

Sahib ol torpağa, daşa,
Vətənində xoşbəxt yaşa.
Düşmən əli çıxsın boşa,
Büllur çeşmə tək durul ax.
Qəhrəman xalq, ayağa qalx.

***

Düşmənin soy-kökün tanı
Qır dığanın axsın qanı

Eşit ana harayını
Tapdaqdadı ana torpaq
Qəhrəman xalq ayağa qalx.

***

Əşir, xalqına ol həyan.
Dost-düşməni eylə bəyan.
Vətən oğlu, məğrur dayan,
Bayrağını Şuşada tax.
Qəhrəman xalq, ayağa qalx.

BÜLBÜL SAZINA QONAR

Aşiqlər yığılsın bir büsat qursun,
Aşıq Ədalət ön cərgədə dursun.
İstəsəz havalar içində "Cəngi",
Aşıq Ədalətə verin üzəngi.

***

Saz atına minsə yumular gözü,
Dinləyənləri yandırar onun sazı.
Onun meydanında hamı mat qalar,
Bülbül Ədalətin sazına qonar.

***

Hicrandan sönərsə könül şamımız,
Ürəkdə qalarsa arzu, kamımız,
Əgər sussa ruhumuz, qanımız,
Ədalət çalsın, gen durun hamınız.

***

Əgər ayrılıq sənə gəlsə üstün,
Canın yansa, təpəndən çıxsa tüstün,
Sən dərdi qova bilməzsən özündən,
Yapış aşıq Ədalətin sazından.

***

Hər kim sazın sözün qiymətin bilsə,
Onunla ağlasa, onunla gülsə,
Həsrəti sevincinə üstün gəlsə,
Ustad Ədalətin yanına gəlsin.

***

Əşir Kərəm yanıb onun yanında,
"Ruhani" havası vardı canında.
Ustad Ələsgərin yolunu tutub,
Sazıyla ağlayıb, sazıyla gülüb.

MEYDANA GƏLİR

Gül, çiçək açmasa gəlməz bahar,
Əyməz başını hər yetənə tar.
Muğam, təsnif öz xiridarına,
Toylarımız sazla meydana gəlir.

***

Elin adəti heç vaxt pozulmaz,
Su gələn arxların suyu qurtarmaz.
Şikəstə unudulmaz, saz atılmaz,
Toylarımız sazla meydana gəlir.

***

Ovsunlayır əyriləri, düzləri,
Xəbis qəlblərdən əridir buzları.
Riqqətə gətirir oğlan, qızları,
Toylarımız sazla meydana gəlir.

***

Sazda Qurbaninin atəşi vardı,
Eşqin atəşi sevənlərə yardı.
Abbasın, Qəribin ruhu ağlayır,
Toylarımız sazla meydana gəlir.

***

Aşiqi-məşuqlar vüsala yetir,
Sevənlər arzu kamlarına çatır.
Gözəllər naz ilə sallanıb gəlir.
Toylarımız sazla meydana gəlir.

***

Əşir, sazda Ələsgərin gözü var,
Ağ aşığında fikri, sözü var.
Alının Şəmşirin yeri, izi var.
Toylarımız sazla meydana gəlir.

GÖRƏSƏN

(Qubadlının işğalına yazılmış ağı)

Həsrətlə doludu Fərməsi, Teri.
Getmək istəmir, hey boylanır geri.
Bilmir ki, harda olacaq yurd yeri,
Bu köç belə hara gedir görəsən?

***

Yayın istisində üzü arana,
Qoca, cavanı bulana-bulana,
Dünyanın belə qarışıq vaxtında,
Bu köç belə hara gedir görəsən?

***

El obasından, yurdundanmı bezib,
Kimlərdənsə canda qorxumu sezib,
Ata-baba yurdun sahibsiz qoyub,
Bu köç, belə hara gedir görəsən?

***

İlin bu vaxtı köç dağlara gedər,
O yeyib içib istirahət edər.

Ər oğullar qaytaracaq geri,
Bu köç belə hara gedir görəsən?

***

Köçün geri dönəsi vaxtı payızdı,
İndisə nə yazdı, nə də payızdı.
Belə istidə yayın qızmarında
Əşir yayın belə oğlan çağında
Bu köç belə hara gedir görəsən?

DOĞMA QUBADLIM

Harda bizim yerin bənzərin görsəm,
Sanıram ki, vətənimdi, vətənim,
Bir elə, obaya qonaq gedəndə,
Sanıram ki, doğma elimdi mənim.

***

Dağlarında, meşəsində gəzəndə,
Bulaqlarından sərin su içəndə,
Baldırğanın, quşəppiyin dərəndə
Elə sanıram Qubadlımdı mənim.

***

Daşqının, sel suyun altında qalan,
Dərdli şairlərin dilində qalan,
Alçaq dığaların əlində qalan,
Vətənim doğma Qubadlımdı mənim.

***

Gəzib dolansanda cümlə, cahanı,
Mən açıq duyuram qarı, boranı,
Belə əzablı didərgin ünvanlı
Doğma vətənim Qubadlımdı mənim.

***

Gəzib dolansan da cümlə, cahanı,
Mən açıq duyuram qarı, boranı,
Belə əzablı didərgin ünvanlı
Doğma vətənim Qubadlımdı mənim.

***

Bəşiroğlu, arzuların gül açа,
Düşmən Vətənindən qovula, qaça.
Sən vətəninə elinə gedəsən,
Dağından, çölündən çiçək dərəsən.
Doğma Qubadlında ölüb qalasan.

QOCALDIM

Ədəb-ərkanda gözlədim həddimi,
Heç keçmədim mərifətdə səddimi.
Didərginlik əydi mənim qəddimi,
Qürbət məni sındırdı, qocaldım.

***

İşim yoxdu aqil ilə, düz ilə,
Qızıl kimi tac hörərəm söz ilə.
İnanırdım ömür çatar yüz ilə,
Vətənimi düşmən aldı, qocaldım.

***

Yağı düşmən Vətənimi taladı,
Yurd-yuvamda sönməz ocaq qaladı.
Bilmədim bu hardan gələn bəladı,
Didərginlik məni sıxdı, qocaldım.

***

Qürbət eldə çox bəla çəkib başım,
Zəhərə qarışıb plovum, aşım.

İllərlə mən çadırlarda yaşadım.
Ərlər ələ baxan oldu, qocaldım.

***

Əşir, dərd belini əyibdi sənin,
İntizarda qalıb doğma vətənin.
Doğma qardaş, sirdaş bildim mərdi mən,
Ən çox sevərdim həyatda düzləri
Eldə yaxına qoymazdım dərd, qəmi
Qürbətdə dərd məni sıxdı, qocaldım.

QAR QIZA QALDI

Ay ellər sevinin, oynayın, gülün,
Yurduma xoş əhvallı Novruz gəldi.
Qışın ömrü başa çatdı başladı bahar,
Ağlayıb sızlamaq qar qıza qaldı.

***

Açdı gül-çiçək oyandı təbiət,
Güllərdən çöllərə vuruldu zinət.
Bahar qız allandı, güldü təbiət,
Hönkürüb ağlamaq qar qıza qaldı.

***

Yazda bərabərləşir gecə, gündüz,
Dəqiqəsi, saniyəsi düppədüz.
Qoxla gülləri, yarın telinə düz,
Cəmi gülüstan bahar qıza qaldı.

***

Gün-güzarən insnları əyibdi,
Uçub, viran olub ürəyin səddi.
Nə vaxt sona çatacaq səbrin həddi?
Sızlayıb, yaşamaq qaçqına qaldı.

***

Geniş dünyamız olubdu bizə dar,
Gözümüzdən düşüb dövlət, var.
Köçkün yaşayırıq neçə qış, bahar,
Nicatımız ulu tanrıya qaldı.

***

Heç kim öz taleyindən qalmır razı,
Hamı öz bəxtindən olar narazı.
Allah vətənə səd qoyub Arazı,
Giley-güzarımız Araza qaldı.

***

Əşir, dünyamız çox boşalır, dolur,
Bu gün dövran sürən sabah can verir.
Allah zalımların canını alar.
Bizim gümanımız bu yaza qalar.

ARZUNA ÇATASAN

Nəvəm Orxanın orta məktəbi bitirməsi münasibəti ilə

İndi artır məsuliyyəti,
Başlayır müstəqil həyatı.
Orta məktəbi vurur başa,
Onun beşləri qoşa-qoşa.

***

O, üç bacıya bir qardadı,
Həm dostdu, həm də ki, sirdaşdı.
Orxan daim ucada dursun,
Bacıları onunla öyünsün.

***

Kaş ki, ali məktəbə girsin,
Bütün arzuları çin olsun.

Sevindirsin ata, ananı,
Həm nənəni, həm də babamı.

***

Sən həmişə oxşa atana,
Sənə arxa, dayaq durana.
Heç vaxt uyma nadan sözünə,
Həmişə sən güvən özünə.

***

Əşir dədən qurban adına,
Allah yetsin sənin dadına.
Əgər baxsan böyük sözünə,
Onda işin gedər düzünə.
Sən dayaq ol ata, anana,
Sənə candan artıq yanana.

27.06.2011

HƏSRƏTƏM

Xalqım yurddan qovulur bu gün,
Qızlar ram olub, oğul sürgün.
Arana yaylağa həsrətəm,
Yoluma, izimə həsrətəm.

***

Daşnaq at oynadır yurdumda,
Talanıb vətənin elim də.
Diş tökülüb, çöküb ovurdum,
Sevincə, gülüşə həsrətəm.

***

Min yerə dağılıbdı yurdum,
Haçan hücuma keçər ordum?
Mehriban sifətə həsrətəm,
Halal duz-çörəyə həsrətəm.

***

Bomba yağır şəhərə, kəndə,
Allahı da eşitmir bəndə.
Od ələnir torpağa, daşa,
Fikir vermir qardaş-qardaşa.

***

Əşir gədə bildiyin edir,
İndi alxaş məkkəyə gedir.
Bu kor bəxtim məni xar edir,
Gədə yanımdan forsla gedir.
Bir şirin söhbətə həsrətik
İşvəli gözələ həsrətik.

15.08.1992

ƏMİNƏ BALAM

Nəvəm Əminənin on bir yaşına həsr edirəm.

Əminə Qabilimin balasıdır,
Ətir saçır, dağların laləsidir.
Sanki o, günəşin bir parasıdır.
Dədəsinin sevimli balasıdır.

***

Səni xoşbəxt görək Əminə balam,
Böyüyəsən firəvan, həm də sağlam.
Uca tutasan atanın adını,
Doğruldasan əmi etimadını.

***

Mənim balam gözəllərin gözəli,
Dədəsi yazır şeiri, qəzəli.
Budur sənə nəsihətimin əzəli,
Sən sevmə səni sevməyən kəsləri.

***

Əl çalın Əminə girsin oyuna,
Qurban olum qamətinə, boyuna.
Bacıları müşayət etsin onu,
Anası, dədəsi görsün toyunu.

***

Əşir alqışlayır bu ad gününü,
Nəvəsinin bu gözəl şad gününü.
Dostlar siz süzün badələri içək,
Xumarlanaq, girək meydanda süzək.
Daim günlərimiz belə xoş keçsin,
Dostlar sevinsin, düşmən ölüb, itsin.

05.07.2011

SON SÖZ

“Dünya düzəlməz” adlanan bu kitab mənim oxucularla 9-cu görüşümdü. “Xatirəyə dönən günlər”, “İşıqlı şəxsiyyətlər unudulmur”, “Dağlar ağladı”, “Mətanət”, “Mənim ana dilim”, “Yarımçıq ömür”, “Nəbi yurdu”, “Qəm karvanı” kitablarının müəllifiyəm. Şair bütün kitablarında vətənimizin füsünkar gözəlliklərini, qəhrəman xalqını tərənnüm etmişdir. Eyni zamanda içimizdə satqınların, yaltaqların, ikiüzlülərin olduğunu da qeyd etmiş və onları tənqid atəşinə tutmuşdur. Müəllif torpaqlarımızın zaman-zaman getməsinin əsl günahını dönük qəlblərdə, səriştəsiz rəhbərlərdə görür. Elə götürək Qarabağ müharibəsini, bu müharibədə, qəhrəman oğlanlarımız qırıldı, yüzlərlə igidlərimiz şəhid oldu.

Tarixdə anoloqu olmayan Xocalı soyqırımı törədildi. Ancaq vəzifə, var-dövlət sahiblərinin gözləri də yuaşarmadı. Onlar övladlarını ya xaricə qaçırtdılar, ya da gizlətdilər.

Şair hələ də yüzlərlə şəhid qanının yerdə qalmasından həyəcanlanır, fəryad edir, Azərbaycanı cihada çağırı. O, nə qədər nikbin olsa da bəzən hiddətlənir, şikayətlənir. İnsan nə qədər dözümə, səbrə söykənsə də rahatlıq tapmır, dünyanın, zamanın gərdişindən şikayətlənir. Şair demişkən: -“Dünya bizi çaşdırıb, səmtimiz itirmişəm, hara gedəcəyimizi bilmirik”.

Şair Əşir Bəşiroğlu Azərbaycan yazıçılar birliyinin üzvüdür. Onun bundan əvvəlki səkkiz kitabı oxucular tərəfindən maraqla qarşılanmışdır. Biz inanırıq ki, “Dünya düzəlməz” adlanan bu 9-cu kitabda oxucular tərəfindən maraqla qarşılanacaqdır.